

# 27 SENTYABR ANIM GÜNÜDÜR

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 176 (10196) 26 sentyabr 2026-cı il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# MÖCÜZƏNİN BAŞLANĞICI

**27 sentyabr 2020-ci ildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan xalqının həsrətlə gözlədiyi "İrəli!" əmrini verdi!**

*Beləliklə, 44 gün ərzində möcüzələr yaradan, azğın düşməni diz üstə çökdürərək kapitulyasiya aktına qol çəkdirən, otuzillik işğala son qoyan, müharibələr tarixində yeni səhifə açan Azərbaycan Ordusu hərəkətə keçdi!*

Bu müharibənin daha bir qeyri-adiliyi onda idi ki, biz hamımız evimizdə rahat kresloda oturaraq gündəlik hərbi əməliyyatlarda qəhrəman əsgər və zabitlərimizin ən yeni silahlarla düşmənin canlı qüvvəsini, zirehli texnikasını, atəş nöqtələrini, hərbi sursat anbarlarını dəqiq zərbələrlə necə məhv etdiyini, onların döyüş mövqelərini və silahlarını ataraq necə qaçdıqlarını mavi ekranlarımızda ləzzətlə seyr edirdik.

Bu müharibədə hamımızın böyük sevinc və həsrətlə, səbirsizliklə gözlədiyi daha bir məqam da vardı:

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin televiziya vasitəsilə xalqa müraciətləri və yeni yaşayış məntəqələrinin azad edildiyi barədə verdiyi müjdələr!**

Üstəlik, azad olunmuş ərazilərdə fəxr və qürur hissi ilə üçrəngli Azərbaycan bayrağını yüksəyə qaldırması...

**27 sentyabr 2020-ci ildə cənab İlham Əliyevin Azərbaycan xalqına ilk müraciəti yayımlandı.**

Bu müraciət inamlı bir sonluqla bitirdi:

*"Biz öz torpaqlarımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.*

**Biz haqq yolundayıq.**
**Bizim işimiz haqq işidir.**
**Biz zəfər çalacağıq!**
**Qarabağ bizimdir.**
**Qarabağ Azərbaycandır!"**

6

## Vətən tariximizin 27 sentyabr səhifəsi



27 sentyabrda Azərbaycan Ordusu ərazilərimizin işğalına son qoymaq üçün müqəddəs haqq yürüşünə çıxdı. Bütün cəbhə boyu əks-hücuma keçən qəhrəman döyüşçülərimiz irəliyə - doğma torpaqlarımıza doğru şığıdılar. Düşmənin illər boyunca qurduğu keçilməz istehkamlar, dərin səngərlər və beton maneələr igidlərimizin inamı qarşısında darmadağın oldu.

Rəşadətli ordumuz düşmənə nə yerdə, nə də göydə aman verdi. Dəqiq artilleriya zərbələri, havada dronlarımızın sarsıdıcı həmlələri və qurudakı cəsur döyüşçülərimizin qarşısıalınmaz hücumları işğalçıları dəhşətə gətirdi. Elə o tarixi gün - sentyabrın 27-də torpaqlarımız addım-addım düşmən tapdağından azad edilməyə başlandı.

İllərdir həsrətlə gözlədiyimiz o ilk qələbə müjdələri, strateji yüksəkliklərin və kəndlərimizin azad olunması xəbərləri elə 27 sentyabr günü xalqımıza əvəzsiz Zəfər sevinci yaşatdı. Bu, 44 günlük böyük Qələbə dastanının ilk mübarək addımları idi.

10

## Tarix yaradan xalq



Azərbaycan Ordusunun hazırlığı, əsgər və zabitlərin peşəkarlığı, hərbi şücaəti isə Zəfərin əsas dayaqlarından oldu. Amma bütün bunları bir-birindən ayırmaq mümkün deyil. Dövlətin, ordunun gücü və xalqın birliyi bir bütövün müxtəlif tərəfləridir. Zəfər də məhz bu bütövlükdən yarandı. Bu gün geriyə dönüb baxanda Şuşaya gedən yolun sentyabrın 27-dən başladığını görürük. 44 gün ərzində Azərbaycan Ordusunun irəliləməsi, Şuşanın azad olunması və sonrakı proseslər 30 ilə yaxın davam etmiş işğalın sonunu gətirdi.

Hər zəfərin bir qiyməti olur. Bizim Zəfərimizin qiyməti şəhid qanıdır. Ona görə də bu Zəfər qarşısında sevinc qədər məsuliyyət də var. Şəhidlərin bizə əmanət etdiyi Vətən var, qazilərin bizə əmanət etdiyi ləyaqət var. Gələcək nəsillərin bizdən gözlədiyi qüdrətli Azərbaycan var. Bu gün bizim borcumuz həmin Zəfəri yalnız xatırlamaq deyil, onun mənəvi yükünü daşımaqdır. Dövlətimizi daha da gücləndirmək, ölkəmizin inkişafına əməyimizlə töhfə vermək, milli həmrəyliyimizi qorumaq, gənclərimizə tariximizin həqiqətlərini anlatmaq, ən başlıcası, şəhidlərin xatirəsinə layiq yaşamaqdır. Tarix bizə yalnız keçmişi xatırlatmır, eyni zamanda sabah üçün məsuliyyət qoyur. Sentyabrın 27-nin bizə qoyduğu ən böyük məsuliyyət isə birliyi qorumaqdır.

10

## Böyük Zəfərimizin əbədi qəhrəmanları

Vətən müharibəsinin ilk günündən Azərbaycan Ordusunun hər bir əsgər və zabiti böyük Zəfəri qazanmaq üçün əzmlə döyüşdü. 44 gün davam edən müharibənin hər günü onların şücaəti, igidliyi sayəsində tariximizə qələbələrlə yazıldı. Azərbaycan Ordusu düşmənin keçilməz saydığı istehkamları, səngərləri keçərək kəndlərimizi, qəsəbələrimizi, şəhərlərimizi azad etdi. Şiddətli döyüşlərin gedişində Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusu qarşısında zəifliyi, acizliyi göründü. İşğalçı ölkənin əsgər və zabitləri arasında qaçmağı döyüşməkdən üstün tutanlar az olmadı.

Azərbaycan Ordusunun igid əsgər və zabitləri isə ağır döyüşlərdə Vətənin hər qarış torpağı uğrunda qəhrəmancasına vuruşurdular. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər ərazilərimizi düşmənin işğalından azad edirdilər.

44 gün davam edən Vətən müharibəsində sərt iqlim şəraitində, dağlıq ərazilərdə aparılan əməliyyatlar dünya hərb tarixində yeni səhifə açdı. Şuşa uğrunda gedən döyüşlər müzəffər Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsinin zirvəsi kimi tarixə yazıldı. Sıldırım qayaları aşan igidlərimiz əlbəyaxa döyüşlərlə Şuşanı azad etdilər. Onların qəhrəmanlığı sayəsində 8 Noyabr - Zəfər Günü xalqımızın qürur gününə çevrildi.




Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzurun böyük hissəsi işğaldan azad edildi. Ermənistan kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın ərazi bütövlüyünün tam bərpasına nail olundu.

11

# İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidzeni təbrik edib



Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Gürcüstanın Baş naziri İrakli Kobaxidzeyə zəng edib.

Prezident İlham Əliyev İrakli Kobaxidzeni ad günü münasibətilə təbrik edib, ona cansağlığı və fəaliyyətində uğurlar, həmçinin gürcü xalqına rifah arzulayıb.

Gürcüstanın Baş naziri göstərilən diqqətə görə dövlətimizin başçısına minnətdarlığını bildirib.

Telefon danışığı zamanı ölkələrimiz arasında mövcud strateji tərəfdaşlıq və mehriban qonşuluq əlaqələrinin inkişafına dair fikir mübadiləsi aparılıb.

*Prezidentin Mətbuat Xidməti*

# Azərbaycan ilə ABŞ arasında qarşılıqlı münasibətlərin yeni səhifəsi açılır

## Prezident İlham Əliyev "Neuberger Berman" şirkətinin sədri və baş icraçı direktorunu qəbul edib



**Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dünyanın aparıcı investisiya şirkətlərindən olan "Neuberger Berman"ın sədri və baş icraçı direktoru Corc Volkeri qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevin keçən il Nyu Yorkda Corc Volkerlə görüşü məmnunluqla xatırlandı.

Dövlətimizin başçısı bu ilin fevralında "Azərbaycan Respublikası Hökuməti ilə Amerika Birləşmiş Ştatları Hökuməti arasında Strateji Tərəfdaşlıq Xartiyası"nın imzalandığını xatırladaraq, ölkələrimizin qarşılıqlı münasibətlərinin yeni səhifəsinin açıldığını dedi.

Görüşdə Azərbaycan ilə "Neuberger Berman" şirkəti arasında investisiya əməkdaşlığının mövcud vəziyyəti və perspektivləri müzakirə olundu, qlobal investisiya bazarlarında yaranan yeni imkanlar, qarşılıqlı maraq doğuran layihələr və uzunmüddətli tərəfdaşlığın genişləndirilməsi ətrafında fikir mübadiləsi aparıldı.

2016-cı ildən Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "Neuberger Berman" arasında səmərəli əməkdaşlığın həyata keçirildiyi vurğulandı. ARDNF-nin şirkətlə özəl kapital, özəl borc və digər investisiya istiqamətlərini əhatə edən tərəfdaşlığı çərçivəsində əldə olunmuş nəticələr və yeni layihələrdə iştirak imkanları müzakirə edildi.

Qeyd edək ki, 1939-cu ildə Nyu Yorkda yaradılmış "Neuberger Berman" dünyanın iri müstəqil investisiya şirkətlərindən biridir. 613 milyard ABŞ dolları məbləğində aktivlərə malik olan şirkətin özəl bazarlar üzrə qlobal investisiya platforması 170 milyard ABŞ dollarından artıq investisiya öhdəliklərini idarə edir. Platformanın investisiya etdiyi fondların portfelləri 10 min 400-dən çox şirkəti əhatə edir ki, bu da "Neuberger Berman"ın qlobal investisiya fəaliyyətinin miqyasını göstərir.

# ARDNF "Brookfield Asset Management" ilə investisiya əməkdaşlığını genişləndirəcək

## Prezident İlham Əliyev "Brookfield Asset Management" şirkətinin baş icraçı direktorunu qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də dünyanın aparıcı investisiya şirkətlərindən olan "Brookfield Asset Management"in baş icraçı direktoru Konnor Teskini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının bu ilin yanvarında Davosda Konnor Teski ilə görüşü məmnunluqla xatırlandı. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "Brookfield Asset Management" arasında imzalanmış uzunmüddətli strateji əməkdaşlığa dair niyyət protokolunun əhəmiyyəti qeyd edildi.

Görüşdə ölkəmizlə şirkət arasında investisiya əməkdaşlığının genişləndirilməsi, xüsusilə enerji keçidi, bərpaolunan enerji, enerji saxlanc sistemləri və rəqəmsal infrastruktur sahələrində potensial layihələr müzakirə olundu. Azərbaycanın enerji potensialının ölkəmizin regional enerji mərkəzi kimi mövqeyinin möhkəmləndirilməsi baxımından əhəmiyyətinə toxunuldu.

Xatırladaq ki, idarə etdiyi aktivlərin həcmi 1 trilyon ABŞ dollarını ötən "Brookfield" qlobal miqyasda enerji, telekommunikasiya, rəqəmsal infrastruktur, nəqliyyat və digər real aktivlərin iri sahibi və operatorlarından biridir. Şirkətin infrastruktur platforması 308 mindən çox telekommunikasiya obyektini, 77 min kilometr fiber-optik şəbəkəni, 150 data mərkəzini, 36 min 300 kilometrlik dəmir yolu şəbəkəsini və 3200 kilometr ödənişli avtomobil yolunu əhatə edir. Onun kommunal infrastruktur biznesləri dünyada 10 milyondan çox istehlakçıya xidmət göstərir.

# Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin hərbi qulluqçularının təltif edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Xidməti vəzifələrini yerinə yetirərkən fərqləndiklərinə görə Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin aşağıdakı hərbi qulluqçuları təltif edilsinlər:

**"Vətən uğrunda" medalı ilə**

Abbasov Abbas Tofiq oğlu - polkovnik

**"Hərbi xidmətlərə görə" medalı ilə**

MəmmədovAnar Əliağa oğlu - polkovnik-leytenant
Əliyev Fariz Atabəy oğlu- mayor
Hüseynov Musa Mirzağa oğlu - mayor
Quliyev Vahid Vaqif oğlu - mayor
Şirinov Seymur Kamran oğlu - mayor.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 sentyabr 2026-cı il*

# Azərbaycan ilə Tacikistan arasında əməkdaşlıq yeni inkişaf mərhələsinə qədəm qoyur

## Azərbaycan Prezidenti İlham Əliyev Tacikistanın Baş nazirini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 25-də Tacikistanın Baş naziri Koxir Rasulzodanı qəbul edib.**

AZƏRTAC xəbər verir ki, Azərbaycanla Tacikistanın dost və qardaş ölkələr olduğunu deyən Prezident İlham Əliyev ikitərəfli əməkdaşlığın potensialının daha da inkişafı üçün yaxşı imkanların mövcudluğunu bildirdi, əlaqələrimizin genişləndirilməsində özünün Tacikistana, Tacikistan Prezidentinin isə Azərbaycana səfərlərinin, həmçinin müxtəlif səviyyələrdə digər qarşılıqlı səfərlərin əhəmiyyətinə toxundu.

Prezident İlham Əliyev Koxir Rasulzodanın ölkəmizə səfərinin gündəlikdə duran məsələlərin o cümlədən nəqliyyat-logistika, qarşılıqlı iqtisadi fəaliyyət, ticarət dövriyyəsinin artırılması ilə bağlı müzakirələrin aparılmasına imkan yaratdığını dedi.

Qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən Koxir Rasulzoda Tacikistan Prezidenti Emoməli Rəhmonun salamlarını və xoş arzularını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Tacikistan dövlətinin başçısına çatdırmağı xahiş etdi. Dövlətimizin başçısı Emoməli Rəhmonla Azərbaycanda və Tacikistanda, həmçinin beynəlxalq tədbirlər çərçivəsində görüşlərini və söhbətlərini məmnunluqla xatırladı.

Qonaq Tacikistanın Azərbaycanla dostluq və strateji tərəfdaşlıq münasibətlərini yüksək qiymətləndirdiyini vurğulayaraq, hər iki ölkənin prezidentlərinin güclü siyasi iradəsi və etimada əsaslanan dialoq sayəsində əməkdaşlığımızın yeni inkişaf mərhələsinə qədəm qoyduğunu dedi. Baş nazir bu xüsusda Azərbaycan və Tacikistan prezidentlərinin 2024-cü ildə Bakıda imzaladıqları "Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında strateji tərəfdaşlıq haqqında Bəyannamə"ni xatırladı.

Koxir Rasulzoda əlaqələrimizin genişlənməsində Prezident İlham Əliyevin şəxsi töhfəsini vurğuladı.

Baş nazir Azərbaycanın "ASAN xidmət" modelinin əhəmiyyətinə toxunaraq, onun Tacikistanda tətbiqi ilə bağlı maraqlarını ifadə etdi.

Söhbət zamanı Tacikistan mallarının Orta dəhliz vasitəsilə Azərbaycan ərazisindən tranzit keçməklə beynəlxalq bazarlara çıxarılması, metallurgiya, energetika, kənd təsərrüfatı sahələrində əməkdaşlıq məsələlərinə toxunuldu.

Xalqlarımızın tarixi əlaqələri vurğulanaraq ortaq kökləri bölüşdüyü qeyd olundu. Bu xüsusda mütəmadi əsasda qarşılıqlı mədəni-humanitar və idman tədbirlərinin keçirilməsinin vacibliyi bildirildi.

Tacikistanın Baş naziri Azərbaycan tərəfindən tacikistanlı tələbələr üçün ayrılan kvotalara görə təşəkkür etdi.

Azərbaycan və Tacikistanın böyük turizm potensialına malik olduğu vurğulanaraq, Bakı və Düşənbə arasında birbaşa aviareysin açılmasının əhəmiyyətinə toxunuldu, turizm və sərnişindaşıma sahəsində artım məmnunluqla qeyd olundu. Ölkələrimizin turizm imkanlarının təqdim olunması üçün müxtəlif tədbirlərin keçirilməsinin əhəmiyyəti vurğulandı.

Görüşdə qarşılıqlı maraq doğuran məsələlər müzakirə olundu, ikitərəfli münasibətlərin perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

# Formalaşmış tərəfdaşlıq beynəlxalq investisiya layihələrini əhatə edir

## Prezident İlham Əliyev "Global Infrastructure Partners" şirkətinin rəhbərini qəbul edib



**Sentyabrın 25-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aktivlərin idarə edilməsi üzrə dünyanın aparıcı şirkətlərindən biri olan "BlackRock"un tərkibində fəaliyyət göstərən qlobal infrastruktur investisiya şirkəti - "Global Infrastructure Partners"in (GIP) təsisçisi, sədri və baş icraçı direktoru Adebayo Oqunlesini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, söhbət zamanı dövlətimizin başçısının bu ilin yanvarında Adebayo Oqunlesi ilə Davosda görüşü xatırlandı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF), "BlackRock" və "Global Infrastructure Partners" (GIP) şirkəti arasında Davosda imzalanmış uzunmüddətli əməkdaşlığa dair niyyət protokolunun əhəmiyyətinə toxunuldu.

Görüşdə Azərbaycan ilə şirkət arasında investisiya əməkdaşlığının inkişafından məmnunluq ifadə edildi, əldə olunmuş nəticələr və tərəfdaşlığın genişləndirilməsi perspektivləri ilə bağlı fikir mübadiləsi aparıldı.

Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) ilə "Global Infrastructure Partners" (GIP) arasında formalaşmış tərəfdaşlığın artıq konkret beynəlxalq investisiya layihələrini əhatə etdiyi vurğulandı. Bu xüsusda fondun İtaliyanın yüksəksürətli qatar operatoru "Italo"ya və Londonun Qatvik hava limanına bu şirkətlə birgə investisiya yatırdığı qeyd olundu.

Ölkəmizin infrastruktur sahəsində investisiya imkanları, o cümlədən rəqəmsal və nəqliyyat infrastrukturu istiqamətlərində potensial əməkdaşlıq məsələləri ətrafında fikir mübadiləsi aparıldı.

Söhbət zamanı Prezident İlham Əliyevin himayəsi altında Bakıda təşkil olunan İkinci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu və bu çərçivədə Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) və "BlackRock" şirkətinin birgə təşkilatçılığı ilə keçirilən Azərbaycan İnfrastruktur İnvestisiya Dialoqunun əhəmiyyətinə toxunuldu. Bu tədbirlərdə 30 trilyon ABŞ dolları məbləğində aktivləri idarə edən şirkətlərin iştirak etdiyi vurğulandı.

Qeyd edək ki, "Global Infrastructure Partners" şirkəti 2024-cü ildən dünyanın ən böyük investisiya idarəetmə şirkəti olan "BlackRock"un tərkibində fəaliyyət göstərir. İdarə olunan aktivlərinin həcmi 15,3 trilyon ABŞ dolları təşkil edən "BlackRock" enerji, nəqliyyat, rəqəmsal infrastruktur, su və tullantıların idarə olunması sahələrində ixtisaslaşmış qlobal investisiya şirkətidir. "Global Infrastructure Partners"in (GIP) idarə etdiyi aktivlərin həcmi isə 170 milyard ABŞ dollarıdır. Bu şirkət həmçinin "BlackRock", "Microsoft" və "MGX" ilə birlikdə qlobal Süni İntellekt İnfrastruktur Fondunun əsas təsisçilərindəndir.

# A.İ.İsmayılova "general-leytenant" ali hərbi rütbəsinin verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti rəisinin müavini general-mayor Allahverən İbiş oğlu İsmayılova "general-leytenant" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 sentyabr 2026-cı il*

# Azərbaycan-Türkmənistan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur

## Türkmənistanın Prezidenti zati-aliləri cənab Sərdar Berdiməhəmmədova

Hörmətli Sərdar Qurbanquliyeviç!

Türkmənistanın müstəqilliyinin 35-ci ildönümü münasibətilə Sizə və bütün xalqınıza öz adımdan və Azərbaycan xalqı adından ən səmimi təbriklərimi və xoş arzularımı çatdırıram.

Ötən dövr ərzində Türkmənistan böyük inkişaf yolu keçmiş, müstəqilliyinin möhkəmlənməsi, sosial-iqtisadi tərəqqi sahəsində sanballı uğurlara imza atmış, beynəlxalq aləmdə yüksək nüfuz qazanmışdır. Azərbaycan qardaş ölkənizin bu nailiyyətlərinə səmimi-qəlbdən sevinir və dünyada geniş tanınma qazanmış Türkmənistanın daimi bitərəflik siyasətini həmişə dəstəkləyir.

Tarixi köklər, ortaq milli-mənəvi dəyərlər və mehriban qonşuluq telləri ilə bir-birinə sıx bağlı olan xalqlarımızın iradəsindən qaynaqlanan Azərbaycan-Türkmənistan münasibətlərinin hazırkı səviyyəsi məmnunluq doğurur.

Ali səviyyədə qarşılıqlı anlaşmanın mövcudluğu müxtəlif sahələrdə, xüsusilə də ticari-iqtisadi, enerji, nəqliyyat-logistika, mədəni-humanitar və digər sahələrdə əməkdaşlığımızın dərinləşdirilməsi üçün əlverişli zəmin yaradır. Bu xüsusda iyun ayında Azərbaycana həyata keçirdiyiniz dövlət səfərini yüksək qiymətləndirir, səfər çərçivəsində apardığımız danışıqların, imzalanmış sənədlərin və əldə olunmuş razılaşmaların Azərbaycan-Türkmənistan dostluq və qardaşlıq münasibətlərinin möhkəmlənməsi baxımından xüsusi önəm daşıdığını bildirirəm.

İnanıram ki, Azərbaycan-Türkmənistan dostluğu və əməkdaşlığı birgə səylərimizlə bundan sonra da dinamik inkişaf etməyə davam edəcək, strateji xarakter daşıyan tərəfdaşlığımız xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, işlərinizdə uğurlar, qardaş Türkmənistan xalqına daim əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2026-cı il*

# Qazaxıstan Respublikasının Prezidenti zati-aliləri cənab Kasım-Jomart Tokayevə

Hörmətli Kasım-Jomart Kemeleviç!

Manqistau vilayətində keçirilən hərbi təlimlər zamanı hərbçilərin həlak olması barədə xəbər bizi son dərəcə sarsıtdı.

Bu ağır anlarda kədərinizi bölüşür, baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxınlarına, qardaş Qazaxıstan xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 25 sentyabr 2026-cı il*

# Bakıda Azərbaycan və Tacikistan Baş nazirlərinin görüşü olub



**Azərbaycanın Baş naziri Əli Əsədov sentyabrın 25-də onun dəvəti ilə ölkəmizdə rəsmi səfərdə olan Tacikistanın Baş naziri Koxir Rasulzoda ilə görüşüb.**

Bu barədə AZƏRTAC-a Nazirlər Kabinetindən məlumat verilib.

Görüşdə Azərbaycan ilə Tacikistan arasında dostluq və qarşılıqlı hörmətə əsaslanan münasibətlərin uğurla inkişaf etdiyi bildirilib, 2024-cü ildə imzalanmış Strateji tərəfdaşlıq haqqında Bəyannamənin ikitərəfli əlaqələrin inkişafında mühüm mərhələ olduğu vurğulanıb.

Dövlət başçıları İlham Əliyevin və Emoməli Rəhmonun siyasi iradəsinin və birgə səylərinin Azərbaycan-Tacikistan münasibətlərinin hazırkı yüksək səviyyəyə çatmasında həlledici rol oynadığı qeyd olunub.

Ölkələrimizin regional və beynəlxalq təşkilatlar çərçivəsində bir-birinə göstərdiyi qarşılıqlı dəstək yüksək qiymətləndirilib.

Qarşılıqlı ticarətdə müşahidə olunan müsbət dinamika məmnunluqla qeyd edilib. Eyni zamanda ticarət-iqtisadi əməkdaşlığın daha da genişləndirilməsi üçün əhəmiyyətli potensialın olduğu vurğulanıb.

Hökumətlərarası Birgə Komissiyanın fəaliyyətinin, eləcə də Azərbaycan-Tacikistan İşgüzar Şurasının və biznes-forum formatının işgüzar dairələr arasında birbaşa əlaqələrin genişləndirilməsi və yeni birgə təşəbbüslərin reallaşdırılması baxımından əhəmiyyəti diqqətə çatdırılıb.

Nəqliyyat-tranzit sahəsində mövcud olan əlverişli əməkdaşlıq imkanlarından daha səmərəli istifadə olunması məsələləri müzakirə edilib.

Orta dəhlizin Asiya ilə Avropa arasında mühüm nəqliyyat marşrutlarından biri kimi artan rolu, eləcə də Zəngəzur dəhlizinin regionun yeni nəqliyyat arxitekturasında yaratdığı əlavə imkanlar qeyd olunub.

Energetika sahəsində, xüsusilə bərpaolunan enerji istiqamətində qarşılıqlı faydalı əməkdaşlığın inkişafı üçün yaxşı perspektivlərin olduğu bildirilib.

Həmçinin dövlət xidmətlərinin göstərilməsi sahəsində əməkdaşlıq imkanları ilə bağlı fikir mübadiləsi aparılıb.

Mədəni-humanitar və təhsil sahələrində əlaqələrin inkişafından məmnunluq ifadə olunub. Tərəflər arasında illik təhsil kvotalarının qarşılıqlı ayrılmasına dair Sazişin tələbələr üçün əlavə imkanlar yaratdığı bildirilib.

Hökumət başçıları Azərbaycan ilə Tacikistan arasında strateji tərəfdaşlığın bütün istiqamətlər üzrə daha da dərinləşdirilməsi və qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi ilə bağlı məsələləri müzakirə ediblər.

# 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu tərəfdaşlıqların inkişafı üçün mühüm platformadır

## 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun iştirakçılarına

Hörmətli forum iştirakçıları!

Sizi 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda səmimi-qəlbdən salamlayıram.

Bu forumun dünyanın müxtəlif ölkələrindən hökumətləri, beynəlxalq təşkilatları, maliyyə institutlarını, aparıcı şirkətləri, investorları və biznes dairələrini bir daha Bakıda bir araya gətirməsi dərin məmnunluq doğurur.

Builki forumun mövzusu - "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal əlaqəliliyin və investisiya sabitliyinin dayağı kimi" - bu gün xüsusilə aktualdır. Qlobal iqtisadi münasibətlər sürətlə dəyişir, təchizat zəncirləri yenidən formalaşır, yeni nəqliyyat, enerji və texnoloji əlaqələr yaranır. Belə bir şəraitdə sabitlik, əlaqəlilik və etibarlı tərəfdaşlıqlar investisiyalar üçün getdikcə daha böyük əhəmiyyət kəsb edir. Cənubi Qafqazda bərqərar olmaqda olan sülh regional əməkdaşlıq, əlaqəlilik, ticarət və investisiyalar üçün yeni imkanlar yaradır, eyni zamanda daha dərin iqtisadi inteqrasiyaya və diversifikasiyaya dəstək verir.

Azərbaycan iqtisadiyyatı qlobal qeyri-müəyyənlik və geosiyasi çağırışlar fonunda yüksək dayanıqlıq nümayiş etdirmişdir. İqtisadiyyatın şaxələndirilməsi strateji hədəflərimizin əsasını təşkil edir və qeyri-neft sektoru iqtisadi artımın əsas hərəkətverici qüvvəsinə çevrilmişdir. 2020-ci ildən etibarən qeyri-neft sektorunda real ÜDM artımı orta hesabla ildə 5 faiz təşkil etmiş, qeyri-neft sənayesi 1,5 dəfə artmış, qeyri-neft ixracı isə təxminən iki dəfə yüksəlmişdir. Nəticədə 2025-ci ildə qeyri-neft sektorunun ÜDM-də payı 72 faizə çatmışdır.

Bu dinamika sabit və proqnozlaşdırıla bilən biznes mühitinə əsaslanır. Ölkəmizdə təmin edilmiş makroiqtisadi sabitlik, investisiyaların qorunması və əlverişli sahibkarlıq mühiti investorların uzunmüddətli etimadı üçün möhkəm zəmin yaradır. Azərbaycanın strateji coğrafi mövqeyi, nəqliyyat-logistika imkanları, iqtisadi zonalarda yaradılmış müasir infrastruktur, vergi və gömrük güzəştləri, habelə dövlət-özəl tərəfdaşlığı mexanizmləri və tərəfdaş ölkələrlə təsis edilmiş birgə investisiya fondları investorlara dayanıqlı layihələrdə iştirak etmək və bütün regiona texnologiya, kapital və təcrübə gətirən tərəfdaşlıqlar qurmaq üçün geniş imkanlar açır.

Ölkəmizin qlobal strateji tərəfdaşlıqları və qeyri-neft sektoruna artan xarici investisiyalar emal sənayesi, ticarət, enerji, rəqəmsal transformasiya, süni intellekt və qabaqcıl texnologiyalar kimi sahələrdə qlobal dəyər zəncirlərinə daha dərin inteqrasiyaya yol açır.

Bu müsbət meyillər beynəlxalq reytinq agentlikləri tərəfindən də etiraf olunmuşdur. "Fitch" və "Moody's" agentlikləri Azərbaycanın suveren kredit reytinqlərini investisiya səviyyəsinə yüksəltmiş, növbəti dövr üzrə proqnozu müvafiq olaraq "sabit" və "müsbət" kimi qiymətləndirmişdir. Maliyyə dayanıqlığımız 2025-ci ilin sonunda ÜDM-in 110 faizini ötmüş strateji valyuta ehtiyatlarımızla da bir daha təsdiqlənir.

"Şərq-Qərb" və "Şimal-Cənub" dəhlizlərinin kəsişməsində yerləşən Azərbaycan Asiya ilə Avropa arasında mühüm bağlantı halqasına və qapıya çevrilmişdir. Orta dəhliz Mərkəzi Asiyanı Xəzər dənizi vasitəsilə Cənubi Qafqaz, Türkiyə və Avropa ilə birləşdirir; formalaşmaqda olan Zəngəzur dəhlizi - TRIPP əlaqəlilik marşrutu kimi də tanınır - isə Azərbaycanın regional mərkəz rolunu daha da gücləndirəcək və bütün Avrasiya məkanında ticarət, investisiya və sənaye əməkdaşlığı üçün yeni imkanlar yaradacaqdır.

Azərbaycan getdikcə daha çox ölkə üçün etibarlı enerji tərəfdaşıdır. Baxışımız enerji təchizatından kənara çıxaraq "yaşıl enerji" dəhlizlərinin inkişafını da əhatə edir ki, bu da bərpaolunan enerjinin regional bazarlara inteqrasiyasına və Azərbaycan, geniş Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa arasında əlaqəliliyin möhkəmlənməsinə imkan verir.

Ənənəvi enerji sektoru ilə yanaşı, Azərbaycan emal sənayesi, nəqliyyat və logistika, bərpaolunan enerji, rəqəmsal texnologiyalar, kənd təsərrüfatı və qida emalı, turizm, infrastruktur və digər yüksək əlavə dəyərli sahələrdə, o cümlədən işğaldan azad edilmiş ərazilərdə yaranan bərpa və inkişaf imkanları da daxil olmaqla, mühüm imkanlar təklif edir. Qabaqcıl texnologiyalar gətirən, məhsuldarlığı artıran, ixtisaslı iş yerləri yaradan və regional və qlobal dəyər zəncirlərinə inteqrasiyamızı gücləndirən layihələrə xüsusi önəm verilir.

Müasir infrastruktur, sənaye parkları, Ələt Azad İqtisadi Zonası və dövlət-özəl tərəfdaşlığı mexanizmləri belə əməkdaşlıq üçün möhkəm zəmin yaradır. Biz bu alətləri təkmilləşdirməyə və investorlara uzunmüddətli layihələri əminliklə həyata keçirməyə imkan verən şərait yaratmağa davam edəcəyik.

İnvestisiyalara yanaşmamız yalnız kapital cəlb etməklə məhdudlaşmır. Biz texnologiyanı, təcrübəni, innovasiyanı və yeni bazarlara çıxışı yüksək qiymətləndirir, investorlar üçün dayanıqlı dəyər yaradan, eyni zamanda Azərbaycan iqtisadiyyatının modernləşməsini və rəqabətqabiliyyətliliyini gücləndirən tərəfdaşlıqlara üstünlük veririk. 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu bu tərəfdaşlıqların inkişafı üçün mühüm platformadır.

1-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun nəticələri Azərbaycana artan marağı aydın şəkildə nümayiş etdirdi. Ötən il ümumi dəyəri 10 milyard ABŞ dollarından çox olan investisiya sazişləri imzalanmış, bunun 7 milyarddan çoxu qeyri-neft sektorunun payına düşmüşdür.

Bu il iştirakçıların coğrafiyası daha da genişlənmiş, beynəlxalq institutlar, investorlar və aparıcı şirkətlər daha geniş şəkildə təmsil olunmuşdur ki, bu da həm Azərbaycana olan etimadı, həm də geniş regionun artan iqtisadi əhəmiyyətini əks etdirir. Ümid edirəm ki, 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində beynəlxalq investorlar və tərəfdaş şirkətlərlə mühüm investisiya layihələrinə start veriləcəkdir.

Əminəm ki, Bakıdakı müzakirələr konkret təşəbbüslərə və uzunmüddətli əməkdaşlığa təkan verəcək, regionda iqtisadi əlaqələrin möhkəmlənməsinə, əlaqəliliyin artmasına və ümumi rifaha töhfə verəcəkdir.

2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumuna uğurlar, bütün iştirakçılara səmərəli müzakirələr və qarşılıqlı faydalı tərəfdaşlıqlar arzulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 24 sentyabr 2026-cı il*

# Azərbaycan Respublikasının 2027-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, Azərbaycan Respublikasının 2027-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 312** **Bakı şəhəri, 24 sentyabr 2026-cı il**

"Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiq edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 31 oktyabr tarixli 809 nömrəli Fərmanının icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Azərbaycan Respublikasının 2027-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri və sonrakı üç il üçün icmal büdcənin göstəriciləri" və "Azərbaycan Respublikasının 2027-ci il və sonrakı üç il üzrə iqtisadi və sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri" bəyənilsin.

2. Bu Qərarın 1-ci hissəsində qeyd olunan layihələr "Büdcə sistemi haqqında" Azərbaycan Respublikası Qanununun 12-ci maddəsində nəzərdə tutulmuş digər sənədlərlə birlikdə Azərbaycan Respublikasının Prezidentinə təqdim edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "Dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün smeta-normativ və qiymətqoyma sisteminin təkmilləşdirilməsi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 yanvar tarixli 4 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 313** **Bakı şəhəri, 25 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

"Dövlət vəsaitləri hesabına maliyyələşdirilən tikinti obyektləri üçün smeta-normativ və qiymətqoyma sisteminin təkmilləşdirilməsi ilə əlaqədar bəzi məsələlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 9 yanvar tarixli 4 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 1, maddə 87 (Cild I) 2.11-ci bəndi ləğv edilsin.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarı

**№ 314** **Bakı şəhəri, 25 sentyabr 2026-cı il**

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının 4.3-cü bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2021-ci il 7 dekabr tarixli 386 nömrəli Qərarında (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2021, № 12, maddə 1511 (Cild I); 2024, № 2, maddə 229, № 9, maddə 1066; 2025, № 1, maddə 89) aşağıdakı dəyişikliklər edilsin:

1.1. 5-ci hissə aşağıdakı redaksiyada verilsin:

"5. Bu Qərarda dəyişiklik Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 6 oktyabr tarixli 2328 nömrəli Fərmanı ilə təsdiq edilmiş "İcra hakimiyyəti orqanlarının normativ hüquqi aktlarının layihələrinin hazırlanması, razılaşdırılması, qəbul edilməsi və dərc edilməsi qaydası haqqında Əsasnamə"nin 3.5-ci bəndinə uyğun edilə bilər.";

1.2. həmin Qərarla təsdiq edilmiş "ASAN müraciət" informasiya sistemi haqqında Əsasnamə"yə əlavə - "ASAN müraciət" informasiya sisteminin fəaliyyətində iştirak edən qurumların Siyahısı"nda aşağıdakı dəyişikliklər edilsin:

1.2.1. 7-ci hissədə "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" sözləri "İri Şəhərlərin Su Təchizatı" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin;

1.2.2. 14-cü hissədə "Regional Su Meliorasiya Xidməti" sözləri "Regional Su Meliorasiya" Qapalı Səhmdar Cəmiyyəti" sözləri ilə əvəz edilsin.

2. Bu Qərar "Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin tabeliyində olan "Regional Su Meliorasiya Xidməti" və "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" publik hüquqi şəxslərin yenidən təşkili haqqında" Azərbaycan Respublikası Prezidentinin 2026-cı il 20 fevral tarixli 600 nömrəli Fərmanının 1.1-ci və 1.2-ci bəndlərində nəzərdə tutulmuş qapalı səhmdar cəmiyyətləri "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alındıqları gündən qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Milli Məclisin Sədri Sahibə Qafarova Tacikistanın Baş naziri ilə görüşüb



**Milli Məclisin Sədri Sahibə Qafarova sentyabrın 25-də ölkəmizdə səfərdə olan Tacikistanın Baş naziri Koxir Rasulzodanın başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, spiker Sahibə Qafarova bu səfərin ölkələrimiz arasında qarşılıqlı hörmətə, qonşuluq və qarşılıqlı dəstəyə əsaslanan dostluq və etimad münasibətlərinin mühüm təsdiqi olduğunu bildirib. Diqqətə çatdırılıb ki, ümumi milli, mənəvi və mədəni dəyərlərlə sıx bağlı olan xalqlarımızın istəyinə uyğun olaraq ölkələrimiz müstəqillik əldə etdikdən sonra münasibətlərimiz daha da genişlənərək strateji tərəfdaşlıq səviyyəsinə yüksəlib.

Bildirilib ki, 1992-ci ildə diplomatik əlaqələrin yaradılmasından keçən illər ərzində münasibətlərimiz ardıcıl olaraq inkişaf edib və bu prosesdə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Tacikistana və Tacikistan Respublikasının Prezidenti Emoməli Rəhmonun Azərbaycana səfərləri, müntəzəm siyasi dialoq xüsusi rol oynayıb. İkitərəfli qarşılıqlı fəaliyyətin geniş müqavilə-hüquq bazasında Azərbaycan Respublikası ilə Tacikistan Respublikası arasında Strateji Tərəfdaşlıq haqqında Bəyannamə xüsusi yer tutur.

Diqqətə çatdırılıb ki, ölkələrimiz arasında müxtəlif beynəlxalq platformalarda əməkdaşlıq uğurla inkişaf edir. 2023-cü ildə Prezident Emoməli Rəhmonun dəvəti ilə Prezident İlham Əliyevin Düşənbədə Mərkəzi Asiya dövlət başçılarının beşinci Məsləhətləşmə görüşündə fəxri qonaq qismində iştirakından sonra 2025-ci ildən etibarən Azərbaycan bu formatın tamhüquqlu iştirakçısıdır. 2025-ci ilin iyulunda Tacikistan Prezidentinin də iştirak etdiyi İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Sammiti Xankəndidə keçirilib. Vurğulanıb ki, bu sammitin Qarabağda, Xankəndidə keçirilməsi Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb edib.

Görüşdə iki ölkə arasında ticarət dövriyyəsinin artırılması, iqtisadi münasibətlərin inkişafı, mədəni-humanitar əməkdaşlıq, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və digər mövzularda fikir mübadiləsi aparılıb. Bildirilib ki, ölkələrimizin ikitərəfli və çoxtərəfli münasibətlərinə mühüm və müsbət təsir göstərən amillərdən biri parlamentlərimizin qarşılıqlı fəaliyyətidir. Bu gün qanunvericilik orqanlarımız arasında çox səmərəli əlaqələr qurulub, parlamentlərarası dostluq qrupları uğurla fəaliyyət göstərir və bu əməkdaşlığın daha da dərinləşdirilməsi üçün yaxşı imkanlar mövcuddur. Spiker söhbət zamanı qonaqlara Azərbaycan parlamentinin tarixi, müasir parlamentin strukturu və beynəlxalq fəaliyyəti barədə məlumat verib.

2022-ci və 2024-cü illərdə Tacikistana səfərlərini məmnunluqla xatırlayan Milli Məclisin Sədri orada keçirdiyi görüşlərin və apardığı müzakirələrin əhəmiyyətindən danışıb. Spiker 2022-ci ilin martında Bakıda Azərbaycan Respublikasının Milli Məclisi ilə Tacikistan Respublikasının Oli Məclisi arasında Əməkdaşlıq haqqında Sazişin imzalanmasının mühüm əhəmiyyətini vurğulayıb.

Söhbət zamanı Milli Məclisin Sədri qonaqlara işğaldan azad olunmuş ərazilərdə həyata keçirilən quruculuq işləri, insanların öz doğma yurdlarına qayıtması barədə məlumat verib.

Görüş üçün təşəkkürünü bildirən Tacikistanın Baş naziri Koxir Rasulzoda Prezident İlham Əliyevlə görüşünə dair təəssüratlarını bölüşüb, ölkəsinin Azərbaycanla əlaqələrin inkişafına böyük önəm verdiyini diqqətə çatdırıb. Baş nazir Bakının mühüm beynəlxalq tədbirlərin keçirildiyi məkana çevrilməsinin Azərbaycanda sabitliyin yüksək səviyyədə təmin edilməsinin və sosial-iqtisadi inkişafın göstəricisi olduğunu deyib.

Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın qazandığı uğurlardan razılıqla danışan qonaq Ermənistanla sülh müqaviləsinin paraflanmasının mühüm uğur olduğunu diqqətə çatdırıb.

Söhbət zamanı qonaq iki ölkə arasında nəqliyyat, turizm, humanitar sahələrdə əlaqələrin inkişafı, beynəlxalq və parlamentlərarası təşkilatlar çərçivəsində əməkdaşlıq, parlament diplomatiyasının əhəmiyyəti barədə fikirlərini bölüşüb. Qeyd olunub ki, Bakı və Düşənbə arasında birbaşa uçuşların açılması, ikitərəfli layihələrin həyata keçirilməsi iki ölkə arasında ticarət dövriyyəsinin artmasına müsbət təsir göstərib ki, bu da ölkə başçılarının tapşırıqlarının uğurla icra olunduğunu göstərir.

Görüşdə qarşılıqlı maraq doğuran digər məsələlər barədə də fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Spartan Aeronavtika və Texnologiya Kolleci və Azərbaycan Milli Aviasiya Akademiyası Əməkdaşlıq haqqında Saziş imzalayıblar

**Spartan Aeronavtika və Texnologiya Kolleci (Spartan) və Azərbaycan Milli Aviasiya Akademiyası (MAA) Azərbaycanın yeni nəsil aviasiya texniki xidmət mütəxəssislərinin hazırlanması məqsədilə Əməkdaşlıq haqqında Saziş imzalayıblar.**



MAA-dan AZƏRTAC-a bildirilib ki, sazişə əsasən, Azərbaycan tələbələri Spartanın Aviasiya Texniki Xidmət Texnologiyası (Aviation Maintenance Technology - AMT) üzrə hibrid proqramına qəbul olunacaqlar.

Proqramın tələblərini uğurla başa vuran tələbələr "Spartan"ın Oklahoma ştatının Tulsa şəhərində yerləşən kampusu tərəfindən verilən Tətbiqi Elmlər üzrə Assosiasiya (Associate of Applied Science - AAS) dərəcəsini əldə edəcəklər.

"Müasir aviasiyanın inkişaf etdirilməsi Azərbaycanın gələcəyi üçün mühüm əhəmiyyət daşıyır. Elmi tədqiqatların və yeni texnologiyaların inteqrasiyası ilə yanaşı, ixtisaslı işçi qüvvəsinin hazırlanması da bizim fəaliyyətimizin əsas istiqamətlərindən biridir. Tələbələrimizə yalnız yüksəksəviyyəli peşə hazırlığı deyil, həm də Spartan kimi tərəfdaşla beynəlxalq təcrübə əldə etmək imkanının yaradılması bizim üçün böyük əhəmiyyət və maraq kəsb edir", - deyə MAA-nın rektoru, akademik Arif Paşayev vurğulayıb.

"Aviasiya Texniki Xidmət (AMT) proqramı Azərbaycanda, MAA-nın kampusunda həyata keçirilən, interaktiv məzmunla dəstəklənən 13 aylıq onlayn tədris kursunu, həmçinin 8 aylıq praktiki laboratoriya təlimini birləşdirir. "Spartan"ın Tulsa və "Broomfield" kampusları arasında bağlanmış konsorsium sazişinə əsasən, praktiki laboratoriya hissəsi Kolorado ştatının Broomfield şəhərində həyata keçiriləcək. Burada tələbələr təcrübəli və FAA tərəfindən sertifikatlaşdırılmış təlimatçıların rəhbərliyi altında birbaşa hava gəmiləri, mühərriklər və onların komponentləri üzərində praktiki iş aparacaqlar. Təhsili başa vurduqdan sonra tələbələr FAA Airframe and Powerplant (A&P) imtahanlarına buraxılmaq hüququ əldə edəcəklər. Tələbələr Bakıya qayıtdıqdan sonra MAA-da Azərbaycanın Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən həyata keçirilən və təxminən 2 ay davam edən uyğunlaşdırma (conversion) kursunda iştirak edəcəklər. Bunun ardınca əlavə tip üzrə reytinq (type rating) təlimi keçiriləcək. Sözügedən əlavə təlim Spartan-ın tədris proqramına daxil deyil və Spartan tərəfindən əlaqəli şəkildə həyata keçirilmir", - deyə "Spartan Education Group" şirkətinin baş icraçı direktoru Robert Polston bildirib.

Daha sonra Robert Polston əlavə edib: "Sertifikatlaşdırılmış aviasiya texniki xidmət mütəxəssislərinin etibarlı kadr təminatı xəttinin strateji əhəmiyyətini dərk edən aviaşirkətlər uzunmüddətli inkişaflarını daha yaxşı təmin edə biləcəklər. MAA ilə əməkdaşlıq haqqında sazişimiz bu istiqamətdə mühüm addımdır. Proses hazırda "Silk Way Group" və AZAL-da çalışan texniki mütəxəssislərin hazırlanmasından başlayır. Bu tərəfdaşlıq Azərbaycan aviasiya işçi qüvvəsini gücləndirən uzunmüddətli və strateji münasibətlərin inkişaf etdirilməsinə qarşılıqlı sadiqliyimizi əks etdirir".

"Bu əməkdaşlıq Azərbaycanın nəqliyyat infrastrukturunun, o cümlədən aviasiya sektorunun daha da inkişaf etdirilməsi və təkmilləşdirilməsi ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə nail olunması baxımından mühüm əhəmiyyət daşıyır", - deyə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev qeyd edib.

Tərəflərin bir araya gətirilməsində mühüm rol oynamış ALG Transportation Group şirkətinin təsisçisi və baş icraçı direktoru Fərhad Azima bildirib: "Bu əməkdaşlıq Azərbaycan aviasiya təhsilinin beynəlxalq səviyyədə inkişaf etdirilməsində və yeni nəsil aviasiya mütəxəssislərinin hazırlanmasında mühüm rol oynayacaq".

Bu təşəbbüsü dəstəkləyən və imzalanma mərasimində iştirak edən digər yüksəksəviyyəli nümayəndələr sırasında ADA Universitetinin rektoru, səfir Hafiz Paşayev və elm və təhsil nazirinin müavini Firudin Qurbanov da olub.

İlk tələbə qrupunun təhsil xərcləri "Silk Way Group" tərəfindən - baş icraçı direktor Zaur Axundov və baş əməliyyat direktoru Onno Pietersma tərəfindən, həmçinin "Azərbaycan Hava Yolları" QSC (AZAL) tərəfindən - İdarə Heyətinin sədri Samir Rzayev və baş texniki direktor Scott McConnell tərəfindən maliyyələşdirilir. "Spartan" tərəfini isə baş icraçı direktor Robert Polston, strategiya və inkişaf üzrə icraçı vitse-prezident Daniel Bregman və direktorlar şurasının üzvü, kapitan David Bourne təmsil ediblər.

İlk tələbə qrupu 61 nəfərdən ibarətdir. Hazırda tələbələr ADA Universitetində texniki aviasiya istiqaməti üzrə intensiv ingilis dili hazırlığı kursunda iştirak edirlər. Tələbələr Spartan Aeronavtika və Texnologiya Kollecində qeydiyyatdan keçdikdən sonra 16 noyabr tarixindən AMT proqramı üzrə təhsilə başlayacaqlar.

# Milli Məclisin Sədri Sahibə Qafarova Gürcüstan Parlamentinin Sədr müavini ilə görüşüb



**Sentyabrın 25-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan Gürcüstan Parlamentinin Sədr müavini Nino Tsilosaninin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.**

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə Sahibə Qafarova Azərbaycan ilə Gürcüstan arasında tarixən mövcud olan dostluq və mehriban qonşuluq münasibətlərinin bu gün qarşılıqlı etimada və strateji tərəfdaşlığa əsaslanaraq uğurla inkişaf etdiyini bildirib.

İki ölkə arasında münasibətlərin formalaşması və inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolu qeyd edilib.

Bildirilib ki, Azərbaycan və Gürcüstan liderləri tərəfindən ikitərəfli əlaqələrin strateji əhəmiyyəti daim vurğulanır. Bu baxımdan ali və yüksəksəviyyəli qarşılıqlı səfərlərin münasibətlərin inkişafında mühüm rol oynadığı qeyd edilib. Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın Gürcüstana son dövlət səfərinin regional əməkdaşlıq baxımından əhəmiyyətli siyasi mesajlar daşıdığı və Azərbaycan-Gürcüstan dostluq və qardaşlığının regionda əməkdaşlığın daha da gücləndirilməsinə xidmət etdiyi bildirilib.

Nino Tsilosani Azərbaycanın Gürcüstanın suverenliyinə və ərazi bütövlüyünə verdiyi dəstəyə görə təşəkkürünü ifadə edib. Azərbaycanın Xarici İşlər Nazirliyi tərəfindən Gürcüstanın işğal olunmuş ərazilərində keçirilmiş qondarma seçkilərlə bağlı səsləndirilmiş bəyanatın yüksək qiymətləndirildiyi, bu mövqenin mühüm siyasi mesaj olduğu nəzərə çatdırılıb.

Söhbət zamanı iqtisadi əlaqələrin Azərbaycan-Gürcüstan münasibətlərinin mühüm istiqamətlərindən biri olduğu bildirilib. Bu çərçivədə İkinci İnvestisiya Forumunun təşkilində iştirakın və forumun iki ölkə arasında iqtisadi əməkdaşlığın genişləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Parlamentlərarası əlaqələrin Azərbaycan-Gürcüstan münasibətlərinin mühüm istiqamətlərindən biri olduğu bildirilib. Gürcüstan Parlamentinin "Şərəf" medalının Milli Məclisin Sədri Sahibə Qafarovaya təqdim olunmasının parlamentlərarası əlaqələrin yüksək səviyyəsinin göstəricisi olduğu qeyd edilib. Spiker Sahibə Qafarova öz növbəsində təqdim olunan mükafatı yüksək qiymətləndirərək, onu Azərbaycan-Gürcüstan parlamentlərarası münasibətlərinə verilən yüksək dəyərin ifadəsi kimi dəyərləndirib.

Görüşdə qanunverici orqanlarda fəaliyyət göstərən dostluq qrupları, eləcə də parlament komitələri arasında əməkdaşlığın inkişaf etdirilməsinə də diqqət yetirilib. İqtisadiyyat, elm, təhsil, mədəniyyət və digər sahələr üzrə profil komitələr arasında əlaqələrin genişləndirilməsinin, keçirilən görüşlərin və qarşılıqlı səfərlərin, eləcə də yeni təşəbbüslərin bu əməkdaşlığın daha da möhkəmləndirilməsi baxımından əhəmiyyəti vurğulanıb.

Parlamentlərimizin təşkil etdiyi müxtəlif beynəlxalq tədbirlərdə qarşılıqlı fəal iştirakın, eləcə də beynəlxalq parlament təşkilatları çərçivəsində birgə fəaliyyətin və dəstəyin məmnunluq doğurduğu qeyd edilib.

Görüşdə həmçinin qanunvericilik, elm, süni intellekt və digər sahələrdə əməkdaşlığın inkişaf etdirilməsi, qarşılıqlı təcrübə mübadiləsinin genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

*"Azərbaycan"*

# Pensiya sistemində yeni islahatlar sosial ədalət və həmrəylik prinsiplərini gücləndirir

**Sentyabrın 25-də Milli Məclisin Əmək və sosial siyasət komitəsi və Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin birgə iclası keçirilib.**



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, iclasda "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"nin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında", "Hərbi qulluqçuların statusu haqqında", "Hərbi xidmətkeçmə haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Əmək pensiyaları haqqında" və "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" 2023-cü il 22 dekabr tarixli və "Diplomatik xidmət haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) müzakirə olunub.

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev layihəni təqdim edərkən deyib ki, Azərbaycanda əmək pensiyaları sistemi sığorta prinsipləri, yəni şəxsin topladığı pensiya kapitalı əsasında pensiya məbləğinin formalaşması mexanizmi əsasında fəaliyyət göstərir.

Bununla belə, əmək pensiyaları sistemində sosial sığorta prinsiplərinə əsaslanmayan, pensiyaya çıxarkən əməkhaqlarına bağlı olan ödəmələr qalmaqdadır ki, bu da dövlət sektorunda əmək haqqı islahatlarının həyata keçirilməsinə maneələr yaradır və qeyri-bərabər pensiya məbləğlərinin formalaşmasına səbəb olur.

Bu xüsusda sosial sığorta prinsiplərinə əsaslanmayan mexanizmlərin təkmilləşdirilməsi və pensiya təyinatı şərtlərinin müasir tələblərə uyğunlaşdırılması istiqamətində ardıcıl addımlar atılır. Müzakirəyə çıxarılan qanun layihəsi də buna nümunədir. Layihədə dövlət sektorunda həyata keçirilən əməkhaqqı islahatları ilə bərabər, dövlət qulluqçularının, Müdafiə Nazirliyi sistemində xidmət edən hərbi qulluqçuların, səlahiyyət müddətinə görə pensiya alan şəxslərin pensiya təyinatı mexanizmlərinin təkmilləşdirilməsi və vahid sığorta prinsipi yanaşmasının tətbiqi nəzərdə tutulur.

Layihədə təklif olunan digər dəyişikliklər Müdafiə Nazirliyinin hərbi qulluqçularına münasibətdə pensiya təminatı mexanizminin təkmilləşdirilməsi ilə bağlıdır. Komitə sədri bildirib ki, təklif olunan yanaşmaya əsasən həmin hərbi qulluqçuların pensiya məbləği ilə təminat xərcliyi arasındakı əlaqə aradan qalxacaq, onların fərdi şəxsi hesablarında qeydə alınmış pensiya kapitalı və sabit aylıq pensiya əlavəsi əsasında pensiya məbləği formalaşacaq. Aylıq pensiya əlavəsinin məbləği hərbi rütbələr üzrə müəyyən olunacaq.

Komitə sədri layihədəki təklif olunan digər dəyişikliklərin də həssas qrupların sosial təminatı sisteminin gücləndirilməsi, dayanıqlılığının artırılması baxımından əhəmiyyətini vurğulayıb. Yeni islahat tədbirlərində həmçinin pensiyaların indeksasiya mexanizminin daha təkmil, ədalətli və optimal şəkildə qurulması nəzərdə tutulub. Təklif olunan indeksləşdirmə mexanizmində əmək pensiyalarının məbləğinin vahid rəqəmlə deyil, diferensial formada indekləşdirilməsi təklif olunur.

Orta aylıq əməkhaqqına qədər olan pensiyalar əvvəlki kimi, yəni indeksasiya faizi tam tətbiq edilməklə indeksləşdiriləcək, pensiyaların yalnız bundan yüksək olan hissəsinə 0,2 və 0,5 əmsalları tətbiq olunacaq.

Qeyd olunan dəyişikliklər pensiya təminatı sistemində sosial ədalətin daha da gücləndirilməsinə, minimum pensiya məbləğlərinin artırılması imkanlarının genişləndirilməsinə şərait yaradacaq.

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev layihədə Müdafiə Nazirliyinin hərbi qulluqçularının əməkhaqqı və pensiya təminatı mexanizmlərinin təkmilləşdirilməsinə dair təklif olunan dəyişikliklərin mahiyyəti barədə danışıb.

Komitə sədri bildirib ki, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə tarixi Zəfərə imza atmış Azərbaycan Ordusunun sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin mühüm istiqamətlərindən biridir. Müzakirəyə çıxarılan sənəddə əsas məqsədlərdən biri hərbi qulluqçuların əməkhaqqı sisteminin beynəlxalq standartlara və qabaqcıl ordu quruculuğu təcrübəsinə uyğunlaşdırılmasıdır. O vurğulayıb ki, təklif olunan dəyişikliklər hərbi qulluqçuların sosial təminatının gücləndirilməsinə və xidmətin uzunmüddətli perspektivdə stimullaşdırılmasına yönəlib. Məqsəd hərbçilərin pensiya təminatı mexanizminin daha da təkmilləşdirilməsi və gələcəkdə sığorta kapitallarını daha çox artırmalarına, daha yüksək məbləğlərdə pensiya almalarına şərait yaradılmasıdır.

Diqqətə çatdırıb ki, yeni mexanizm nəticəsində Müdafiə Nazirliyinin hərbi qulluqçularının əməkhaqları vergilər və digər icbari ödənişlər çıxıldıqdan sonra orta hesabla 22,8 faiz artacaq, bu məqsədlə illik əlavə olaraq 550 milyon manatadək vəsaitin ayrılması nəzərdə tutulur. Xidmətin yeri, xüsusiyyətləri, şərtləri və ağırlığı nəzərə alınmaqla əməkhaqqı sisteminin vahid strukturunun formalaşdırılması nəzərdə tutulur. Baza maaşı vəzifə maaşı ilə əvəzlənəcək, rütbə maaşının xüsusi çəkisi 70 faizə çatdırılacaq.

O, həmçinin yeni sistemin pensiya təyinatının sadələşdirilməsinə, prosesin elektron qaydada və qısa müddətdə həyata keçirilməsinə imkan verəcəyini bildirib. İslahat nəticəsində pensiyaların müəyyənləşdirilməsində yaranmış fərqlər aradan qaldırılacaq və hərbi qulluqçuların sosial təminatında vahid yanaşma təmin ediləcək.

Sonra əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev Azərbaycanda əhalinin rifahının artırılması istiqamətində görülən işlərdən söz açıb. Diqqətə çatdırılıb ki, son illərdə 5 sosial islahat paketi reallaşdırılıb və bu paketlərin maliyyə təminatı üçün dövlət büdcəsindən illik əlavə olaraq 8 milyard manat vəsait ayrılır. Bu islahatlar minimum və orta aylıq pensiyada 3 dəfə, müavinət və təqaüd ödənişlərində 5 dəfə artımla nəticələnib.

Nazir müavini deyib ki, təqdim olunan qanun layihəsi də bu uğurlu siyasətin davamı olaraq əhalinin sosial təminatı sisteminin inkişaf etdirilməsinə, pensiya sistemində ədalətliliyin və dayanıqlılığın daha da möhkəmləndirilməsinə yönəlib.

Müzakirədə Əmək və sosial siyasət komitəsi sədrinin müavini Elşad Musayev, deputatlar Hikmət Məmmədov, Vüqar Bayramov, Jalə Əliyeva, Samir Vəliyev, Soltan Məmmədov, Gülşən Paşayeva və Elman Məmmədov çıxış edərək layihədəki dəyişikliklərlə bağlı fikirlərini və suallarını səsləndiriblər.

Milli Məclisin komitə sədrləri Musa Quliyev və Arzu Nağıyev, Müdafiə Nazirliyinin Hüquq idarəsinin rəisi Elçin Əliyev, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, suallarını cavablandırıblar.

Sonda qanun layihəsi birinci oxunuşda baxılmaq üçün Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Xalq - iqtidar - ordu vəhdətinin təntənəsi



# Anım Günü - Zəfər tariximizin yaddaşı

**Azərbaycan tarixinin müxtəlif mərhələlərində ağır sınaqlarla üzləşmiş, torpaqlarına göz dikən yadelli qüvvələrə qarşı mübarizə aparmış və bütün bu çətinliklərdən şərəflə çıxmağı bacarmışdır.**

Müasir Azərbaycan tarixinin ən mürəkkəb və faciəli səhifələrindən biri, 1988-ci ildən etibarən Ermənistanın Azərbaycana qarşı irəli sürdüyü ərazi iddiaları zəminində yaranan Qarabağ münaqişəsi olmuşdur. Müxtəlif xarici qüvvələrin dəstəyinə arxalanan Ermənistan təkcə Qarabağ bölgəsini deyil, onun ətrafındakı rayonları da işğal etmiş, nəticədə Azərbaycan ərazisinin 20 faizindən çoxu nəzarətdən çıxmışdır. Bu işğal nəticəsində bir milyondan artıq azərbaycanlı öz doğma yurd-yuvasından didərgin salınaraq qaçqın və məcburi köçkün həyatı yaşamağa məcbur olmuşdur.

Uzun illər davam edən danışıqların nəticə verməməsi, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının təmin olunmaması, işğal edilmiş ərazilərdə qanunsuz fəaliyyətlərin həyata keçirilməsi dövlətimizi öz ərazi bütövlüyünü bərpa etmək üçün qətiyyətli addımlar atmağa sövq etdi. 2020-ci il sentyabrın 27-də ermənilərin təxribatına cavab olaraq cəbhə xətti boyunca genişmiqyaslı hərbi əməliyyat başladıldı. Bu, 44 günlük Vətən müharibəsi kimi tarixə düşdü. Azərbaycan Ordusunun şücaəti, xalqımızın həmrəyliyi və Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə aparılan hərbi əməliyyatlar nəticəsində torpaqlarımızın böyük hissəsi işğaldan azad edildi.

Bu tarixi Zəfərin əldə olunmasında Azərbaycan Respublikası Silahlı Qüvvələrinin hərbi qulluqçularının göstərdiyi qəhrəmanlıq, qazilərimizin fədakarlığı və Vətən uğrunda canlarından keçən şəhidlərimizin misilsiz xidmətləri xüsusi qeyd edilməlidir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, sentyabrın 27-si - Vətən müharibəsinin başladığı gün Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilir. Bu əlamətdar gün Vətən müharibəsində qəhrəmancasına döyüşən, ölkəmizin ərazi bütövlüyü uğrunda həyatını fəda edən şəhidlərimizin xatirəsinə ehtiramın ifadəsidir.

Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin kökləri daha qədim dövrlərə gedib çıxır. Müxtəlif tarixi mərhələlərdə Azərbaycan ərazilərində məskunlaşan ermənilər sonradan ərazi iddiaları irəli sürmüş, yaşayış məntəqələrinin tarixi adlarının dəyişdirilməsi, azərbaycanlı əhalinin sıxışdırılması və müxtəlif bölgələrdə məskunlaşma siyasətinin həyata keçirilməsi istiqamətində fəaliyyət göstərmişlər.

Erməni millətçi dairələrinin fəaliyyəti, xüsusilə Daşnaksütyun partiyasının ideologiyası bu siyasətin formalaşmasında mühüm rol oynamışdır. 1905-1907-ci illərdə, eləcə də 1918-ci ildə azərbaycanlı əhaliyə qarşı kütləvi qırğınlar törədilmiş, çoxsaylı soydaşımız həyatını itirmişdir. 1918-1920-ci illərdə Bakı, Quba, Şamaxı, Qarabağ, Gəncə, Lənkəran, Muğan, Göyçay, Naxçıvan, İrəvan və Zəngəzur kimi ərazilərdə dinc əhali ciddi itkilərlə üzləşmiş, minlərlə azərbaycanlı öz tarixi torpaqlarını tərk etmək məcburiyyətində qalmışdır.

Erməni millətçi ideologiyasında yer alan və geniş ərazi iddialarını nəzərdə tutan "dənizdən dənizə Ermənistan" konsepsiyası da uzun müddət bölgədə gərginliyin əsas amillərindən biri olmuşdur. 1948-1956-cı illərdə həyata keçirilən deportasiya siyasəti nəticəsində Azərbaycanda yaşayan təxminən 150 min azərbaycanlı öz doğma yurdlarından köçürülərək Kür-Araz ovalığında məskunlaşdırılmışdır. 1987-ci ildən başlayaraq isə yüz minlərlə azərbaycanlının Ermənistan ərazisindəki tarixi yaşayış yerlərindən zorla çıxarılması baş vermişdir. Beləliklə, 1988-ci ildən etibarən baş verən hadisələr daha genişmiqyaslı münaqişənin yaranmasına və çoxsaylı insan itkilərinə gətirib çıxarmışdır.

Azərbaycan ərazilərinin işğal altında olduğu təxminən 30 il ərzində ölkəmiz münaqişənin sülh yolu ilə həllinə nail olmaq üçün bütün mümkün siyasi və diplomatik vasitələrdən istifadə etmişdir. Azərbaycan rəhbərliyi beynəlxalq təşkilatlarla əməkdaşlıq etmiş, münaqişənin danışıqlar yolu ilə həllinə uzun müddət üstünlük vermişdir. Lakin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsi də daxil olmaqla qəbul edilmiş beynəlxalq sənədlərin icrası təmin edilməmişdir.

ATƏT-in Minsk qrupu çərçivəsində aparılan danışıqlar da münaqişəni həll etməmişdir. İşğal olunmuş ərazilərdə yaşayış məntəqələrinin, tarixi və dini abidələrin dağıdılması, mədəni irsin məhv edilməsi və digər qanunsuz fəaliyyətlərlə bağlı məsələlər uzun müddət beynəlxalq ictimaiyyətin diqqətində olsa da, işğalın aradan qaldırılması istiqamətində konkret nəticə əldə olunmamışdır.



Azərbaycan xalqına qarşı törədilmiş faciələrə siyasi-hüquqi qiymətin verilməsi istiqamətində Ümummilli Lider Heydər Əliyevin fəaliyyəti xüsusi əhəmiyyət daşıyır. Ulu Öndərin 1998-ci il martın 26-da imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" fərman xalqımıza qarşı törədilmiş soyqırımı siyasətinə siyasi və hüquqi qiymətin verilməsi baxımından mühüm tarixi sənəddir.

İşğal dövründə xalqımızın tarixi-mədəni irsi də böyük dağıntılara məruz qalmışdır. Məscidlər, muzeylər, tarixi tikililər və digər mədəni irs nümunələri dağıdılmış və ya ciddi şəkildə zədələnmişdir. Azərbaycanın işğaldan azad edilmiş ərazilərində aparılan araşdırmalar zamanı bu dağıntıların miqyası və mədəni irsə vurulan zərərin genişliyi bir daha üzə çıxmışdır.

Münaqişənin davam etdiyi illərdə Ermənistan tərəfindən Azərbaycan ərazilərində baş verən hadisələrlə bağlı beynəlxalq ictimaiyyətə birtərəfli və təhrif olunmuş məlumatların çatdırılmasına yönəlmiş təbliğat siyasəti də həyata keçirilmişdir. Buna baxmayaraq, Azərbaycan öz mövqeyini beynəlxalq platformalarda ardıcıl şəkildə müdafiə etmiş və ölkənin ərazi bütövlüyünün bərpasını əsas məqsəd kimi qarşıya qoymuşdur.

Xalqımız işğal faktını heç vaxt qəbul etməmiş, dövlət və xalq olaraq ərazi bütövlüyünün bərpasına daim sadiq qalmışdır. 2016-cı ilin Aprel döyüşləri və 2020-ci ilin iyulunda Tovuz istiqamətində baş verən hadisələr Azərbaycan Ordusunun döyüş qabiliyyətini və ölkəmizin ərazilərini müdafiə etmək əzmini bir daha nümayiş etdirmişdir.

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusunun mövqelərinə və yaşayış məntəqələrinə qarşı genişmiqyaslı hücumları nəticəsində vəziyyət daha da gərginləşmişdir. Tərtər, Ağdam, Füzuli və Cəbrayıl rayonlarının yaşayış məntəqələri də daxil olmaqla müxtəlif istiqamətlərdə artilleriya atəşinə tutulması nəticəsində hərbi qulluqçularla yanaşı, mülki şəxslər də həlak olmuşdur.

Azərbaycan Ordusu qarşı tərəfin hücumlarının qarşısını almaq və təhlükəsizliyi təmin etmək məqsədilə genişmiqyaslı əks-hücum əməliyyatlarına başlamışdır. Beləliklə, 27 sentyabrda başlayan hərbi əməliyyatlar Azərbaycanın ərazi bütövlüyünün bərpası uğrunda 44 günlük Vətən müharibəsinə çevrilmişdir.

Azərbaycan Ordusu 44 gün ərzində mühüm hərbi uğurlar əldə etmiş, bir sıra şəhər, qəsəbə və kəndlər işğaldan azad edilmişdir. Noyabrın 8-də Şuşa şəhərinin azad olunması Vətən müharibəsinin ən mühüm hərbi nəticələrindən biri olmuşdur. Şuşanın azad edilməsi müharibənin sonrakı gedişinə ciddi təsir göstərmiş və Azərbaycanın üstün mövqeyini daha da möhkəmləndirmişdir.

Vətən müharibəsi nəticəsində 2908 Azərbaycan hərbçisi şəhid olmuş, minlərlə hərbi qulluqçu yaralanmışdır. Şəhidlərimizin qəhrəmanlığı və qazilərimizin fədakarlığı xalqımızın yaddaşında əbədi yaşayacaqdır.

2020-ci il noyabrın 10-da Azərbaycan, Ermənistan və Rusiya arasında hərbi əməliyyatların dayandırılmasını nəzərdə tutan üçtərəfli Bəyanat imzalanmışdır. Həmin sənədə əsasən, Ağdam noyabrın 20-də, Kəlbəcər noyabrın 25-də, Laçın isə dekabrın 1-də Azərbaycana qaytarılmışdır.

Müharibə nəticəsində Cəbrayıl, Füzuli, Zəngilan, Qubadlı və Şuşa şəhərləri, eləcə də çoxsaylı yaşayış məntəqələri işğaldan azad edilmişdir. Azərbaycan Ordusu həmçinin Ağdərə və Murovdağ istiqamətlərində, Zəngilan rayonunda və digər ərazilərdə mühüm strateji yüksəkliklərə nəzarəti təmin etmişdir.

44 günlük Vətən müharibəsi xalqımızın həmrəyliyini, milli iradəsini və dövlətçilik əzmini bütün dünyaya nümayiş etdirdi. Ərazi bütövlüyünün bərpası Azərbaycan tarixində mühüm dönüş nöqtəsi olmaqla yanaşı, xalqımızın uzun illər ərzində gözlədiyi Zəfərin reallaşması ilə nəticələndi.

Beləliklə, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə formalaşdırılmış Azərbaycan Silahlı Qüvvələri Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında öz üzərinə düşən tarixi missiyanı yerinə yetirərək ölkəmizin ərazi bütövlüyünün bərpasını təmin etdi.

Azərbaycan Ordusunun döyüş qabiliyyətinin yüksəldilməsi, müasir silah və hərbi texnika ilə təmin olunması, mütəmadi hərbi təlimlərin keçirilməsi və müdafiə sənayesinin inkişaf etdirilməsi uzun illər ərzində həyata keçirilən ordu quruculuğu siyasətinin əsas istiqamətlərindən olmuşdur.

2023-cü il sentyabrın 19-20-də Qarabağ bölgəsində həyata keçirilən lokal xarakterli antiterror tədbiri nəticəsində bölgədə fəaliyyət göstərən qanunsuz erməni silahlı birləşmələrinin təslim olması və tərk-silah edilməsi ilə Azərbaycanın ərazi bütövlüyünün tam bərpası istiqamətində mühüm mərhələ başa çatmışdır. 23 saat davam edən tədbir nəticəsində qanunsuz silahlı birləşmələr silahı yerə qoymuş, hərbi mövqelərdən çıxmış və ağır texnika ilə silah-sursatın təhvil verilməsi prosesinə başlanılmışdır.

Dövlətimiz tərəfindən Vətən müharibəsi iştirakçılarına, şəhid ailələrinə və qazilərə xüsusi diqqət və qayğı göstərilmişdir. Prezident İlham Əliyevin sərəncamları ilə hərbi qulluqçular müxtəlif orden və medallarla təltif edilmiş, o cümlədən "Zəfər" və "Qarabağ" ordenləri, "Vətən Müharibəsi Qəhrəmanı" və digər fəxri ad və medallar təsis olunmuşdur.

Müharibə zamanı xəsarət alaraq əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların müasir protezlərlə təmin olunması, şəhid ailələrinin və qazilərin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində də genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Bu məqsədlə yaradılmış "YAŞAT" Fondu tərəfindən minlərlə şəhid ailəsinə və müharibə iştirakçısına dəstək göstərilmişdir.

Şəhidlərimizin əziz xatirəsinin yaşadılması və onların qəhrəmanlıqlarının gələcək nəsillərə çatdırılması məqsədilə Vətən Müharibəsi Memorial Kompleksi və Zəfər muzeyi kimi mühüm layihələr həyata keçirilmişdir. Bu məkanlar xalqımızın keçdiyi ağır tarixi yolu, Vətən müharibəsində əldə edilmiş Zəfəri və şəhidlərimizin qəhrəmanlığını gələcək nəsillərə çatdırmaq baxımından xüsusi əhəmiyyət daşıyır.

Xalqımız üçün 27 Sentyabr - Anım Günü yalnız keçmişin ağrı-acılarını xatırlamaq deyil, eyni zamanda Vətən uğrunda canından keçmiş şəhidlərimizin müqəddəs xatirəsinə ehtiram göstərmək, onların qəhrəmanlığını yaşatmaq və gələcək nəsillərə ötürmək günüdür. Bu mühüm gün Azərbaycan xalqının milli birliyinin, dövlətçilik iradəsinin və Vətənə bağlılığının mühüm ifadəsidir.

***Ziyafət ƏSGƏROV,***
***Azərbaycan Respublikası Milli Məclisinin Sədr müavini***

# Ərazi bütövlüyümüzün bərpası Vətən müharibəsinin möhtəşəm nəticəsidir

**1994-cü ilin mayında atəşkəs əldə edildikdən sonra Azərbaycanın qarşısında iki əsas vəzifə dayanırdı. İlk növbədə işğal altında olan ərazilərin azad edilməsi və məcburi köçkünlərin doğma yurdlarına qayıtmasının təmin olunması, digər tərəfdən isə problemin beynəlxalq hüquq çərçivəsində, sülh yolu ilə həlli.**



Azərbaycan 1994-2020-ci illər ərzində bu istiqamətdə müxtəlif beynəlxalq platformalarda ardıcıl fəaliyyət göstərdi. Münaqişənin həlli üçün əsas beynəlxalq vasitəçilik mexanizmi ATƏT-in Minsk qrupu çərçivəsində davam edirdi. Rəsmi Bakının mövqeyi danışıqlar prosesinin bütün mərhələlərində əsasən beynəlxalq hüququn fundamental prinsiplərinə söykənirdi. Söhbət dövlətlərin suverenliyi, ərazi bütövlüyü, sərhədlərin toxunulmazlığı, işğal olunmuş ərazilərdən silahlı qüvvələrin çıxarılması və məcburi köçkünlərin öz doğma yerlərinə qayıtmasından gedirdi.

Münaqişənin hüquqi-siyasi bazasının ən mühüm elementlərindən birini 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının qəbul etdiyi dörd qətnamə təşkil edirdi. Lakin Ermənistan bu qətnamələri icra etmədi. Məsələ burasındadır ki, 2006-cı ildə BMT Baş Assambleyasında Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyətlə bağlı ayrıca qətnamə qəbul olunmuşdu. 2008-ci ildə isə 62/243 saylı qətnamə ilə Azərbaycanın ərazi bütövlüyü və məcburi köçkünlərin qayıdış hüququ yenidən təsdiqlənmişdi. Qətnamə həmçinin Ermənistan qüvvələrinin Azərbaycanın bütün işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılmasını tələb etmiş, didərgin salınmış şəxslərin öz evlərinə qayıtmaq hüququnu təsdiqləmişdir.

Azərbaycan bu məsələni BMT, ATƏT, Avropa Şurası, Avropa İttifaqı, İslam Əməkdaşlıq Təşkilatı və digər beynəlxalq platformalarda davamlı şəkildə gündəmdə saxladı. Prezident İlham Əliyev beynəlxalq təşkilatların sammitlərində, dövlət və hökumət başçıları səviyyəsində görüşlərdə Azərbaycanın ərazi bütövlüyünün bərpasını və işğalın nəticələrinin aradan qaldırılmasını əsas məsələlərdən biri kimi gündəmə gətirirdi.

1994-cü ildən 2020-ci ilə qədər atəşkəs rejimi mövcud olsa da, yekun sülh sazişi əldə edilmədi. Minsk qrupu çərçivəsində uzun illər danışıqlar aparıldı, müxtəlif həll variantları müzakirə edildi və "Madrid prinsipləri", həmçinin "yenilənmiş Madrid prinsipləri", "Kazan formulu" və digər bu kimi sənədlər ortaya qoyuldu. Lakin tərəflər yekun razılaşmaya gələ bilmədilər. Çünki vasitəçilər işğalçı ilə işğala məruz qalan tərəf arasında fərq qoymurdu. Rəsmi Bakı isə heç bir halda ərazi güzəştinə getmək fikrində deyildi. 2016-cı ilin Aprel döyüşləri, ardınca Günnüt əməliyyatı, 2020-ci ilin Tovuz döyüşləri də göstərirdi ki, Azərbaycan gec-tez öz gücünə ərazilərini işğaldan azad edəcək.

27 sentyabr 2020-ci ildə Ermənistan Silahlı Qüvvələri cəbhəboyu təxribatlara başladı. Buna qədər - 2020-ci ilin sentyabrında Prezident İlham Əliyev BMT Baş Assambleyasının 75-ci sessiyasında çıxışı zamanı Ermənistanı təxribatçı addımlardan geri çəkindirməyə çağırmışdı. Lakin diplomatik çağırışlara baxmayaraq, təxribatlar, hərbi eskalasiya davam etdi. Nəhayət, 27 sentyabr 2020-ci ildə erməni təxribatlarına cavab olaraq Azərbaycan əks-hücum əməliyyatına başladı.

44 günlük Vətən müharibəsi kimi tarixə düşən bu döyüşlər Azərbaycanda milli həmrəyliyi, dövlət-ordu-xalq birliyini nümayiş etdirdi. Azərbaycan Ordusu 44 gün ərzində Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, Hadrut qəsəbəsi, çoxsaylı kəndləri və strateji yüksəklikləri azad etdi. Noyabrın 8-də isə Qarabağın incisi olan Şuşanın azad olunması müharibənin taleyində həlledici mərhələ oldu.

Şuşanın azad edilməsindən sonra - noyabrın 10-da Ermənistan kapitulyasiya aktına imza atdı, Azərbaycan, Ermənistan və Rusiya arasında üçtərəfli Bəyanat imzalandı. Sənədə əsasən, Ağdam, Kəlbəcər və Laçın rayonları Azərbaycana qaytarıldı. Beləliklə, 44 gün davam edən Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası ilə başa çatdı. Amma proses bununla yekunlaşmadı. Üç il sonra - 2023-cü il sentyabrın 19-20-də keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycanın dövlət suverenliyi tam bərpa edildi. 23 saat davam edən əməliyyat nəticəsində Azərbaycan Ordusu qarşısına qoyulan vəzifələri yerinə yetirdi, Xankəndi, Xocalı, Xocavənd və Ağdərə şəhərlərində Azərbaycanın dövlət bayrağı ucaldıldı.

Müharibədən sonra artıq tam yeni mərhələ başladı. Dağıdılmış ərazilərin yenidən qurulması, minaların təmizlənməsi, müasir infrastrukturun yaradılması və insanların doğma torpaqlarına qayıdışının təmin edilməsi əsas vəzifə kimi qarşıya qoyuldu.

Bu gün Qarabağ və Şərqi Zəngəzur genişmiqyaslı bərpa-quruculuq prosesinin mərkəzindədir. Böyük qayıdış proqramı çərçivəsində Qarabağ və Şərqi Zəngəzurda yaşayan insanların sayı 90 mini ötüb. Vətən müharibəsindən ötən altı il ərzində Azərbaycan regionda dayanıqlı sülhün təmin edilməsi istiqamətində addımlar atıb.

2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülhün və dövlətlərarası münasibətlərin təsis edilməsinə dair saziş layihəsi paraflandı, həmçinin Birgə Bəyannamə imzalandı. Bu sənədlər regionda uzunmüddətli sülh və əməkdaşlıq üçün yeni siyasi çərçivənin formalaşdırılması baxımından mühüm əhəmiyyət kəsb edir. 2026-cı ildə də Azərbaycan və Ermənistan arasında normallaşma prosesi davam edib. Avqustun 31-də Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistanın Baş naziri Nikol Paşinyan Bişkekdə keçirilən görüşdə 2025-ci il Vaşinqton görüşünün və paraflanmış sülh sənədinin tarixi əhəmiyyətini vurğulayıblar. Tərəflər, həmçinin iqtisadi və ticarət əlaqələrinin inkişafını sülhün praktiki nəticələri sırasında qeyd ediblər.

Beləliklə, 2020-ci ilin sentyabrında hərbi müstəvidə başlayan yeni mərhələ siyasi və diplomatik müstəvidə davam etməkdədir. Azərbaycan Prezidenti İlham Əliyev 2025-ci ildə BMT Baş Assambleyasının 80-ci sessiyasında Azərbaycanın "yeni bir dövrə qədəm qoyduğunu", müharibənin başa çatdırılması ilə yanaşı, sülhün təmin olunmasının da əsas hədəflərdən birinə çevrildiyini bəyan edib.

6 il əvvəl Azərbaycan xalqının və dövlətinin taleyində dönüş nöqtəsinə çevrilən 27 sentyabr Prezident İlham Əliyevin sərəncamı ilə Anım Günü elan edildi. Bu tarixdə bütövlükdə Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş qəhrəman oğullarımızın xatirəsi ehtiramla qeyd olunur. Qarabağda dalğalanan üçrəngli bayraq, doğma yurdlarına qayıdan ailələr, yenidən qurulan şəhər və kəndlər Vətən müharibəsinin yaratdığı böyük dönüşün rəmzidir.

***Nigar MƏMMƏDOVA,***
***Milli Məclisin deputatı***



# MÖCÜZƏNİN BAŞLANĞICI

Bəlkə də təbiətdə möcüzə baş verir!

Yaxud səbəbini, necə yarandığını bilmədiyimiz hadisələri möcüzə kimi qəbul edirik.

**Cəmiyyətdə isə möcüzə olmur!**

**Onu görkəmli şəxsiyyətlər və qeyri-adi insanlar yaradırlar!**

*Həm də möcüzəyə bənzər hadisələr formasında!*

XXI əsrdə rəqəmsal texnologiya və süni intellekt sahəsində möcüzəvi yeniliklərin baş verməsi gözləniləndir!

**Hərb sahəsində isə möcüzəyə bənzər qələbəni Azərbaycan otuz il düşmən işğalında qalan torpaqlarını "dəmir yumruq"la geri qaytararkən nümayiş etdirdi!**

*Həm də cəmi 44 gün ərzində!*

**Bu möcüzənin başlanğıcı 27 sentyabr 2020-ci ildə qoyuldu!**

❖ ❖ ❖

Ermənilər nə qədər Cənubi Qafqazda "yerli xalq" olduqlarını "sübut etmək" istəsələr də, nə qədər saxsı qırığı basdırıb sonra çıxarsalar da, alban, udi kilsələrini saxtalaşdıraraq "qriqoryan"a çevirsələr də, Qarabağdakı yaşayış məntəqələrinə "qədim" erməni adları qoysalar da, buraya gəlmə olduqlarını, həm də çar Rusiyasının əli ilə yerləşdirildiklərini gizlədə bilmirlər.

Dəfələrlə erməni "alimləri" belə cəhdlər etsələr də, hər dəfə "xoruzun quyruğu" görünüb.

Üstəlik, "Kürəkçay" (1805-ci il), "Gülüstan" (1813-cü il) və "Türkmənçay" (1828-ci il) müqavilələri onların XIX əsrdə Azərbaycan torpaqlarına gətirilərək yerləşdirildiklərini tarixi sənəd olaraq sübut edir.

**Rusiyanın ermənilərə bu "canıyananlığının" səbəbi də bəllidir:**

- Forpost dövlətdən plasdarm kimi istifadə edərək ərazisində Türkiyəyə qarşı hərbi bazalar yerləşdirmək;
- Türk dövlətlərinin quru yolla əlaqələrini kəsərək bir-birindən ayrı salmaq və sıx əməkdaşlıqlarına imkan verməmək.

*Uzun illər boyu istədiklərinə də nail olublar.*

**Çar Rusiyası dövründə Azərbaycandan torpaq qoparıb ermənilərə vermək tendensiyasını sovetlər dövründə də daim davam etdiriblər.**

Bir tərəfdən, Sov.İKP MK-nın və SSRİ Nazirlər Sovetinin qərarlarını verərək 1948 - 1953-cü illərdə Ermənistanda yaşayan azərbaycanlıları dədə-baba torpaqlarından zorakılıqla çıxararaq yerlərinə xaricdən erməni daşıdılar, digər tərəfdən, heç bir zərurət olmadığı halda 1923-cü ildə Azərbaycan ərazisində "DQMV" adlı qondarma qurum yaradaraq, əslində, separatçılıq toxumu basdırmaqla becərməyə başladılar.

*SSRİ laxlayaraq dağılanda, Azərbaycan yenidən özünə müstəqil dövlət qurmaq istəyəndə isə yenidən "Qarabağ problemini" ortaya ataraq ölkəmizə qarşı ondan təsir və təzyiq vasitəsi kimi istifadəyə başladılar.*

Azərbaycan xalqının müstəqil dövlət kimi yaşamaq, öz sərvətlərinə sahib olmaq niyyətini gördükdə isə erməniləri silahlandırmaqla, onlara hərbi-siyasi dəstək verməklə ərazilərimizin işğalında dəstəkçilərinə və köməkçilərinə çevrildilər.

*Bundan ruhlanaraq quduran ermənilər:*

- DQR adlı qondarma "respublika" yaratdıqlarını bəyan etdilər;
- həmin "respublikanın" Ermənistana birləşdirilməsi barədə qərar çıxardılar;
- qondarma qurumda "prezident üsul-idarəsi" yaradaraq dəfələrlə saxta seçkilər keçirdilər;
- öz "parlament"lərini yaratdılar, "deputat"lar seçdilər;
- hətta həmin "parlament"i sonradan Şuşaya köçürmək barədə qərar qəbul edərək bu qədim Azərbaycan şəhərində "parlament" binası da tikdilər.

**Rus əsgərlərinin yaxından iştirakı ilə ələ keçirdikləri Azərbaycan ərazilərində genosid, urbisid, ekosid həyata keçirərək yaşayış məntəqələrini xarabalıqlara çevirdilər, talan etdikləri əmlaklarımızı, dağıtdıqları evlərin tikinti materiallarını İran bazarlarında sataraq pula çevirdilər.**

*Azğınlaşmış ermənilər törətdikləri qəddarlıqlara və özbaşınalıqlara görə cəzasız qalacaqlarını güman edirdilər!*

❖ ❖ ❖

**Ermənilərin belə azğın davranışlarının bir səbəbi isə münaqişənin həlli məqsədilə xüsusi olaraq yaradılan ATƏT-in Minsk qrupunun riyakar fəaliyyəti və həmsədr dövlətlərin açıq-aşkar şəkildə onların müdafiəçisinə çevrilmələri idi.**

*Ermənistan hərbi yolla Azərbaycan ərazilərini işğal edərkən BMT-nin Təhlükəsizlik Şurası erməni silahlı birləşmələrinin Azərbaycan ərazilərini qeyd-şərtsiz tərk etmələri barədə 822, 853, 874 və 884 nömrəli xüsusi qətnamə qəbul etdi.*

**Ermənistan bu qətnamələrə əhəmiyyət vermədi, BMT isə qəbul etdiyi sənədlərin icrasını təmin etmədi.**

*Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin "sülh danışıqları yolu ilə həlli" məqsədilə yaradılan ATƏT-in Minsk qrupu fərsizlik, dişsizlik və saxta fəaliyyət simvoluna çevrildi.*

ABŞ, Fransa və Rusiyadan ibarət olan üç həmsədr dövlətin hər biri açıq şəkildə ermənipərəst mövqe tutur, nəinki münaqişəni beynəlxalq hüququn tələbləri əsasında və ədalətlə həll etməyə çalışır, əksinə, hərəsi bir vasitə ilə Ermənistana dəstək verirdilər.

**Çünki bu dövlətlərin prezidentləri "erməni səsi" ilə dövlət başçısı seçildiklərindən özlərini ermənilərə borclu sayır, bəzi siyasətçiləri və konqresmenləri isə erməni diasporu tərəfindən ələ alındıqlarından erməni marağını güdürdülər.**

- ABŞ 1992-ci ildə təcavüzkara qarşı deyil, torpağı işğal olunan Azərbaycana qarşı ədalətsiz 907-ci düzəlişi qəbul etdi.

Hətta ABŞ prezidenti C.Bayden ermənilərə xoş gəlsin deyə çıxışlarından birində "erməni soyqırımı" ifadəsini işlətdi.

- Fransa parlamentində dəfələrlə Azərbaycan əleyhinə qərəzli, yalan qətnamələr qəbul edildi.

Fransa prezidenti E.Makron isə daim ermənilərdən betər ermənilik edirdi.

- İki dəfə Ermənistana bir milyard dollarlıqdan artıq silah-sursat hədiyyə edən Rusiya isə II Qarabağ müharibəsinin davam etdiyi müddətdə İranın hava səması vasitəsilə Ermənistana silah-sursat daşınmasını təmin etdi.

❖ ❖ ❖

Ermənistanın yeni rəhbəri N.Paşinyan isə BMT qətnamələrinin adi kağız parçasına çevrildiyini, ATƏT-in Minsk qrupunun sülh danışıqlarını acı bağırsaq kimi uzatdığını, beynəlxalq qurum və təşkilatların ermənipərəst mövqedə dayandığını, beynəlxalq hüququn ayaqlar altında qaldığını görərək daha da azğınlaşdı.

**Xankəndi stadionunda çıxışı zamanı həddini aşaraq "Qarabağ Ermənistandır, nöqtə" söyləyərək artıq məsələnin bitdiyini və torpaqları qaytarmaq niyyətində olmadıqlarını açıq şəkildə bəyan etdi.**

*Əslində, bu açıqlama sülh danışıqlarının əhəmiyyətsiz olduğunu da göstərirdi.*

*Azərbaycan isə heç zaman bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəyini dəfələrlə açıq şəkildə bəyan etmişdi!*

**Bu, həm Ulu Öndər Heydər Əliyevin, həm də Prezident İlham Əliyevin qəti və açıq mövqeyi idi!**

*Məsələnin belə bir məqama çatmasında Azərbaycanın əvvəlki rəhbərlərinin də böyük təqsiri vardı.*

- Ə.Vəzirov münaqişənin başlanğıcında hadisələrin ciddiliyini dərk etməmişdi.
- A.Mütəllibov qətiyyətsiz və qorxaq mövqe göstərərək hələ SSRİ-nin saxlanılması barədə referendum da keçirirdi.
- AXC-Müsavat iqtidarı isə əsl xəyanət yolunu tutmuşdu.

**R.Qazıyevin müdafiə naziri qoyulması, Şuşa və Laçının xəyanətlə düşmənə verilməsi, vədəsində ordu yaradılmaması və torpaqların müdafiəsinin təmin edilməməsi, xalqın ən ağır günündə isə dövlət başçısı Elçibəyin gizlicə Kələkiyə qaçması torpaqların işğalına şərait yaratmaqdan başqa bir şey deyildi.**

❖ ❖ ❖

*ATƏT-in Minsk qrupu boş danışıqlarla vaxtı uzadanda, Paşinyan torpaqları sülh yolu ilə qaytarmayacaqlarını bildirərək məsələyə "nöqtə" qoyanda, həmsədr dövlətlər isə münaqişənin hərbi yolla həlli variantının olmadığına inandırmağa çalışanda Azərbaycan Prezidenti İlham Əliyev güclü ordu hazırlığı ilə məşğul idi!*

Yeni xüsusi təyinatlılar dəstəsi yaradılır, ən yeni texnologiyaya əsaslanan silah-sursat alınır, sistemli şəkildə hərbi təlimlər keçirilirdi...

**"Biz heç zaman torpaqlarımızın işğalı ilə barışmayacağıq", - deyə açıq şəkildə bildirən cənab İlham Əliyev ilk dəfə 2016-cı ilin dördgünlük Aprel müharibəsində yaratdığı yeni ordunu sınaqdan çıxardı!**

Nəticə möhtəşəm oldu!

Ancaq kimlərəsə arxalanan düşmən bundan da lazımi dərs almadı!

Əksinə, "yeni müharibə, yeni ərazilər olacaqdır", - deyə bizə hədə-qorxu gəlməyə başladılar.

Sonra isə Tovuz bölgəsində hərbi təxribatlar törətməyə can atdılar.

Artıq azğınlaşmış düşmənin cəzalandırılması zamanı çatmışdı!

2016-cı ildə baş verən dördgünlük Aprel müharibəsində düşmənə möhkəm qulaqburması verilmiş, bir sıra əhəmiyyətli yüksəkliklər geri qaytarılmışdı.

Lakin Ermənistanın eyforiyaya qapılmış başbilənləri bundan zəruri nəticə çıxarmağı bacarmamışdılar.

**Odur ki, "dəmir yumruq" işə qarışmalı oldu!**

❖ ❖ ❖

**Ermənistan Rusiyaya, onun simasında KTMT-yə arxalanırdı...**

Düşünürdü ki, torpağı bizdən alaraq haylara verənlər yenə arxalarında duracaq, müharibənin başlayacağı təqdirdə onları hərtərəfli müdafiə edəcəklər!

*Lakin nə ermənilər, nə də onların müdafiəçiləri və havadarları ağıllarına belə gətirmirdilər ki, bu müharibə başqa bir müharibə, yeniliklər və möcüzələrlə dolu bir müharibə olacaqdır!*

Hərbi birləşmələri, silahları 1990-cı illər müharibəsi səviyyəsində qalan Ermənistan Ağdam istiqamətində yaratdıqları altıqat müdafiə xəttinə, "Ohanyan səddi"nə, dostlarının yardımı ilə qurduqları istehkamlara, tikdikləri beton bunkerlərə, yaratdıqları atəş nöqtələrinə arxalanırdılar.

**İlham Əliyev möhtəşəm yeni ordu yaratmış, onu ən müasir texnologiyaya əsaslanan silah-sursatla silahlandırmış, Qarabağı görməyən yeni gənclər nəslini tərbiyələndirərək orduya cəlb etmiş, xüsusi təyinatlılar hazırlayaraq analoji təbii şəraitdə onlarla uzunmüddətli təlimlər keçirmiş, müharibələr tarixində yenilik edəcək ən yeni strategiya və taktika hazırlamışdı!**

Həm də bütün bunlar o qədər məxfi şəkildə baş vermişdi ki, Ermənistanın dostlarının yerdə-göydə olan, müasir avadanlıqlarla təmin olunmuş kəşfiyyatı belə xəbər tuta bilməmişdi.

*Beləliklə, Azərbaycan hərbi yolla torpaqlarını qaytarmağa tam hazır idi.*

❖ ❖ ❖

Yeni müharibənin başlanmasını zərurətə çevirən isə məhz Ermənistan oldu!

**"Qarabağ Ermənistandır - nöqtə" - deyə lovğalanan Paşinyanı əvvəlcə "Valday" diskussiya klubunda, sonra isə Münxen Təhlükəsizlik Konfransında üzbəüz şəkildə cavablandıraraq "Qarabağ Azərbaycandır və nida" söyləyən cənab İlham Əliyev dediyini əyani şəkildə də təsdiq etməyi bacardı!**

Ermənistanın Tovuz istiqamətində hərbi təxribatlarına cavab olaraq Azərbaycan Prezidenti İlham Əliyev 13 avqust 2020-ci ildə Təhlükəsizlik Şurasının iclasında son xəbərdarlığını etdi:

*"Bu gün sərhəddə gərgin vəziyyət davam edir. Dünən gecə bütün aidiyyəti qurumlarla, komandanlarla əlaqədə idim.*

*Bu gün səhər tezdən də mənə operativ məlumat verilib və sərhəddə vəziyyət sabitləşməyib. Bütün məsuliyyəti Ermənistanın hərbi-siyasi rəhbərliyi daşıyır. Çünki məhz Ermənistan rəhbərliyinin ikiüzlü və riyakar fəaliyyətinə görə belə hadisələr baş verir. Bir tərəfdən, beynəlxalq ictimaiyyətə müraciət edir və Ermənistan-Azərbaycan qoşunlarının təmas xəttində atəşkəs rejiminin möhkəmləndirilməsi üçün kömək xahiş edir. Digər tərəfdən, hərbi təxribatlar törədərək Azərbaycan ərazisinə basqın etmək istəyir, mövqelərimizi zəbt etmək istəyir, mülki əhalini, kəndlərimizi atəşə tutur. Bu çirkin və məkrli siyasət Ermənistanı uçuruma aparacaq. Bütün məsuliyyət Ermənistanın rəhbərliyi üzərinə düşür. Azərbaycan öz ərazi bütövlüyünü bundan sonra da qoruyacaq, öz sərhədlərimizi qoruyacaq. Dünən günorta saatlarında və bu gün gecə düşmənə vurulmuş sarsıdıcı zərbələr bir daha onu göstərdi. Həlak olan hərbçilərimizin qisası alındı və onların qanı yerdə qalmayıb və qalmayacaq!"*

❖ ❖ ❖

**27 sentyabr 2020-ci ildə Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev Azərbaycan xalqının həsrətlə gözlədiyi "İrəli!" əmrini verdi!**

*Beləliklə, 44 gün ərzində möcüzələr yaradan, azğın düşməni diz üstə çökdürərək kapitulyasiya aktına qol çəkdirən, otuzillik işğala son qoyan, müharibələr tarixində yeni səhifə açan Azərbaycan Ordusu hərəkətə keçdi!*

Bu müharibənin daha bir qeyri - adiliyi onda idi ki, biz hamımız evimizdə rahat kresloda oturaraq gündəlik hərbi əməliyyatlarda qəhrəman əsgər və zabitlərimizin ən yeni silahlarla düşmənin canlı qüvvəsini, zirehli texnikasını, atəş nöqtələrini, hərbi sursat anbarlarını dəqiq zərbələrlə necə məhv etdiyini, onların döyüş mövqelərini və silahlarını ataraq necə qaçdıqlarını mavi ekranlarımızda ləzzətlə seyr edirdik.

Bu müharibədə hamımızın böyük sevinc və həsrətlə, səbirsizliklə gözlədiyi daha bir məqam da vardı:

**Müzəffər Ali Baş Komandan İlham Əliyevin televiziya vasitəsilə xalqa müraciətləri və yeni yaşayış məntəqələrinin azad edildiyi barədə verdiyi müjdələr!**

Üstəlik, azad olunmuş ərazilərdə fəxr və qürur hissi ilə üçrəngli Azərbaycan bayrağını yüksəyə qaldırması...

**27 sentyabr 2020-ci ildə cənab İlham Əliyevin Azərbaycan xalqına ilk müraciəti yayımlandı.**

Bu müraciət inamlı bir sonluqla bitirdi:

*"Biz öz torpaqlarımızda vuruşuruq. Bu gün Azərbaycan Ordusu Azərbaycan torpaqlarında düşmənə sarsıdıcı zərbələr endirir. Bu gün Azərbaycan Ordusu öz torpağında Azərbaycanın ərazi bütövlüyünü qoruyur, müdafiə edir. Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır.*

Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir. Qarabağ Azərbaycandır!"

❖ ❖ ❖

**Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqa verdiyi bütün vədləri şərəflə yerinə yetirdi!**

- "Dəmir yumruq"la düşmənin başını əzərək qarşısında diz çökdürdü, ona kapitulyasiya aktını imzalatdırdı!
- Düşmənin silahlı qüvvələrini və terrorçu qruplaşmalarını darmadağın edərək otuzillik işğala son qoydu!
- Müharibələr tarixində yeni səhifə açaraq bu gün dünya hərbində istifadə olunan XXI əsrin yeni müharibə nümunəsini ortaya qoydu!
- Özü üç cəbhədə - həm hərb meydanında, həm diplomatiya sahəsində, həm də informasiya meydanında çarpışaraq möhtəşəm qələbə qazandı!
- İşğal etdiyi əraziləri xarabalıqlara çevirən düşməndən xalqımızın qisasını müharibə meydanında aldı!
- 44 günlük Zəfər müharibəsindən sonra imzaladığı üçtərəfli Bəyanatın bir neçə bəndini icra etməyən düşməni "dəmir yumruğ"u ilə yenidən cəzalandırdı!
- Hərbi əməliyyatlar yolu ilə Azərbaycanın ərazi bütövlüyünü bərpa etdi, "Laçın qapısı"nı düşmənin üzünə birdəfəlik qapatdı!
- 23 saatlıq antiterror tədbirləri keçirməklə düşmənin hərbi təyinatlı tör-töküntülərini, terrorçu dəstələrini ağ bayraq qaldırmağa vadar etdi!
- Azərbaycanın Dövlət suverenliyini və Konstitusiya əsaslarını bərpa etdi, yüksək alicənablıq göstərərək ərazimizdə yaşamaq istəməyən Ermənistan vətəndaşlarının dinc şəkildə getmələrinə şərait yaratdı!
- Rusiya sülhməramlı kontingentini musiqi sədaları altında yola saldırdı.
- Azərbaycanı qalib və qürurlu dövlətə, xalqımızı qalib xalqa çevirdi!
- "Qarabağ Azərbaycandır!" tezisini "dəmir yumruq" ilə əyani şəkildə təsdiq etdi!

Bütün bu uğurlara isə sentyabrın 27-də başlanan əkshücumla start verdi!

**Bəxtiyar SADIQOV**

# 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun ilk günü başa çatıb

**2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunun (2nd Azerbaijan International Investment Forum - "AIIF 2026") ilk günü başa çatıb.**



AZƏRTAC xəbər verir ki, tədbirin açılışında Baş nazirin müavini Samir Şərifov Prezident İlham Əliyevin tədbir iştirakçılarına müraciətini oxuyub.

İlk gün çərçivəsində qlobal iqtisadi gündəmin aktual məsələləri, Azərbaycanın investisiya imkanları, regional və beynəlxalq bağlantıların inkişafı, eləcə də müxtəlif iqtisadi sahələr üzrə əməkdaşlıq perspektivləri geniş müzakirə olunub.

Forumun ilk sessiyasında iqtisadiyyat naziri Mikayıl Cabbarov "Parçalanmış dünyada etimadın bərpası: Azərbaycan regionlar arasında strateji keçid kimi" mövzusunda tədbirdə Azərbaycanın qlobal iqtisadi dəyişikliklər fonunda strateji mövqeyi, regional bağlantı imkanları və investisiya potensialını diqqətə çatdırıb.

Qlobal iqtisadi perspektivlərə həsr olunmuş panel müzakirəsində iqtisadçı və strateq, "Roubini Macro Associates" şirkətinin baş icraçı direktoru Nouriel Roubini və "Euronews"un Direktorlar Şurasının sədri Pedro Vargas David iştirak ediblər. Müzakirələr zamanı qlobal iqtisadi mənzərə, iqtisadi artım və investisiya mühitinə təsir edən əsas meyillər nəzərdən keçirilib.

"The European House - Ambrosetti"nin baş icraçı direktoru və idarəedici tərəfdaşı Valerio De Molli "Azərbaycan və Cənubi Qafqaz: investisiya artımı üçün mərkəzi qovşaq" mövzusunda təqdimatla çıxış edib. Təqdimatda Azərbaycanın və Cənubi Qafqazın investisiya artımı baxımından imkanları, regional bağlantılar və regionun qlobal iqtisadi sistemdə dəyişən rolu diqqətə çatdırılıb.

"Qlobal artımın, investisiyaların və bağlantıların gələcəyinin formalaşdırılması" mövzusunda yüksəksəviyyəli panel müzakirəsində qlobal iqtisadi və geosiyasi proseslərin iqtisadi artıma, investisiyalara və bağlantılara təsiri, regional əməkdaşlığın inkişafı və yeni iqtisadi imkanlar ətrafında fikir mübadiləsi aparılıb. Sessiyanın sonunda Azərbaycanı təmsil edən qurumlarla xarici şirkət və tərəfdaşlar arasında müxtəlif sahələrdə əməkdaşlığı nəzərdə tutan sənədlər imzalanıb.

Forumun ilk günündə, həmçinin sənaye platformaları və azad iqtisadi zonalar, Orta dəhliz, süni intellekt, innovasiya və rəqəmsal transformasiya, Cənubi Qafqaz-Mərkəzi Asiya strateji tərəfdaşlığı, kapital bazarları, regional enerji bağlantıları və "yaşıl keçid", beynəlxalq maliyyə əməkdaşlığı, aqrobiznes, kritik xammal və qlobal iqtisadi təhlükəsizlik mövzularında panel sessiyalar keçirilib.

Bununla yanaşı, Türk İnvestisiyaların Təşviqi Şəbəkəsinin koordinasiya görüşü, Afrika və Azərbaycan arasında investisiya, ticarət və artım imkanlarına həsr olunmuş tədbir, eləcə də Böyük Britaniya və Almaniya ilə əməkdaşlıq çərçivəsində xüsusi sessiyalar təşkil olunub.

Beləliklə, "AIIF 2026"nın ilk günü qlobal iqtisadi çağırışların və investisiya perspektivlərinin müzakirəsi, Azərbaycanın regional iqtisadi və investisiya imkanlarının təqdim olunması, eləcə də müxtəlif istiqamətlərdə beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə yadda qalıb.

Forum sentyabrın 26-da davam edəcək.

# "Aqrobiznes sahəsində innovasiyalar və texnoloji inkişaf" mövzusunda panel sessiya baş tutub

**Bakıda keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Aqrobiznes sahəsində innovasiyalar və texnoloji inkişaf" mövzusunda panel sessiya keçirilib.**




AZƏRTAC xəbər verir ki, tədbirdə çıxış edən kənd təsərrüfatı naziri Məcnun Məmmədov aqrobiznes sahəsində innovativ yanaşmaların və müasir texnologiyaların tətbiqinin sektorun inkişafı, məhsuldarlığın və rəqabətqabiliyyətliliyin artırılması baxımından əhəmiyyətini vurğulayıb.

Aqrar istehsal və emalda texnoloji yenilənmənin, innovasiya fəaliyyətinin genişləndirilməsinin və yüksək əlavə dəyər yaradan istehsalın inkişafının önəmini qeyd edib.

"AnewZ" telekanalının aparıcısı Keyti Vilsonun moderatorluğu ilə keçirilən panel sessiyada ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri Məktəbinin dekanı Matteo Vittuari, BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktorunun köməkçisi və Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəsi Viorel Gutu, "Azersun Holding"in Müşahidə Şurasının sədri Tahir Gözəl və "Agro Dairy" MMC-nin baş icraçı direktoru Niyazi Əmirbəyov iştirak ediblər.

ADA Universitetinin Kənd Təsərrüfatı və Qida Elmləri Məktəbinin dekanı Matteo Vittuari və BMT-nin Ərzaq və Kənd Təsərrüfatı Təşkilatının (FAO) baş direktorunun köməkçisi, Avropa və Mərkəzi Asiya üzrə regional nümayəndəsi Viorel Gutu aqrar sektorda innovasiyaların, müasir texnologiyaların və dayanıqlı kənd təsərrüfatı təcrübələrinin tətbiqi ilə bağlı yanaşmalarını bölüşüblər. Ərzaq təhlükəsizliyinin gücləndirilməsi, məhsuldarlığın artırılması, resurslardan səmərəli istifadə və aqrar məhsulların regional və qlobal dəyər zəncirlərinə inteqrasiyası məsələləri barədə fikir mübadiləsi aparılıb.

"Azersun Holding"in Müşahidə Şurasının sədri Tahir Gözəl və "Agro Dairy" MMC-nin baş icraçı direktoru Niyazi Əmirbəyov aqrobiznesdə özəl sektorun rolu, istehsal və emal imkanlarının genişləndirilməsi, texnologiyaların tətbiqi və investisiya imkanları barədə müzakirələr ediblər. Aqrar və qida sənayesində rəqabətqabiliyyətli istehsalın inkişafı, əlavə dəyərin artırılması, bazarlara çıxış imkanlarının genişləndirilməsi perspektivləri barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, İqtisadiyyat Nazirliyi və İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) təşkilatçılığı, "The European House - Ambrosetti & TEHA Group"un strateji tərəfdaşlığı ilə keçirilən 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu "Parçalanmış dünyada etimadın bərpası: Cənubi Qafqaz qlobal bağlantı və investisiya sabitliyinin dayağı kimi" mövzusuna həsr olunub.

# 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda intellektual iqtisadiyyatın qurulmasına dair Azərbaycanın yanaşması təqdim edilib

**Rəqəmsal inkişaf və nəqliyyat nazirinin müavini Rəşad Həsənov 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində süni intellekt, innovasiya və rəqəmsal transformasiyanın intellektual iqtisadiyyatların formalaşmasındakı roluna həsr olunan paneldə çıxış edib.**



AZƏRTAC xəbər verir ki, nazir müavini bildirib ki, süni intellekt əvvəlki texnoloji dalğalardan daha sürətlə inkişaf edir və bu proses infrastruktur, enerji, insan kapitalı, kibertəhlükəsizlik, tənzimləmə və investisiyanı əhatə edən vahid yanaşma tələb edir.

Qeyd olunub ki, qlobal gündəm artıq strateji baxışdan icra mərhələsinə keçir və Azərbaycan bu mərhələyə hazırdır.

Çıxışda rəqəmsal inkişafın sürətləndirilməsinə dair yeni qəbul olunmuş Fəaliyyət Planı çərçivəsində görülən işlər, dövlət xidmətlərinin rəqəmsallaşdırılması və süni intellekt həllərinin dövlət qurumlarında tətbiqi diqqətə çatdırılıb. Həmçinin ölkənin strateji coğrafi mövqeyi, geniş rabitə şəbəkəsi və etibarlı enerji resursları nəzərə alınmaqla regional miqyaslı data mərkəzi imkanlarının yaradılması istiqamətində aparıcı beynəlxalq tərəfdaşlarla müzakirələrin aparıldığı vurğulanıb.

İnsan kapitalının inkişafına xüsusi önəm verildiyi qeyd edilib. Nazir müavini bildirib ki, süni intellekt üzrə təlimlərin ilk mərhələsi 30.000 dövlət qulluqçusunu əhatə edir və gələcəkdə bütün dövlət sektoruna şamil ediləcək. Bundan əlavə, rəhbər şəxslər, universitetlər, tələbələr və özəl sektor üçün xüsusi proqramlar həyata keçirilir.

Çıxışın sonunda startapların maliyyə imkanlarına çıxışını genişləndirəcək yeni qanunvericilik bazasından bəhs edilib, beynəlxalq tərəfdaşlar konkret layihələr əsasında əməkdaşlıq imkanlarını müzakirə etmək üçün Bakıya dəvət olunub.

# Nyu Yorkda Azərbaycanın sədrliyi ilə TDT XİN rəhbərlərinin qeyri-rəsmi toplantısı keçirilib

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Türk Dövlətləri Təşkilatının (TDT) Xarici İşlər Nazirləri Şurasının qeyri-rəsmi iclasına sədrlik edib.**



AZƏRTAC xəbər verir ki, nazir çıxışında ortaq köklər və tarixlə bağlı türk dövlətləri arasında birliyin daha da dərinləşdiyini vurğulayıb. O, qlobal çağırışların dəyişdiyi bir şəraitdə çoxtərəfli tərəfdaşlığın gücləndirilməsinin strateji əhəmiyyət daşıdığını qeyd edib.

Ceyhun Bayramov Qəbələ Zirvə Görüşündə qəbul edilən qərar və təşəbbüslərdən sonra Azərbaycanın TDT-yə sədrliyi çərçivəsində əldə olunan əsas nəticələr barədə məlumat verib. O, Azərbaycan tərəfindən təşkil olunan tədbirlərdə fəal iştiraklarına görə üzv dövlətlərə təşəkkür edib.

Nazir türk xalqlarının dilinin, tarixinin və mədəni irsinin öyrənilməsinə mühüm töhfə vermiş Birinci Türkoloji Qurultayın 100 illiyinə həsr olunan tədbirləri də mühüm hadisə kimi qeyd edib. Həmçinin Bakıda keçirilən Təhlükəsizlik Şuraları katiblərinin, Müsəlman Dini Qurumları Rəhbərləri Şurasının və aparıcı milli analitik mərkəzlərin görüşlərinin əməkdaşlıq gündəliyinin genişliyini nümayiş etdirdiyi bildirilib.

Ceyhun Bayramov TDT-nin beynəlxalq mövqeyinin daha da gücləndirilməsinin vacibliyini vurğulayaraq, təşkilata BMT Baş Assambleyasında müşahidəçi statusunun verilməsinin ümumi məqsədlərdən biri olduğunu qeyd edib.

Nazir türk coğrafiyasında fiziki nəqliyyat əlaqələrinin və tranzit infrastrukturunun gücləndirilməsinin, regional dayanıqlılıq və bağlantının artırılmasının strateji əhəmiyyət daşıdığını bildirib.

Çıxışda ticarət, enerji, informasiya-kommunikasiya texnologiyaları, elm, texnologiya və mədəniyyət sahələrində praktiki əməkdaşlığın genişləndirilməsinin də prioritet olduğu vurğulanıb. Qeyd olunub ki, bu istiqamətlərdə əməkdaşlığın inkişafı biznes icmaları və xalqlar üçün birbaşa imkanların yaradılmasına xidmət edir.

Ceyhun Bayramov qardaş Türkiyəyə Antalyada COP31-ə və Ankarada keçiriləcək TDT-nin 13-cü Zirvə Görüşünə evsahibliyi ilə bağlı uğurlar arzulayıb və Azərbaycanın davamlı dəstəyini bir daha ifadə edib.

İclas Türk Dövlətləri Təşkilatının Xarici İşlər Nazirləri Şurasının Bəyanatının qəbul edilməsi ilə başa çatıb.

# Ceyhun Bayramov İƏT-də Azərbaycanın regional təşəbbüslərini diqqətə çatdırıb

**Xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində İqtisadi Əməkdaşlıq Təşkilatının (İƏT) Nazirlər Şurasının iclasında çıxış edib.**



AZƏRTAC xəbər verir ki, nazir öz çıxışında Xankəndidə keçirilmiş İƏT-in 17-ci Zirvə toplantısında qəbul edilmiş strateji Xankəndi Kommünikesi və Fəaliyyət Planının icrası məsələlərinə toxunub. O, Bakıda İƏT-in Təmiz Enerji Mərkəzinin fəaliyyətə başlamasını və Şuşanın 2026-cı il üçün İƏT-in Turizm Paytaxtı kimi fəal rolunu xüsusi vurğulayıb. Nazir Azərbaycanın Orta dəhliz boyunca, o cümlədən Bakı-Tbilisi-Qars dəmir yolu və Ələt limanı, həmçinin "Rəqəmsal İpək yolu" vasitəsilə həyata keçirilən "yaşıl rəqəmsal inteqrasiya" sahəsindəki mühüm rolunu qeyd edib. O, həmçinin Cənubi Qafqaz ilə Mərkəzi Asiya arasında strateji sinerjiyə diqqət çəkərək, Azərbaycanın Çolpon-Atada keçirilmiş Mərkəzi Asiya Dövlət Başçılarının Məşvərət Görüşlərində və Avazada keçiriləcək növbəti sammitdəki üzvlüyü və fəal iştirakını xatırladıb.

Nazir Ceyhun Bayramov 2025-ci ilin avqustunda Vaşinqtonda keçirilmiş sülh sammitindən sonrakı Azərbaycan-Ermənistan sülh prosesi barədə məlumat verib. O, etimadın möhkəmləndirilməsi tədbirlərini, tranzit məhdudiyyətlərinin aradan qaldırılmasını və azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa-quruculuq işlərini xüsusi vurğulayıb.

# Çoxtərəfli formatlarda aparılan mühüm dialoq ətrafında fikir mübadiləsi aparılıb



**Azərbaycan xarici işlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 81-ci sessiyası çərçivəsində Şimali Kipr Türk Respublikasının xarici işlər naziri Tahsin Ertuğruloğlu ilə görüşüb.**

AZƏRTAC xəbər verir ki, bu barədə Azərbaycan XİN məlumat yayıb.

Nazirlər ikitərəfli təmaslar və o cümlədən çoxtərəfli formatlarda aparılan mühüm dialoq ətrafında fikir mübadiləsi aparıblar.

Müzakirələr zamanı Şimali Kipr Türk Respublikasının Türk Dövlətləri Təşkilatındakı müşahidəçi statusunun əhəmiyyəti vurğulanıb, həmçinin türk dünyası daxilində çoxtərəfli əlaqələndirmənin və birgə təşəbbüslərin, o cümlədən qarşıdan gələn TDT Zirvə görüşünə hazırlıq işlərinin genişləndirilməsinin vacibliyi qeyd olunub.

Nazirlər həmçinin qarşılıqlı maraq doğuran regional məsələlərə də toxunublar.

# Azərbaycan və Ermənistan XİN başçıları sülh gündəliyini və nəqliyyat əlaqələrinin açılmasını müzakirə ediblər

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər və beynəlxalq ticarət naziri Ararat Mirzoyan Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası çərçivəsində Nyu Yorkda görüş keçiriblər.**



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a verilən məlumata görə, hər iki nazir Azərbaycan və Ermənistan arasında sülhün əhəmiyyətini vurğulayaraq, 2025-ci il Vaşinqton Sülh Sammiti çərçivəsində nail olunmuş razılaşmalardan sonra əldə olunmuş irəliləyişi nəzərdən keçiriblər. Azərbaycan və Ermənistan arasında iqtisadi və nəqliyyat infrastrukturunun açılmasına xüsusi diqqət yönəlib.

Bu kontekstdə sülhün faydalarının praktiki nümunələri kimi Azərbaycan və Ermənistan arasında ticarət və tranzit əlaqələri vurğulanıb.

Nazirlər müxtəlif çoxtərəfli platformalarda müsbət gündəliyin təşviq edilməsi imkanları barədə fikir mübadiləsi aparıblar.

Nazirlər birbaşa dialoqu davam etdirmək barədə razılığa gəliblər.

# XİN: "Gürcüstan Patriarxlığının son açıqlaması tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərinin ruhuna ziddir"

**"Gürcüstan Patriarxlığının Azərbaycanın ərazisində yerləşən Kürmük məbədi ilə bağlı verdiyi son açıqlama Azərbaycan ilə Gürcüstan arasında mövcud olan dostluq, tərəfdaşlıq və mehriban qonşuluq münasibətlərinin ruhuna ziddir".**

AZƏRTAC xəbər verir ki, bu fikirlər Azərbaycan Xarici İşlər Nazirliyinin ölkəmizin ərazisində yerləşən Kürmük məbədinə dair Gürcüstan Patriarxlığının açıqlaması ilə bağlı bəyanatında əksini tapıb.

Bəyanatda həmçinin bildirilib: "Azərbaycan ərazisində yerləşən coğrafi və tarixi toponimlərin digər adlarla təqdim edilməsi qəbuledilməzdir. Azərbaycan hər zaman Gürcüstanın ərazi bütövlüyünə və suverenliyinə hörmətlə yanaşıb. Eyni zamanda Gürcüstan tərəfinin də Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə eyni münasibət sərgiləməsi iki ölkə arasında formalaşmış strateji tərəfdaşlıq münasibətlərinin mühüm əsasını təşkil edir. Məhz bu baxımdan Gürcüstan Patriarxlığının Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə münasibətdə ərazi iddialarını ehtiva edən yanaşması anlaşılan deyil. Dini qurumların Azərbaycan və Gürcüstan xalqları arasında əsrlər boyu formalaşmış tarixi dostluq və mehriban qonşuluq münasibətlərinə xələl gətirə biləcək yanaşmalardan çəkinməsi vacibdir. Bununla əlaqədar Gürcüstan Patriarxlığı tərəfindən Ermənistan kilsəsinin məlum yanaşmalarının təkrarlanması və onun yolu ilə gedilməsi məsləhət görülmür. Azərbaycan ərazisində mövcud olan bütün tarixi, mədəni və dini abidələr Azərbaycan xalqının və Azərbaycan dövlətinin milli irsinin ayrılmaz tərkib hissəsidir".

# Daxili işlər naziri Vilayət Eyvazov Türkiyənin Emniyet Genel Müdiri ilə görüşüb

**Azərbaycan və Türkiyə respublikalarının Daxili İşlər nazirlikləri arasında Bakıda keçiriləcək polis əməkdaşlığı üzrə 9-cu işçi görüşdə iştirak etmək üçün Türkiyənin Daxili İşlər Nazirliyinin Emniyet Genel Müdiri Ali Fidanın rəhbərlik etdiyi nümayəndə heyəti ölkəmizə səfərə gəlib.**



Ali Fidan və onu müşayiət edən şəxslər Fəxri xiyabana gedərək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin əziz xatirəsini ehtiramla anıblar. Görkəmli oftalmoloq-alim, akademik Zərifə xanım Əliyevanın da xatirəsi anılıb, məzarı üzərinə gül dəstələri düzülüb.

Sonra Azərbaycan Respublikasının daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov Ali Fidan və onun rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.

Nazir Azərbaycan və Türkiyənin Daxili İşlər nazirlikləri arasında əlaqələrin yüksək səviyyədə olduğunu məmnunluqla qeyd edərək, iki qardaş ölkənin hüquq-mühafizə orqanları arasında qarşılıqlı fəaliyyətin daha da genişləndirilməsinin və birgə fəaliyyətin inkişaf etdirilməsinin əhəmiyyətini bildirib. O, polis əməkdaşlığı çərçivəsində keçirilən işçi görüşlərinin təcrübə mübadiləsinin aparılmasına, eləcə də praktiki fəaliyyətin səmərəliliyinin yüksəldilməsinə mühüm töhfə verəcəyinə əminliyini ifadə edib.

Nümayəndə heyətinin rəhbəri Ali Fidan qəbula və göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirib. O, iki ölkənin aidiyyəti qurumları arasında əməkdaşlığın səmərəliliyini yüksək qiymətləndirərək, qlobal təhdidlərə, o cümlədən cinayətkarlığın ayrı-ayrı növlərinə qarşı birgə mübarizənin əhəmiyyətini qeyd edib.

Görüşdə Türkiyə Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Birol Akgün iştirak edib.

*"Azərbaycan"*

# Dövlət Gömrük Komitəsində Anım Gününə həsr edilən "dəyirmi masa"

**Dövlət Gömrük Komitəsində 27 Sentyabr - Anım Gününə həsr olunmuş "dəyirmi masa" təşkil edilib.**



DGK Mətbuat və İctimaiyyətlə Əlaqələr İdarəsindən verilən məlumata görə, tədbirdə şəhid gömrük əməkdaşı Ülvi Hacıyevin valideynləri, Dövlət Gömrük Komitəsinin Vətən müharibəsində iştirak edən əməkdaşları, Müdafiə Nazirliyinin nümayəndəsi, komitə rəhbərliyi və kollektivi, DGK yanında İctimai Şuranın üzvləri iştirak ediblər.

Əvvəlcə torpaqlarımızın azadlığı uğrunda canlarını fəda etmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib, 44 günlük Vətən müharibəsinin şanlı Qələbə yolunu və qəhrəmanlıq salnaməsini əks etdirən sənədli videoçarx nümayiş olunub.

Tədbirdə çıxış edənlər Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuzun qazandığı tarixi qələbədən söz açıblar. Qeyd olunub ki, 30 illik işğala son qoyan bu şanlı Zəfər şəhidlərimizin və qazilərimizin fədakarlığı, əsgər və zabitlərimizin qəhrəmanlığı sayəsində əldə edilib, xalqımızın çoxəsrlik tarixinə qızıl hərflərlə yazılıb. Onların uğrunda can verdiyi Vətən bu gün azaddır, bütövdür və suverenliyini tam bərpa etmiş qüdrətli Azərbaycandır. Vurğulanıb ki, şəhidlərimizin əziz xatirəsi daim qəlbimizdə yaşayacaq, onların bizə miras qoyduğu Vətən sevgisi və Zəfər ruhu nəsildən-nəslə ötürüləcək.



# Baş Prokurorluqda görüş



Sentyabrın 25-də baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 27 Sentyabr-Anım Günü, 1 Oktyabr - Azərbaycan Respublikası Prokurorluq İşçilərinin Peşə Bayramı münasibətilə Azərbaycan Respublikası Prokurorluğunun veteranları, Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, həmçinin I və II Qarabağ müharibələrində şəhid olmuş prokurorluq əməkdaşlarının ailə üzvləri ilə görüş keçirilib.

İlk öncə Azərbaycan Respublikasının müstəqil dövlətçilik ənənələrinin bərpasında və müasir Azərbaycanın qurulmasında müstəsna xidmətləri olan Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Çıxış edən baş prokuror bildirib ki, müasir, müstəqil Azərbaycanın dövlətçilik konsepsiyasının əsasını qoymuş Ulu Öndər Heydər Əliyevin müəyyən etdiyi siyasi kurs bu gün Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Ardıcıl və məqsədyönlü dövlət siyasətinin nəticəsi olaraq Azərbaycanın müdafiə qüdrəti daha da möhkəmləndirilib, ölkəmizin ərazi bütövlüyünün və suverenliyinin bərpası istiqamətində mühüm tarixi vəzifələr həyata keçirilib.

Qeyd olunub ki, Azərbaycan xalqının yaddaşında silinməz iz qoymuş 44 günlük Vətən müharibəsi nəticəsində torpaqlarımızın işğalına son qoyulub. Azərbaycan Ordusunun əldə etdiyi Zəfər ölkəmizin ərazi bütövlüyünün bərpasını təmin edib, 2023-cü ilin sentyabrında həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri nəticəsində isə Azərbaycanın suverenliyi tam bərpa olunub. Bu tarixi hadisələr şəhid və qazilərimizin qəhrəmanlığı, xalqımızın həmrəyliyi və dövlətimizin gücü sayəsində mümkün olub.

Baş prokuror diqqətə çatdırıb ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilmiş ərazilərdə hazırda genişmiqyaslı bərpa və quruculuq layihələri həyata keçirilir. Keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışının təmin edilməsi, yaşayış məntəqələrinin yenidən qurulması və həmin ərazilərdə zəruri infrastrukturun yaradılması qarşıda duran əsas vəzifələrdəndir.

Görüşdə Vətən müharibəsində iştirak etmiş prokurorluq əməkdaşlarının döyüşlərdə göstərdikləri şücaət və xidmətlər xüsusi qeyd olunub. Həmçinin I və II Qarabağ müharibələrində şəhid olmuş prokurorluq əməkdaşlarının dövlətçiliyimizin və ölkəmizin ərazi bütövlüyünün müdafiəsi naminə göstərdikləri fədakarlığın heç vaxt unudulmayacağı bildirilib.

Tədbirdə çıxış edən sabiq baş prokuror İsmət Qayıbovun oğlu, Baş Prokurorluğun Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini İsmayıl Qayıbov, prokurorluğun veteranı Seyfulla Aslanov, Vətən müharibəsinin iştirakçıları - Bakı Hərbi Prokurorluğunun müstəntiqi Ayxan Əhmədov və Sumqayıt Şəhər Prokurorluğunun müstəntiqi Xalıq Dadaşzadə, habelə Vətən müharibəsi zamanı xidməti vəzifələrinin icrası ilə əlaqədar xəsarət almış Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru Ozal Həsənov Prezident İlham Əliyevin və Birinci vitse-prezident Mehriban Əliyevanın şəhid ailələri və müharibə iştirakçılarına göstərdikləri diqqət və dəstəkdən, onların sosial müdafiəsinin daha da yaxşılaşdırılması istiqamətində həyata keçirilən tədbirlərdən bəhs edib, göstərilən dövlət qayğısından məmnunluqlarını ifadə ediblər.

Tədbirə yekun vuran baş prokuror prokurorluğun şəhid olmuş əməkdaşlarının ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, onların müraciət və qayğılarının diqqətdə saxlanılması istiqamətində tədbirlərin bundan sonra da davam etdiriləcəyini bildirib, prokurorluq orqanlarının şəhid ailələrinə, müharibə iştirakçılarına və prokurorluğun veteranlarına hər zaman dəstək olacağını vurğulayıb.

*"Azərbaycan"*

# Dövlət qulluğu sahəsində qanunvericilik təkmilləşdirilir

**Sentyabrın 25-də Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin iclası keçirilib. Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitənin sədri Əli Hüseynli iclasın gündəliyinə dörd məsələnin daxil edildiyini söyləyib.**



Əvvəlcə "Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında" Azərbaycan Respublikası qanununun layihəsi (birinci oxunuş) müzakirəyə çıxarılıb.

Komitə sədri Əli Hüseynli Milli Məclisdə dövlət qulluğunu tənzimləyən bir sıra qanunların qəbul edildiyini bildirib. O, ölkə Prezidenti tərəfindən Dövlət Qulluğu Məcəlləsinin parlamentə təqdim edildiyini və bunun dövlət qulluğu ilə bağlı mühüm əhəmiyyətə malik hüquqi sənəd olduğunu vurğulayıb. Məcəllənin qəbulunun dövlət qulluğu sahəsində aparılan islahatların növbəti mərhələsi kimi qiymətləndirildiyini deyib. Qeyd edilib ki, məcəllənin qəbulu ilə hazırda qüvvədə olan bir sıra normativ-hüquqi aktlarla tənzimlənən dövlət qulluğu münasibətləri daha sistemli və kompleks şəkildə nizamlanacaq, qanunvericiliyin tətbiqində vahid yanaşma təmin ediləcək.

Sonra komitənin üzvü, Dövlət Qulluğunu İdarəetmə Şurasında parlamenti təmsil edən Nizami Səfərov qanun layihəsi barədə məlumat verib. O deyib ki, dövlət qulluğunun inkişafına dair Azərbaycan Prezidentinin müəyyənləşdirdiyi strategiyaya uyğun olaraq, qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün bu sahədə qanunvericiliyin təkmilləşdirilməsi günün tələbidir. Dövlət Qulluğu Məcəlləsinin hazırlanması da bu zərurətdən irəli gəlir. Qeyd edilib ki, dövlət qulluğu sahəsində yeni müasir hüquqi tənzimləmənin formalaşması milli qanunvericilikdə müvafiq sahəni tənzimləyən hüquq normalarının məcəllə formasında konsolidasiyasının növbəti əhəmiyyətli nümunəsidir.

Diqqətə çatdırılıb ki, Dövlət Qulluğu Məcəlləsi 5 bölmə, 15 fəsil və 94 maddəni özündə ehtiva edir və bu sahədə müvafiq hüquqi münasibətlərin hərtərəfli qaydada tənzimlənməsini nəzərdə tutur. Bununla bağlı "Dövlət qulluğu haqqında", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" və bir sıra digər qanunlar ləğv edilir.

Bildirilib ki, Məcəllə dövlət qulluğunun idarə olunmasını, prinsiplərini, dövlət orqanları kateqoriyalarının və dövlət qulluğu vəzifələrinin təsnifatını, dövlət qulluqçularının hüquq və vəzifələrini, qulluq stajını və ixtisas dərəcələrinin verilməsi qaydalarını əhatə edir. Sənəddə həmçinin dövlət qulluğuna qəbul, müsabiqə və müsahibə, vəzifəyə təyinat, stajorluq və sınaq müddəti, rotasiya, xidməti fəaliyyətin və səriştələrin qiymətləndirilməsi, vəzifədə irəliləyiş, əlavə təhsil və peşəkar inkişaf, əməkhaqqı və digər təminatlar, məzuniyyət, etik davranış qaydaları, intizam məsuliyyəti və dövlət qulluğuna xitam verilməsi ilə bağlı məsələlər tənzimlənir. Qeyd edilib ki, digər normativ-hüquqi aktların məcəlləyə uyğunlaşdırılması üçün keçid mexanizmi müəyyən edilir. Həmin aktlar Dövlət Qulluğu Məcəlləsinə uyğunlaşdırılanadək yalnız məcəlləyə zidd olmayan hissədə tətbiq olunacaq. Eyni zamanda hazırda qüvvədə olan "Dövlət qulluğu haqqında" qanuna əsasən verilmiş və etibarlılıq müddəti başa çatmamış "Dövlət qulluğu sertifikatı"nın hüququ qüvvəsi qorunur. Belə sertifikata malik şəxslər sertifikatın qüvvədə olduğu müddətdə yeni məcəlləyə uyğun olaraq keçirilən müsahibələrdə iştirak edə biləcəklər.

Sonra Dövlət İmtahan Mərkəzinin Hüquqi təminat, dövlət qulluğu məsələləri və dövlət strategiyaları ilə iş Departamentinin Hüquqi təminat və dövlət qulluğu məsələləri şöbəsinin müdiri Lalə Qədirova çıxış edərək qanun layihəsi barədə fikirlərini açıqlayıb. O, hazırda dövlət qulluğu münasibətlərini tənzimləyən bir çox qanun, fərman və qərarın mövcud olduğunu deyib. Qeyd edilib ki, dövlət qulluğu münasibətlərinin məcəlləşdirilməsində məqsəd dövlət qulluğu sahəsində qanunvericiliyin təkmilləşdirilməsi, onun forma və məzmun baxımından yenidən işlənərək vahid normativ hüquqi aktda birləşdirilməsi və müasir dövrün tələblərinə uyğun normaların qanunvericiliyə gətirilməsidir.

Qanun layihəsi ətrafında aparılan müzakirələr zamanı komitə üzvləri Azay Quliyev, Bəhruz Məhərrəmov, parlamentdə təmsil olunan siyasi partiyaların nümayəndələri - deputatlar Razi Nurullayev, Tənzilə Rüstəmxanlı, Günay Ağamalı, Arzuxan Əlizadə, habelə iclasda iştirak edən "Cəmiyyətin İnkişafı Mərkəzi" İctimai Birliyinin sədri Əhməd Abbasbəyli, "Vətəndaşların Əmək Hüquqlarını Müdafiə Liqası" İcraiyyə Komitəsinin sədri Sahib Məmmədov, "Polisə Dəstək" İctimai Birliyinin sədri Şəmsəddin Əliyev çıxış ediblər. Çıxışlarda məsələnin əhəmiyyətindən bəhs edilib, qeyd və təkliflər bildirilib.

Sonra tədbirdə Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) təqdim edilib.

Bildirilib ki, sənəddə təklif olunan dəyişikliklər ölkə üzrə mühüm nəqliyyat və kommunikasiya layihələrinin, xüsusilə metro və dəmir yolu infrastrukturunun genişləndirilməsi işlərinin sürətləndirilməsinə, torpaqların dövlət ehtiyacları üçün alınması prosesində hüquqi müəyyənliyin və şəffaflığın təmin olunmasına xidmət edir.

İclasda Azərbaycan Respublikasının Mülki Məcəlləsində və "İcra haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə qanun layihəsinə (birinci oxunuş) də baxılıb.

Qeyd olunub ki, aqrar sektorda yeni maliyyə aləti kimi qanunvericiliyə daxil edilən məhsul şəhadətnaməsinin qiymətli kağız olaraq hüquqi statusu Mülki Məcəllə ilə tənzimlənir və bu yeni alət üçün ayrıca normativ əsas formalaşdırılır. Bununla yanaşı, məhsul şəhadətnaməsi üzrə öhdəliyin icra edilməməsi halında çevik və operativ tutma prosesinin həyata keçirilməsi məqsədilə "İcra haqqında" qanuna müvafiq dəyişikliklər təklif olunur.

Daha sonra Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) nəzərdən keçirilib.

Layihədə dövlət orqanlarının xüsusi növündə xidmət keçən şəxslərin pul və maddi təminatı ilə bağlı normaların təkmilləşdirilməsinə, mövcud hüquqi tənzimləmənin dəqiqləşdirilməsinə və bu sahədə hüquqi müəyyənliyin təmin edilməsinə yönəlmiş dəyişikliklər öz əksini tapıb.

Komitədə müzakirəyə təqdim olunan qanun layihələrinin hamısı Milli Məclisin plenar iclasına tövsiyə edilib.

*"Azərbaycan"*

# Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin iclası olub



Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, komitə sədri Arzu Nağıyev gündəlikdəki məsələni - Azərbaycan Respublikasının Vergi Məcəlləsində, "Hərbi qulluqçuların statusu haqqında", "Polis haqqında", "Gömrük orqanlarında xidmət haqqında" Əsasnamənin təsdiq edilməsi barədə", "Prokurorluq orqanlarında qulluqkeçmə haqqında", "Azərbaycan Respublikasının daxili işlər orqanlarında xidmətkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Ədliyyə orqanlarında qulluqkeçmə haqqında", "Miqrasiya orqanlarında qulluqkeçmə haqqında Əsasnamənin təsdiq edilməsi barədə" və "Fövqəladə hallar orqanlarında xidmətkeçmə haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini birinci oxunuşda təqdim edib.

Qanun layihəsi barədə danışan komitə sədri bildirib ki, sənəddə bir sıra qanunvericilik aktlarının mövcud maddələrində dəyişikliklərin edilməsi təklif olunur. Qeyd edilib ki, sənəddə edilən dəyişikliyə əsasən hüquq-mühafizə orqanlarında, həmçinin bir sıra dövlət qurumlarında xidmət keçən şəxslərin maddi, pensiya və sosial təminat məsələləri ilə bağlı qanunvericiliyin təkmilləşdirilməsi təklif olunur. Layihədə hərbi qulluqçuların gəlirlərinin vergidən azad edilməsi ilə bağlı müddəalara, əməkhaqqı və yeni xidmət yerinə köçmə xərclərinin ödənilməsi qaydalarına dəyişikliklər nəzərdə tutulur. Bununla belə, təminatlardan istifadə hüququ olan şəxslərin kateqoriyasının dəqiqləşdirilməsi və hüquqi tənzimləmənin təkmilləşdirilməsi nəzərdə tutulur.

Müzakirəyə çıxarılan qanun layihəsi birinci oxunuşda Milli Məclisin plenar iclasına tövsiyə olunub.

*"Azərbaycan"*

# Xalq - iqtidar - ordu vəhdətinin təntənəsi

## Vətən müharibəsinin qalibiyyət formulu: siyasi qətiyyət, güclü ordu və milli həmrəylik

**Vətən müharibəsinin başlanmasından altı il ötür. 2020-ci il sentyabrın 27-də başlayan və 44 gün davam edən bu savaş Azərbaycanın qələbəsi, torpaqlarımızın işğaldan azad edilməsi ilə başa çatdı. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin uzaqgörən və qətiyyətli siyasətinin, Silahlı Qüvvələrimizin döyüş qüdrətinin və milli həmrəyliyin təcəssümü olan bu Zəfər Azərbaycanın müasir tarixində yeni mərhələnin başlanğıcını qoydu.**



Bu günlərdə Azərbaycanın hər yerində insanlar müqəddəs şəhid məzarlarını ziyarət edirlər. Vətən müharibəsinin başlanmasının növbəti ildönümündə - Anım Günündə şəhidlərimizin əziz xatirəsini ehtiramla yad edir, qazilərimizə şəfa diləyirik. Məhz onların qəhrəmanlıqları və fədakarlıqları sayəsində torpaqlarımız azad olub.

Ermənistan təxminən otuz il ərzində Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazilərini işğal altında saxladı. Bu işğal nəticəsində şəhər və kəndlərimiz dağıdıldı, tarixi və mədəni irsimizə ağır zərbə vuruldu, yüz minlərlə soydaşımız məcburi köçkün həyatı yaşamağa məcbur oldu, ata-baba torpaqlarına qayıtmaq arzusu isə milli yaddaşımızın ən ağrılı səhifələrindən birinə çevrildi. Bunlarla yanaşı, Birinci Qarabağ müharibəsi zamanı xalqımıza qarşı törədilən faciələr, müharibə cinayətləri, Xocalı soyqırımı və mülki əhalinin kütləvi şəkildə qətlə yetirilməsi Ermənistanın işğalçılıq siyasətini bütün mahiyyəti ilə dünyaya göstərmişdi.

Əslində, bunlar beynəlxalq ictimaiyyətin gözü önündə baş vermişdir. O cümlədən beynəlxalq hüquq artıq keçmişdə qalmış Qarabağ məsələsində Azərbaycanın ədalətli mövqeyini ortaya qoymuşdur. BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi dörd qətnamədə Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən dərhal, tam və qeyd-şərtsiz çıxarılması tələb edilirdi. Lakin bu sənədlər uzun illər kağız üzərində qaldı. 1992-ci ildə yaradılan ATƏT-in Minsk qrupu problemin həllində maraqlı olmadı. İkili standartlardan çıxış edən, işğalçı ilə işğala məruz qalan arasında fərq qoymayan vasitəçilər problemin dondurulmasına və status-kvonun olduğu kimi qalmasına çalışdılar və bununla da Ermənistanın təcavüzkar siyasətinə dəstək verdilər.

Azərbaycan xalqı heç vaxt bu vəziyyətlə barışmadı, torpaqlarımızın işğal altında qalması ilə razılaşmadı. Ən mühümü odur ki, xalqımız torpaqlarımızın azad ediləcəyinə olan inamı heç vaxt itirmədi və hər ötən il daha da gücləndi. Bu inamı möhkəmləndirən əsas amillərdən biri Azərbaycan dövlətinin məqsədyönlü siyasəti oldu. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi strateji xəttin Prezident İlham Əliyev tərəfindən ardıcıl şəkildə qətiyyətlə davam etdirilməsi, diplomatik cəbhədə dalana sıxışdırılan Ermənistanın işğalçı siyasətinin beynəlxalq səviyyədə ifşası, respublikamızın iqtisadi və hərbi qüdrətinin artırılması, beynəlxalq mövqelərimizin möhkəmləndirilməsi torpaqlarımızın işğaldan azad olunması üçün möhkəm və əlverişli zəmin yaratdı.

Dövlətimizin başçısı bütün beynəlxalq platformalarda Ermənistanın işğalçılıq siyasətini ifşa etdi. Cənab Prezident hər zaman bəyan etdi ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq. Bu mövqe yalnız siyasi bəyanat olaraq qalmadı. Azərbaycan dövlətinin bütün imkanları torpaqlarımızın azadlığı üçün zəruri siyasi, iqtisadi və hərbi potensialın yaradılmasına yönəldildi. Güclü iqtisadiyyat güclü dövlətin, güclü dövlət isə güclü ordunun əsas dayaqlarından biri kimi gündəm yaratdı. Ölkəmizin maliyyə imkanlarının genişlənməsi nəticəsində müdafiə xərclərinin artırılması ordumuzun maddi-texniki bazasının yenilənməsinə, müasir silah və hərbi texnikanın alınmasına, hərbi qulluqçuların hazırlıq səviyyəsinin yüksəldilməsinə geniş imkanlar yaratdı. Ən mühümü odur ki, Prezident İlham Əliyevin həyata keçirdiyi hərbi islahatlar nəticəsində bu imkanlardan düzgün istifadə olundu və nəticə etibarilə Silahlı Qüvvələrin bütün qoşun növlərinin döyüş imkanları artdı, müasir hərbi texnologiyalar ordumuzun arsenalına daxil edildi, şəxsi heyətin peşəkarlığı daha da yüksəldi.

Hələ 2016-cı ilin Aprel döyüşləri zamanı Azərbaycan Ordusunun əldə etdiyi nəticələr də onun artan gücünü nümayiş etdirmişdi. Beləliklə, 2020-ci ilin payızında Azərbaycan Ordusu qarşısında dayanan tarixi vəzifəni yerinə yetirməyə hazır idi. Xüsusilə qeyd edilməlidir ki, Azərbaycan hərbçisinin peşəkarlığı, yüksək mənəvi-psixoloji hazırlığı və döyüş ruhu dövlətin yaratdığı hərbi potensialla bir-birini tamamlayırdı.

Müharibə isə qaçılmaz idi və bunu şərtləndirən əsas səbəb Ermənistanın yeni hərbi təxribatlar törətməsi nəticəsində danışıqlar prosesinin dayanması idi. Ermənistan siyasi və hərbi rəhbərliyinin işğalçı bəyanatları, Azərbaycanı yeni əraziləri işğal etməklə təhdid etmələri, Qarabağda qanunsuz məskunlaşmanın həyata keçirilməsi, qondarma rejim tərəfindən seçkilərin keçirilməsi, 2020-ci ilin iyul ayında dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribatın törədilməsi, avqust ayında ermənilərin diversiya qrupunun ərazilərimizə daxil olmağa çalışması vəziyyəti daha da gərginləşdirirdi. Ermənistan tərəfindən təmas xəttində yeni hərbi birləşmələrin cəmləşdirilməsi isə yeni müharibə hazırlığından xəbər verirdi. Prezident İlham Əliyevin 2020-ci il sentyabrın 25-də Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsini qəbul edərkən bu barədə fikirlərini bildirmiş, eyni zamanda düşməni xəbərdarlıq edərək demişdi: "Bizdə başqa bir məlumat var. Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm".

Onu da qeyd etməliyik ki, cənab Prezident İlham Əliyev hər zaman bəyan edirdi ki, Azərbaycan istənilən yolla torpaqlarını işğaldan azad edəcəkdir. Eyni zamanda ordumuzun döyüş imkanlarının artırılması barədə danışarkən dövlətimizin başçısı bildirirdi ki, məqsəd ərazi bütövlüyümüzün bərpasıdır. 2019-cu ildə Müdafiə Nazirliyinin Cəmşid Naxçıvanski adına Hərbi Liseyində yenidənqurma və əsaslı təmir işlərindən sonra yaradılan şəraitlə tanış olan Azərbaycan Prezidenti demişdi: "Ordu quruculuğu prosesi uğurla, sürətlə gedir. Müasir səviyyədə işlər görülür, hərbi texnika alınır, döyüş qabiliyyəti artır. Bir sözlə, bu gün Azərbaycan Ordusu öz gücünü göstərir və göstərməlidir. Biz müharibə şəraitində yaşayırıq. Müharibə hələ bitməyib və biz hər an hazır olmalıyıq ki, doğma torpaqlarımızı işğalçılardan azad edək. Əminəm ki, bu gün gələcək və Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək. Bizim imkanlarımız artır, maddi vəziyyətimiz yaxşılaşır, orduya lazım olan texnika, silah-sursat alınır, gətirilir. Bir sözlə, biz bütün bu işləri ona görə edirik ki, daha güclü orduya malik olaq və öz ərazi bütövlüyümüzü bərpa edək".

2020-ci il sentyabrın 27-də Ermənistanın hərbi təxribatından sonra başlanan Vətən müharibəsi Prezident İlham Əliyevin bu sözlərinin təntənəsinə çevrildi. Savaşın ilk dəqiqələrindən "dəmir yumruq" düşməni pərən-pərən saldı. Müharibənin ilk saatlarından ordumuzun bölmələri düşmənin keçilməz saydığı "Ohanyan səddi"ni keçərək torpaqlarımızı işğaldan azad etməyə başladı.

Beləliklə, 27 sentyabr Azərbaycan tarixində yeni bir səhifənin başlanğıc tarixinə çevrildi. Vətən müharibəsinin hər günü Azərbaycan əsgərinin qəhrəmanlığı ilə yadda qaldı. Ordumuz ən çətin relyef şəraitində, möhkəmləndirilmiş düşmən mövqelərinə qarşı böyük əzmkarlıq göstərdi. Ermənistan ordusunun uzun illər ərzində işğal altında saxladığı ərazilərdə yaratdığı müdafiə xətləri Azərbaycan hərbçisinin gücü qarşısında davam gətirə bilmədi. Qısa müddətdə Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı rayonlarının, Xocavənd, Laçın və Ağdərə rayonlarının bir sıra kəndlərinin, Şuşa şəhərinin, Ağdərə və Murovdağda strateji yüksəkliklərin azad olunması, düşmənin döyüş meydanında darmadağın edilməsi Azərbaycan Silahlı Qüvvələrinin həm texniki, həm taktiki, həm də mənəvi üstünlüyünü nümayiş etdirdi. Ümumilikdə, Azərbaycan Silahlı Qüvvələrinin sentyabrın 27-də Qarabağda başladığı uğurlu əks-hücum əməliyyatı nəticəsində noyabrın 9-dək 5 şəhər, 4 qəsəbə və 286 kənd işğaldan azad edildi. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi azad olundu.

Azərbaycan Ordusunun müzəffər yürüşü, düşmənin döyüş meydanında cəzalandırılması hər bir vətəndaşda milli qürur hissini daha da yüksəltdi. İşğal altında olan şəhər və kəndlərimizin azad olunması xəbərləri ümumxalq sevincinə çevrildi. Prezident İlham Əliyevin xalqa müraciətləri isə həmin günlərin ən mühüm tarixi salnamələrindən biri kimi yadda qaldı.

Azərbaycan Ordusunun Zəfər yürüşünün mühüm xüsusiyyətlərindən biri də hərbi əməliyyatların peşəkar şəkildə aparılması idi. Təsadüfi deyil ki, Vətən müharibəsində tətbiq olunan hərbi strategiya və taktika sonradan müxtəlif hərbi ekspertlər tərəfindən araşdırılan mühüm təcrübəyə çevrildi.

Vətən müharibəsində ordumuzun hərbi uğurlarının zirvəsində isə Şuşanın azad edilməsi dayandı. Şuşa Azərbaycan xalqı üçün sadəcə bir şəhər deyil.



Bu şəhər milli mədəniyyətimizin, musiqimizin, ədəbiyyatımızın və tarixi yaddaşımızın mühüm mərkəzlərindən biridir. Ona görə də Şuşanın azad olunması Vətən müharibəsinə damğasını vuran mühüm hərbi zəfər oldu. 2020-ci il noyabrın 8-də Prezident İlham Əliyevin Şuşanın azad edilməsi barədə xalqa müraciəti böyük sevinc və qürur hissi ilə qarşılandı.

Məhz Şuşanın azad edilməsindən sonra Ermənistan tərəfin kapitulyasiya aktı mahiyyəti daşıyan üçtərəfli Bəyanatı imzalamağa məcbur oldu. Beləliklə, Azərbaycan Ordusunun 44 günlük Zəfər yürüşü Ermənistanın uzun illər davam etdirdiyi işğal siyasətinə son qoydu. Azərbaycan xalqı öz gücü hesabına ərazi bütövlüyünü bərpa etdi. İşğal faktının aradan qaldırılması beynəlxalq hüququn və BMT Təhlükəsizlik Şurasının qətnamələrinin tələblərinin faktiki icrasını təmin etdi.

Bu Qələbənin arxasında, ilk növbədə, Prezident İlham Əliyevin siyasi iradəsi və qətiyyəti dayandı. Döyüş meydanında Azərbaycan Silahlı Qüvvələrinin zəfər yürüşünü Ali Baş Komandan kimi idarə edən Prezident İlham Əliyev eyni zamanda informasiya və diplomatiya cəbhəsində də Azərbaycanın qələbəsinin müəllifi oldu. Müharibə günlərində cənab Prezidentin xarici KİV-ə verdiyi müsahibələr və xalqımıza etdiyi müraciətlər Azərbaycanın haqq işinin və Ermənistanın işğalçı siyasətinin beynəlxalq auditoriyaya çatdırılması baxımından mühüm siyasi hadisələr oldu.

Vətən müharibəsi həm də Azərbaycan xalqının milli həmrəyliyinin böyük təntənəsinə çevrildi. Bu savaşda xalqımız Vətənin müdafiəsi üçün səfərbər oldu. Bütün cəmiyyət dinindən, dilindən və etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın ərazi bütövlüyünün təmin olunması naminə bir amal ətrafında birləşdi. Xalqın Prezident İlham Əliyevin ətrafında sıx səfərbər olması hakimiyyət-xalq birliyinin nə qədər möhkəm və güclü olduğunu bir daha nümayiş etdirdi.

Əlbəttə, hər bir müharibə ağır itkilərlə müşayiət olunur. 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edən Vətən oğulları bu yolda canlarından keçdilər, müqəddəs şəhidlik zirvəsinə ucaldılar. Onlar öz qəhrəmanlıqları ilə xalqımızın mübarizliyinin və əyilməz ruhunun təcəssümünə çevrildilər.

Xalqımız şəhidlərin əziz xatirəsini hər zaman uca tutur. Bu baxımdan, sentyabrın 27-nin Anım Günü kimi təsis olunması xüsusi məna daşıyır. Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə Vətən müharibəsinin başlandığı tarixin - sentyabrın 27-nin Anım Günü elan edilməsi torpaqlarımızın azadlığı uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsinə olan ali ehtiramın ifadəsidir.

Anım Gününün təsis edilməsi ilə yanaşı, Prezident İlham Əliyevin 2020-ci il 3 dekabr tarixli sərəncamına əsasən, Bakı şəhərində Zəfər muzeyinin yaradılması da şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsinə xidmət edir.

Şəhidlər bizim qürur mənbəyimiz və and yerimizdir. Şəhid ailələri və qazilər dövlətin diqqət və qayğısı ilə əhatə olunublar. Azərbaycan dövləti şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsi, qazilərin reabilitasiyası, müharibə iştirakçılarının məşğulluğunun təmin edilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirir. Bu siyasət şəhidlərimizin ailələrinə və Vətən qarşısında xidmət göstərmiş insanlara dövlətin münasibətinin mühüm göstəricisidir.

Böyük qürurla onu da qeyd etməliyik ki, şəhidlərimizin ruhu şaddır və onların qanı yerdə qalmayıb. Onların uğrunda canlarından keçdikləri torpaqlar azaddır və Azərbaycanın ərazi bütövlüyü bərpa olunub. "Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib", - deyə Prezident İlham Əliyev bildirib.

Qədim yurd yerimiz olan Naxçıvanın igid və mərd övladları da Vətən savaşında xalqımızın Zəfər yürüşünün ön sıralarında oldular. Naxçıvanlı hərbçilər Azərbaycan Silahlı Qüvvələrinin müxtəlif birləşmələrinin tərkibində döyüşdülər. O cümlədən Əlahiddə Ümumqoşun Ordunun bölmələri döyüş əməliyyatlarında fəal iştirak etdilər. Onlar öz qəhrəmanlıqları ilə Vətən müharibəsində yazılan zəfər salnaməsinə öz töhfələrini verdilər.

Müharibə günlərində şəhid olan hərbçilərin doğma Naxçıvana gətirilməsi zamanı insanların küçələrə çıxaraq onları Azərbaycan bayraqları ilə qarşılaması həmin bölgənin Vətən sevgisinin və milli həmrəyliyinin təsirli nümunələrindən idi. Şəhidlərini izdihamla, lakin qürur hissi ilə qarşılayan Naxçıvan sakinlərinin nümayiş etdirdiyi mənzərə bütün Azərbaycan xalqının ruhunu əks etdirirdi. Bu, eyni zamanda Vətən uğrunda canından keçən övladların cəmiyyət üçün hansı yüksək mənəvi dəyərə malik olduğunu göstərirdi.

Prezident İlham Əliyev də Vətən müharibəsinin başa çatdığı gün xalqa müraciətində naxçıvanlıların fədakarlığını xüsusi qeyd edərək deyib: "Naxçıvanlılar da İkinci Qarabağ müharibəsində digər bütün bölgələrdən olan vətəndaşlar kimi fəal iştirak ediblər. İndi müharibə başa çatır, bu günə qədər açıqlanmayan bəzi məsələlər də üzə çıxacaq və hər kəs biləcək ki, başqa bütün bölgələrdən olan hərbçilərlə bərabər naxçıvanlılar da böyük qəhrəmanlıq göstəriblər və torpaqlarımızın azad edilməsi işində fədakarlıq göstəriblər, şəhidlər veriblər".

Vətən müharibəsinin başlanmasından 3 il sonra Qarabağdakı separatçı rejimin fəaliyyətinə son qoyulması isə Prezident İlham Əliyevin yürütdüyü qətiyyətli siyasətin növbəti möhtəşəm təntənəsi oldu. 2023-cü il sentyabrın 19-20 tarixlərində keçirilən antiterror tədbirləri bir daha Azərbaycan Silahlı Qüvvələrinin döyüş hazırlığının və peşəkarlığının təzahürü oldu. Cəmi 23 saat 43 dəqiqə çəkən bu əməliyyat zamanı Qarabağ iqtisadi rayonunda dövlətimizin konstitusion hüquqları təmin olundu.

2020-ci ilin Zəfəri ilə 2023-cü ilin sentyabrında əldə olunan nəticələr arasında tarixi və siyasi bağlılıq var. 44 günlük Vətən müharibəsi Azərbaycanın ərazi bütövlüyünün bərpası istiqamətində həlledici mərhələ idisə, 2023-cü ilin sentyabrında keçirilən antiterror tədbirləri ölkənin suverenliyinin bütün ərazisində tam təmin olunması baxımından yeni mərhələ yaratdı. Beləliklə, 2020-ci ildə başlayan Zəfər yolu 2023-cü ildə Azərbaycan dövlətinin konstitusion hüquqlarının bütün ölkə ərazisində təmin olunması ilə daha bir mühüm nəticə əldə edildi.

Vətən müharibəsinin başlanmasından altı il keçir. Azərbaycanın qarşısında indi başqa tarixi vəzifələr dayanır: azad olunmuş torpaqlarımızı yenidən dirçəltmək, keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına qayıdışını təmin etmək və Qarabağla Şərqi Zəngəzuru Azərbaycanın ən müasir regionlarından birinə çevirmək. Ötən 6 ildə bu istiqamətdə həyata keçirilən layihələr dövlətimizin iqtisadi gücünü, iradəsini və quruculuq imkanlarını nümayiş etdirir. Qarabağ və Şərqi Zəngəzurda aparılan genişmiqyaslı bərpa və quruculuq işləri, Böyük qayıdışın sürətlə həyata keçirilməsi Zəfərin, ərazi bütövlüyümüzün bərpa edilməsinin tarixi nəticələridir.

Bu gün Vətən müharibəsinin xronikasına nəzər salarkən bir həqiqət xüsusilə aydın görünür: Azərbaycan xalqı öz torpaqlarının işğalı ilə heç vaxt barışmadı və dövlətimiz bu milli iradəni reallaşdırmaq üçün bütün imkanlarını səfərbər etdi. Prezident İlham Əliyevin müdrik siyasəti, Azərbaycan Ordusunun qüdrəti və xalqımızın sarsılmaz həmrəyliyi tarixi nəticəni təmin etdi. Başqa cür desək, Ali Baş Komandanın qətiyyəti, əsgər və zabitlərin qəhrəmanlığı, xalqın birliyi və arxa cəbhənin fədakarlığı Vətən müharibəsinin qalibiyyət formulunu yaratdı.

Böyük Zəfərin qəhrəmanları heç vaxt unudulmayacaq. Şəhidlərimizin müqəddəs xatirəsi xalqımızın yaddaşında əbədi yaşayacaq, onların göstərdiyi qəhrəmanlıq gələcək nəsillər üçün Vətən sevgisinin və fədakarlığın ən uca nümunəsi olaraq qalacaq. Anım Günü münasibətilə bütün şəhidlərimizi dərin ehtiram və sonsuz minnətdarlıq hissi ilə yad edir, onların əziz ruhları qarşısında baş əyirik.

***Səttar MÖHBALIYEV,***
***Milli Məclisin deputatı***

## "Qarabağın azad olunması və dirçəldilməsində gənclərin rolu" mövzusunda "dəyirmi masa" keçirilib

**Qarabağ Dirçəliş Fondu, Laçın rayonunda Azərbaycan Prezidentinin xüsusi nümayəndəliyi və Qarabağ Universitetinin birgə təşkilatçılığı ilə "Qarabağın azad olunması və dirçəlişində gənclərin rolu" mövzusunda "dəyirmi masa" keçirilib.**

AZƏRTAC xəbər verir ki, 27 Sentyabr - Anım Gününə həsr olunan tədbirin əvvəlində Vətənin suverenliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad edilib.

Tədbirdə çıxış edən Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Məsim Məmmədov Qarabağın azad olunmasının Azərbaycan dövlətinin uzun illər ərzində həyata keçirdiyi ardıcıl siyasətin və xalqımızın milli həmrəyliyinin nəticəsi olduğunu vurğulayıb. O, 44 günlük Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun qazandığı tarixi Zəfərin ərazi bütövlüyümüzün bərpası ilə yanaşı, Qarabağın yeni inkişaf mərhələsinin əsasını qoyduğunu bildirib.

Məsim Məmmədov Laçının timsalında şəhər və kəndlərdə aparılan bərpa işləri, əhalinin qayıdışı, sosial-iqtisadi və mədəni inkişaf istiqamətində görülən işlər barədə məlumat verib. O vurğulayıb ki, Qarabağın dayanıqlı inkişafında gənclərin bilik və bacarıqları, təşəbbüskarlığı və fəal iştirakı xüsusi əhəmiyyət daşıyır.

Qarabağ Dirçəliş Fondunun İdarə Heyətinin sədri Rəhman Hacıyev bildirib ki, Prezident Prezident İlham Əliyevin rəhbərliyi ilə rəşadətli Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı tarixi Qələbə nəticəsində torpaqlarımızın işğaldan azad edilməsi Qarabağın dirçəlişi və eyni zamanda Cənubi Qafqaz regionunda dayanıqlı sülhün bərqərar olunması üçün möhkəm zəmin yaradıb. Qarabağın dirçəlişinin yalnız infrastrukturun bərpası ilə məhdudlaşmadığını, bu prosesdə insan kapitalının inkişafının xüsusi əhəmiyyət daşıdığını deyən İdarə heyəti sədrinin sözlərinə görə, Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən genişmiqyaslı bərpa-quruculuq işləri ilə yanaşı, bölgənin sosial-iqtisadi inkişafı və insan kapitalının gücləndirilməsi istiqamətində də mühüm addımlar atılır. Təhsilli, peşəkar və təşəbbüskar gənclərin yetişdirilməsi Qarabağın uzunmüddətli və dayanıqlı inkişafının əsas şərtlərindən biridir.

Qarabağ Universitetinin rektoru Şahin Bayramov universitetin Qarabağın gələcək inkişafında insan kapitalının formalaşdırılması baxımından rolundan bəhs edib. Bildirib ki, universitetin əsas məqsədlərindən biri tələbələrə müasir və keyfiyyətli təhsil verməklə yanaşı, onların gələcəkdə regionun sosial-iqtisadi və mədəni inkişafında fəal iştirakına şərait yaratmaqdır. O, tələbələrin bu kimi müzakirələrə cəlb olunmasının onların Qarabağın gələcəyi ilə bağlı fikir və təşəbbüslərinin formalaşmasına mühüm imkan yaratdığını vurğulayıb.

## *Peru mətbuatı:* "Azərbaycan şəhidlərinin xatirəsini ehtiramla yad edir"

**"Elə tarixlər var ki, onların izaha ehtiyacı yoxdur. Bu tarixləri söyləmək kifayətdir ki, bütöv bir xalq sükuta qərq olsun. 27 sentyabr Azərbaycan üçün belə tarixlərdəndir".**

AZƏRTAC xəbər verir ki, bu fikir Perunun "Guik" gündəlik qəzetində Rikardo Sançes Serranın "Azərbaycan şəhidlərinin xatirəsini ehtiramla yad edir" adlı məqaləsində yer alıb. Məqalədə qeyd edilir ki, 27 sentyabr Vətən müharibəsində həlak olmuş Azərbaycan əsgər və zabitlərinin xatirəsinin ehtiramla yad edildiyi Anım Günüdür.

Bildirilir ki, 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən müharibə Azərbaycanın müasir tarixində mühüm mərhələ olub. Azərbaycan Müdafiə Nazirliyinin məlumatına görə, döyüşlərdə 2908 hərbçi şəhid olub, 6 nəfər itkin düşüb, yaralanan hərbçilərin sayının təxminən 11 min 110 nəfər olduğu göstərilir.

Lakin bu rəqəmlərin hər birinin arxasında bir insan taleyi, bir ailənin ağrısı və yarımçıq qalmış həyat hekayəsi dayanır. Müharibədən sonra ölkənin müxtəlif bölgələrində dağıdılmış şəhərlər, tarixi-mədəni abidələr və münaqişənin ağır izləri müharibənin yalnız fiziki deyil, həm də mənəvi nəticələrini nümayiş etdirir.

Müəllif qeyd edir ki, 27 sentyabr azərbaycanlılar üçün yalnız tarixi hadisənin ildönümü deyil. Bu gün yaddaş, matəm və minnətdarlıq günüdür. Dünyanın müxtəlif ölkələrində də müharibələrdə həlak olanların xatirəsinə həsr olunmuş anım günləri keçirilir. ABŞ-də Memorial Day, Böyük Britaniyada Remembrance Day, Fransada isə 11 noyabr anım mərasimləri bu yaddaş ənənəsinin nümunələridir.

Azərbaycanda 27 sentyabrın əsas simaları 2020-ci ildə döyüşlərdə həlak olan və ailələrinə qayıtmayan gənclərdir. Onların xatirəsi qarşısında yaşanan sükut unutqanlığın deyil, ehtiramın sükutudur.

Yazıda vurğulanıb ki, 27 sentyabr həm də müharibənin insanlara buraxdığı dərin yaraları unutmadan gələcəyə baxmaq günüdür. Həlak olanları yad etmək, onların fədakarlığına hörmət göstərmək və eyni zamanda sülhün gələcək nəsillər üçün daha güclü dəyərə çevrilməsini arzulamaq bu günün əsas mənalarından biridir.

# Xalq - iqtidar - ordu vəhdətinin təntənəsi



# Vətən tariximizin 27 sentyabr səhifəsi

**Azərbaycan xalqı üçün 30 illik dözümün, sınmayan iradənin və səbrin zəfər əzminə çevrildiyi an - 2020-ci ilin 27 sentyabr sabahı oldu. O gün Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin xalqa müraciətində səsləndirdiyi kəlmələr həm də xalqımızın milli qürurunun bərpası üçün verilən tarixi hökm idi: "Biz haqq yolundayıq. Bizim işimiz haqq işidir. Biz zəfər çalacağıq! Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

## Səbrin və ədalətin sınaq meydanı

2020-ci ilin 27 sentyabrı təqvimə sadəcə növbəti bir gün kimi yazılmadı. O gün otuz ildən bəri sinəmizdə dağa çevrilən Qarabağ nisgilini birdəfəlik qoparıb atmaq üçün ayağa qalxdığımız tarixi məqam oldu.

İşğalçı Ermənistanın növbəti dəfə həddini aşaraq bütün cəbhəboyu ağır silahlardan, artilleriyadan istifadə etməklə hücuma keçməsi, birbaşa kəndlərimizi və dinc insanları hədəfə alması artıq səbrimizin son damlası idi. Düşmənin bu xain təxribatı ədaləti bərpa etməkdən başqa bir yol qoymadı. Azərbaycan bu təxribatların cavabını vermək və ərazilərini işğaldan azad etmək üçün "Dəmir yumruq" əməliyyatına başladı.

Əslində, bu, 2020-ci ildə düşmənin ölkəmizə qarşı ilk təxribatı deyildi. Hələ iyul ayında Tovuz istiqamətində sərhədlərimizi pozmaq cəhdi mülki sakinlərimizin və hərbçilərimizin şəhid olması ilə nəticələnmişdi. Ancaq Azərbaycan Ordusu həmin vaxt düşmənə layiqli dərs verərək onu geri oturtmuşdu. İşğalçı Ermənistan isə məğlubiyyətdən dərs çıxarmaq əvəzinə, sentyabrın 27-də daha böyük təcavüzə əl atmaqla öz sonunu hazırladı.

Azərbaycanın səbri tükənmişdi. Onilliklər boyu aparılan mənasız danışıqlardan heç bir nəticə alınmayacağı bəlli idi. İkili standartların hökm sürdüyü dünyada beynəlxalq ədalətdən nəsə gözləmək olmazdı. Düz 27 il idi ki, Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının qətnamələri yerinə yetirilmirdi. Digər tərəfdən də Ermənistan beynəlxalq havadarlarına güvənərək işğalı əbədiləşdirməyə çalışır, ölkəmizə qarşı hərbi təxribatlar törədirdi.

2020-ci il 27 sentyabrında etdiyi səhv işğalçıya baha başa gəldi. Həmin gün səhər saatlarından etibarən Azərbaycan Ordusu Vətən torpağının hər qarışı uğrunda müqəddəs savaşa başladı. Qəhrəman döyüşçülərimiz doğma torpaqlarımızı düşmən tapdağından xilas etmək, işğalçıya unudulmaz dərs vermək üçün dərhal irəli atıldı.

Müharibənin ilk saatlarında Prezident İlham Əliyev birbaşa xalqa müraciət edərək cəbhədəki vəziyyəti, düşmənin növbəti hərbi təcavüzünü faktlarla diqqətə çatdırdı və rəsmi olaraq bəyan etdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur.

Düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananlar var. Allah şəhidlərimizə rəhmət eləsin! Onların qanı yerdə qalmayacaqdır. Azərbaycan Ordusu hazırda düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirir və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikaları sıradan çıxıb. Bu, erməni faşizminin növbəti təzahürüdür".

Bu tarixi müraciət sadəcə operativ məlumat vermək məqsədi daşımırdı. Bu, torpaqlarımızın azadlığı uğrunda hər bir vətəndaşın üzərinə düşən məsuliyyəti göstərən, dövlət-xalq-ordu birliyini sarsılmaz bir qüvvəyə çevirən milli bəyanat idi.

Dövlət başçısı qətiyyətlə vurğulayırdı ki, Azərbaycan heç vaxt təxribata əl atmayıb: "Azərbaycan sadəcə olaraq öz maraqlarını müdafiə edir, öz mövqeyini dəstəkləyir və öz siyasətini alnıaçıq aparır. Biz dəfələrlə bəyan etmişik ki, Dağlıq Qarabağ əzəli tarixi Azərbaycan torpağıdır və bu, həqiqətdir. Ermənistanın baş naziri deyəndə "Qarabağ Ermənistandır", bu, yalandır. Mən deyəndə ki, "Qarabağ Azərbaycandır", bu, həqiqətdir. Bütün dünya Dağlıq Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Tarixi ədalət bizim tərəfimizdədir. Çünki bu, bizim doğma, dədə-baba torpağımızdır".

Ali Baş Komandanın beynəlxalq aləmə ünvanlanan ittihamı isə məsələnin mahiyyətini açıq şəkildə ortaya qoyurdu: "Erməni əsgərinin bizim torpağımızda nə işi var?! Ermənistan ordusunun bizim torpağımızda nə işi var?! Heç kəs üçün sirr deyil ki, "Dağlıq Qarabağ ordusu"nun tərkibində olan şəxsi heyətin 90 faizi Ermənistan vətəndaşlarından ibarətdir. Ermənistan işğalçı dövlətdir, bu işğala son qoyulmalıdır və son qoyulacaqdır".

## 44 günlük qəhrəmanlıq salnaməsi

27 sentyabrda Azərbaycan Ordusu ərazilərimizin işğalına son qoymaq üçün müqəddəs haqq yürüşünə çıxdı. Bütün cəbhə boyu əks-hücuma keçən qəhrəman döyüşçülərimiz irəliyə - doğma torpaqlarımıza doğru şığıdılar. Düşmənin illər boyunca qurduğu keçilməz istehkamlar, dərin səngərlər və beton maneələr igidlərimizin inamı qarşısında darmadağın oldu.

Rəşadətli ordumuz düşmənə nə yerdə, nə də göydə aman verdi. Dəqiq artilleriya zərbələri, havada dronlarımızın sarsıdıcı həmlələri və qurudakı cəsur döyüşçülərimizin qarşısıalınmaz hücumları işğalçıları dəhşətə gətirdi. Elə o tarixi gün - sentyabrın 27-də torpaqlarımız addım-addım düşmən tapdağından azad edilməyə başlandı.

İllərdir həsrətlə gözlədiyimiz o ilk qələbə müjdələri, strateji yüksəkliklərin və kəndlərimizin azad olunması xəbərləri elə 27 sentyabr günü xalqımıza əvəzsiz Zəfər sevinci yaşatdı. Bu, 44 günlük böyük Qələbə dastanının ilk mübarək addımları idi.

2020-ci ilin 27 sentyabrında başlayan o haqq yürüşü çox keçmədən öz tarixi məntiqinə çatdı. Aradan cəmi iki aya yaxın vaxt keçmişdi ki, biz artıq otuzillik Qarabağ düyününün tamamilə çözülməsindən, münaqişənin parlaq Zəfərlə bitməsindən böyük qürurla söz açırdıq. Cəmi 44 gün sürən bu haqq mübarizəsi xalqımızın şərəf və ləyaqət dastanına çevrildi.

Müzəffər Ali Baş Komandanın dahi sərkərdəliyi, rəşadətli əsgər və zabitlərimizin misilsiz fədakarlığı sayəsində düşmən tapdağındakı şəhər və kəndlərimiz bir-birinin ardınca azad olundu. Yaradılan sarsılmaz birlik "dəmir yumruğ"a çevrilib düşmənin başını əzdi və işğalçını kapitulyasiya - məğlubiyyət aktına imza atmağa, diz çökməyə məcbur etdi.

Bu gün başımızı uca tutub azad Qarabağdan, bərpaolunan torpaqlarımızdan və qalib xalqımızdan qürurla söz açırıqsa, bunu 27 sentyabr sabahı cəsarətlə irəli atılan, torpaqlarımızın bütövlüyü uğrunda canından belə keçməyə razı olaraq bir addım da geri çəkilməyən, Azərbaycanın üçrəngli, ay-ulduzlu bayrağını zirvələrimizdə dalğalandıran qəhrəmanlarımıza borcluyuq.

27 sentyabr təqvimi - Azərbaycan xalqı üçün sadəcə Anım Günü deyil, eyni zamanda bir millətin yenidən doğulduğu, öz taleyini öz əlləri ilə yazdığı Zəfər salnaməsinin təməl daşıdır. Şəhidlərimizin müqəddəs ruhu qarşısında baş əyir, bu tarixi Qələbəni bizə bəxş edən qəhrəmanlarımızla hər zaman fəxr edirik!

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# Tarix yaradan xalq

**2020-ci il sentyabrın 27-si Azərbaycan tarixinin adi bir səhəri kimi açılmadı. O səhər illər boyu Qarabağ həsrəti ilə yaşayan bir xalqın taleyində yeni bir səhifə açıldı. Ermənistan silahlı qüvvələrinin Azərbaycan mövqelərinə və yaşayış məntəqələrinə hücumu ilə başlayan hərbi əməliyyatlar 44 gün davam edən Vətən müharibəsinə çevrildi. Həmin gün Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. 27 sentyabrın əsl mahiyyətini yalnız döyüş xəritəsində axtarmaq olmaz. Həmin tarixə səngərdən baxanda bir mənzərə, şəhid anasının pəncərəsindən boylananda isə tamam başqa mənzərə görünür. Əsgər üçün 27 sentyabr silahını çiyninə götürüb Vətən yoluna çıxmaq idi. Ana üçün övladının arxasınca dua etmək, ata üçün qürurla göz yaşını gizlətmək idi. Qazi üçün ömrünün sonuna qədər daşıyacağı bir ağrı və eyni zamanda şərəf idi. Şəhid ailəsi üçün isə dünyanın heç bir sözü ilə ifadə olunmayacaq bir itki... Bütün bu fərqli talelərin mərkəzində bircə söz dayanırdı - Vətən.**

Bəlkə də 27 sentyabrın böyüklüyü elə bundadır - milyonlarla insanın fərqli həyatı, düşüncəsi, siyasi baxışları, taleyi bir anda eyni mənanın ətrafında birləşdi. Azərbaycan xalqı özünün ən çətin və taleyüklü məqamlarından birində göstərdi ki, milli məsələlər qarşısında onu birləşdirən daha böyük bir dəyər var - Azərbaycan. O gün xalqın səsi səngərin səsi ilə birləşdi. Cəbhədə güllə açılırdı, evlərdə dualar yüksəlirdi. Əsgər irəliləyirdi, ana gözləyirdi. Həkim yaralını həyata qaytarmağa çalışırdı, müəllim uşağa Vətən haqqında danışırdı, jurnalist həqiqəti dünyaya çatdırmağa çalışırdı, diaspor nümayəndəsi yaşadığı ölkədə Azərbaycan həqiqətlərini səsləndirirdi. Hər kəs öz yerində, ümumilikdə isə hamı bir yöndə idi - Vətənin tərəfində. Elə buna görə də sentyabrın 27-sini yalnız müharibənin başlanğıcı adlandırmaq azdır, bu tarix həm də xalqın dövlətinə, ordusuna və gücünə inamının böyük sınaqdan keçdiyi gündür.

Azərbaycan xalqı həmin günlərdə dövlətin yanında dayandı. Dövlət də xalqın səsini eşitdi, onun iradəsini öz siyasətinin əsas dayaqlarından birinə çevirdi. Prezident İlham Əliyevin müharibə günlərində xalqa müraciətləri, xarici media nümayəndələrinə verdiyi çoxsaylı müsahibələr əsl həqəqətin, Azərbaycanın mövqeyinin beynəlxalq informasiya məkanına çatdırılmasının mühüm vasitələrindən oldu.

Burada bir məqamı xüsusi qeyd etmək lazımdır. Müharibə yalnız səngərdə aparılmırdı. Bir tərəfdə Azərbaycan əsgəri torpağı uğrunda vuruşurdu, digər tərəfdə Azərbaycan diplomatı dünya kürsülərində ölkəmizin haqq işini müdafiə edirdi. Bir tərəfdə hərbi əməliyyatlar gedirdi, digər tərəfdə informasiya müharibəsi aparılırdı. Prezident İlham Əliyevin xarici media ilə müsahibələrində Azərbaycanın mövqeyini izah etməsi də həmin mübarizənin mühüm istiqamətlərindən idi. O günlər dünya Azərbaycanın səsini eşidirdi.

Bu səs təkcə bir dövlət başçısının səsi deyildi, həm də 30 ilə yaxın doğma torpaqlarından ayrı düşmüş insanların səsi idi. Bu səs kəndindən, evindən, yurdundan didərgin salınmış insanların səsi idi. Övladını Qarabağda itirmiş atanın, illərlə yol gözləmiş ananın səsi idi. O günlər səngərdən gələn səslə diplomatiya masasından gələn səs eyni idi. Bu, müharibənin görünən və görünməyən iki cəbhəsi idi. Birinci cəbhədə əsgər torpağı addım-addım geri alırdı, ikinci cəbhədə isə Azərbaycanın haqqı dünyaya çatdırılırdı. Bu iki cəbhənin arxasında bir xalq dayanmışdı. O xalq ki, 44 gün ərzində bir yumruq kimi birləşdi. "Dəmir yumruq" ifadəsi də məhz həmin günlərin siyasi və mənəvi yaddaşında belə bir məna qazandı - birliyin gücü. Bu birlik təsadüfən yaranmamışdı.

Onun arxasında illərlə aparılan dövlət siyasəti, ordunun gücləndirilməsi, Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmləndirilməsi, iqtisadi potensialın artırılması, ən başlıcası, dövlətçilik düşüncəsinin möhkəmləndirilməsi dayanırdı.

10 noyabr 2020-ci il bəyanatı ilə hərbi əməliyyatlar dayandırıldı. Qarabağ uğrunda mübarizə xalqımızın yaddaşında böyük məna daşıyırdı. Bu həm də ləyaqətin bərpası, ədalətin yenidən öz yerini tapması, milli iradənin sınanması idi. İllərlə "nə vaxt?" sualını verən bir xalqın, nəhayət, "yetişdi!" dediyi məqam idi. Bu yetişməyin arxasında səbir, onilliklərin ağrısı, atəşkəs illərinin susqunluğu, itirilmiş yurdların həsrəti vardı. Və bütün bunların sonunda qərar, qətiyyət, möhkəm iradə vardı. 27 sentyabr həmin qərarın, qətiyyətin, iradənin tarixə yazıldığı gündür. Bu qərarın ən ağır yükünü Azərbaycan zabiti və əsgəri daşıdı. O oğullar ki, 18-20 yaşında idi, həyatın nə olduğunu yenicə anlayırdılar. Bəlkə, bir neçə ay sonra toy edəcəkdi, universitetə qayıdacaqdı, anasına "qayıdacağam" demişdi. Amma Vətən çağıranda şəxsi arzularını arxa plana keçirmişdi. O əsgər torpağı azad etməyə getmişdi. Bəzisi geri qayıtdı, bəzisi qayıtmadı. Qayıtmayanların adı isə Azərbaycan tarixinin uca zirvəsində yazıldı.



Bu gün 27 sentyabrı Anım Günü kimi qeyd etməyimizin əsas mənası da budur. 2020-ci il dekabrın 2-də Prezident İlham Əliyevin imzaladığı sərəncamla sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü elan edildi, sənəddə əsgər və zabitlərin, arxa cəbhədə çalışan mülki insanların, bütövlükdə xalqın birlik və həmrəylik nümayiş etdirdiyi xüsusi vurğulandı. Deməli, 27 sentyabr yalnız şəhidlərimizi xatırladığımız gün deyil, həm də birlik haqqında yaxşı-yaxşı düşünüb birləşdiyimiz gündür. Çünki şəhidin bizdən istədiyi yalnız onun adını xatırlamaq deyil, onun qanı ilə azad olunan Vətəni qorumaqdır, uğrunda can verdiyi dövlətə sahib çıxmaqdır, bir-birimizə hörmət etməkdir, milli məsələlərdə şəxsi maraqları kənara qoya bilməkdir. Bu həm də hamımızın Vətən məsələsində eyni məsuliyyəti daşımağımızdır. Bu həqiqəti 2020-ci ilin payızı bizə bir daha göstərdi. Həmin payız Azərbaycan xalqı özünün nə qədər böyük mənəvi gücə malik olduğunu gördü. Şəhid ailəsi öz ağrısı ilə böyük bir millətin qarşısında dayandı, qazi yarası ilə Vətənə qayıtdı, əsgər bayrağını daha yüksəyə qaldırdı, diplomat haqqımızı müdafiə etdi, jurnalist həqiqəti yazdı. Ana dua etdi, ata gözlədi, uşaq atasının hərbi paltarını qucaqladı.

Dövlətimizin başçısının siyasi iradəsi, Ali Baş Komandanın qərarları və rəhbərliyi müharibənin gedişində mühüm rol oynadı. Azərbaycan Ordusunun hazırlığı, əsgər və zabitlərin peşəkarlığı, hərbi şücaəti isə Zəfərin əsas dayaqlarından oldu. Amma bütün bunları bir-birindən ayırmaq mümkün deyil. Dövlətin, ordunun gücü və xalqın birliyi bir bütövün müxtəlif tərəfləridir. Zəfər də məhz bu bütövlükdən yarandı. Bu gün geriyə dönüb baxanda Şuşaya gedən yolun sentyabrın 27-dən başladığını görürük. 44 gün ərzində Azərbaycan Ordusunun irəliləməsi, Şuşanın azad olunması və sonrakı proseslər 30 ilə yaxın davam etmiş işğalın sonunu gətirdi.

Hər zəfərin bir qiyməti olur. Bizim Zəfərimizin qiyməti şəhid qanıdır. Ona görə də bu Zəfər qarşısında sevinc qədər məsuliyyət də var. Şəhidlərin bizə əmanət etdiyi Vətən var, qazilərin bizə əmanət etdiyi ləyaqət var. Gələcək nəsillərin bizdən gözlədiyi qüdrətli Azərbaycan var. Bu gün bizim borcumuz həmin Zəfəri yalnız xatırlamaq deyil, onun mənəvi yükünü daşımaqdır. Dövlətimizi daha da gücləndirmək, ölkəmizin inkişafına əməyimizlə töhfə vermək, milli həmrəyliyimizi qorumaq, gənclərimizə tariximizin həqiqətlərini anlatmaq, ən başlıcası, şəhidlərin xatirəsinə layiq yaşamaqdır. Tarix bizə yalnız keçmişi xatırlatmır, eyni zamanda sabah üçün məsuliyyət qoyur. Sentyabrın 27-nin bizə qoyduğu ən böyük məsuliyyət isə birliyi qorumaqdır. Bir xalqı böyük edən yalnız qazandığı qələbələr deyil, qələbəyə aparan dəyərləri qoruyub saxlaya bilməsidir. Bu gün Azərbaycan bayrağı Qarabağın şəhər və kəndlərində dalğalanırsa, həmin bayrağın kölgəsində 27 sentyabr səhərinin izi var. Həmin bayraqda şəhidin qanı, əsgərin nəfəsi, atanın, ananın duası, xalqın iradəsi, dövlətin qətiyyəti və bir millətin uzun illər içində böyütdüyü Azərbaycan adlı böyük arzusu var.

27 sentyabrı tarix edən Azərbaycan xalqının iradəsi oldu. Bu gün həmin iradənin, şəhidlərimizin qarşısında baş əyirik. Qazilərimizə minnətdarlığımızı bildiririk. Əsgərimizin qarşısında ehtiramla dayanırıq. Anaların səssiz duasını eşidirik. Və ürəyimizdə bir həqiqəti yaşadırıq: bəzi günlər təqvimdə qalır. Bəzi günlər isə xalqın qan yaddaşına çevrilir. 27 Sentyabr Azərbaycan xalqının qan yaddaşına çevrilmiş belə bir gündür. Bu günün adı Anım Günüdür. Amma bu günün yaddaşında həm də bir xalqın birliyi, dövlətin iradəsi, ordunun qəhrəmanlığı və Vətənin Zəfəri yaşayır.

***Elşən QƏNİYEV, "Azərbaycan"***

# Ankarada Vətən müharibəsindən və Azərbaycanın qazandığı Qələbədən danışılıb

**Azərbaycanın Türkiyədəki səfirliyi nəzdindəki Azərbaycan Mədəniyyət Mərkəzi və Ankara Universitetinin Dil və Tarix-Coğrafiya fakültəsinin Müasir Türk Ləhcələri və Ədəbiyyatları bölməsinin birgə əməkdaşlığı ilə "Eyni hilal altında: İki dövlətin şəhidlərinə vəfa" adlı tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, səfirliyimizin və Ankara Universitetinin dəstəyi ilə keçirilən anım tədbirində 44 günlük Vətən müharibəsi, Zəfərimizə həsr olunmuş fotosərgi təqdim edilib.

Ankara Universitetinin Farabi zalında təşkil olunan proqram şəhidlərin xatirəsinin birdəqiqəlik sükutla yad edilməsi, daha sonra Türkiyə və Azərbaycanın Dövlət himnlərinin səsləndirilməsi ilə başlayıb.



Tədbirin açılışında Ankara Universitetinin Dil və Tarix-Coğrafiya fakültəsinin Müasir Türk Ləhcələri və Ədəbiyyatları bölməsinin rəhbəri professor Sema Barutcu Özönder, sözügedən fakültənin dekanı, professor İrfan Albayrak, Ankara Universitetinin prorektoru, professor Orhan Uzun və Azərbaycanın Türkiyədəki səfiri Rəşad Aslanov çıxış ediblər.

Çıxışçılar 27 Sentyabr - Anım günü, 44 günlük Vətən müharibəsi, Azərbaycanın qazandığı şanlı Zəfər, Qələbənin əldə olunmasında şəhidlərimizin qəhrəmanlıqları və şücaətləri haqqında fikirlərini bölüşüblər.

Proqram çərçivəsində Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun xatirəsinə həsr olunmuş "Düşmənə qarşı tək" adlı sənədli film nümayiş etdirilib.

Filmin nümayişindən sonra "SOY Production"un rəhbəri Dilarə Əliyeva və filmin prodüseri, rejisor Fariz Əliyev sənədli filmin hazırlanma prosesi və məzmunu barədə məlumat verib, Azərbaycanın Milli Qəhrəmanı Natiq Qasımovun həyatı və qəhrəmanlığı haqqında fikirlərini bölüşüblər.

Tədbirin davamında Azərbaycan yazıçısı İradə Əlilinin "Vətənin cəsur döyüşçüləri I-II" və "Çubuk Kahramanları, Kahraman Şehit Oğuz Özgür Çevik" adlı kitablarının təqdimatı keçirilib.

Daha sonra "Eyni hilal altında: İki dövlətin şəhidlərinə vəfa" mövzusunda panel təşkil olunub. Paneldə professor Üçler Bulduk "Türklərdə şəhadət anlayışı", professor Birsen Karaca "Təkəbbürlü tarix anlayışının süqutu: Qarabağ Zəfəri və Ermənistanın öz həqiqətləri ilə üzləşməsi", Mehmet Rıza Heyet isə "Dünəndən bu günə türk yaddaşında Qarabağ" mövzularında məruzələrlə çıxış ediblər.

Türkiyə və Azərbaycan şəhidlərinin əziz xatirəsinin yad edildiyi tədbirdə iki qardaş ölkənin ortaq tarixi yaddaşının, həmrəyliyinin və qardaşlıq bağlarının gələcək nəsillərə ötürülməsinin əhəmiyyəti bir daha vurğulanıb.

# Xalq - iqtidar - ordu vəhdətinin təntənəsi




## Zəfərə gedən yolun siyasi təməli

### Prezident İlham Əliyev Ermənistanı hələ 44 günlük müharibədən əvvəl diplomatik cəbhədə tamamilə məğlubiyyətə uğratmışdı

**Azərbaycanın 44 günlük Vətən müharibəsində qazandığı tarixi Zəfərin təməli hərbi əməliyyatlardan əvvəlki uzunmüddətli dövrdə diplomatik müstəvidə, siyasi və hüquqi sferada, beynəlxalq tribunalarda qoyulub. 30 illik işğala son qoyulması və torpaqlarımızın azad edilməsi Prezident İlham Əliyevin yürütdüyü düşünülmüş, prinsipial və məqsədyönlü xarici siyasətin məntiqi nəticəsi idi. Çünki döyüş meydanındakı uğurun qalıcı olması və beynəlxalq birlik tərəfindən qeyd-şərtsiz qəbul edilməsi üçün ilk növbədə Ermənistan diplomatik müstəvidə çökdürülməli, təcrid olunmalı və hüquqi baxımdan küncə sıxışdırılmalı idi. 27 sentyabr 2020-ci ilədək zərgər dəqiqliyi ilə həyata keçirilən diplomatik hücum strategiyası rəsmi İrəvanı həm siyasi, həm də informasiya məkanında dalana dirəyərək məğlubiyyətə məhkum etdi.**

Prezident İlham Əliyevin fəaliyyəti dövründə strateji istiqamətlərdən biri Ermənistanı regional və qlobal iqtisadi layihələrdən təcrid etmək siyasəti idi. Dövlətimizin başçısı çıxışlarında birmənalı şəkildə bəyan edirdi ki, işğalçılıq siyasətinə son qoyulmadığı müddətdə Ermənistanın Cənubi Qafqazda heç bir inkişaf perspektivi ola bilməz. Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, "Cənub qaz dəhlizi", Bakı-Tbilisi-Qars dəmir yolu və "Şimal-Cənub" nəqliyyat dəhlizi kimi nəhəng transmilli infrastrukturlar Ermənistandan yan keçməklə inşa edildi. İqtisadi blokada nəticəsində işğalçı ölkə böyük gəlirlərdən və tranzit imkanlarından məhrum oldu, heç bir gələcəyi olmayan, kənar himayədarların vassal dövlətinə çevrildi. İqtisadi resursları tükənən, demoqrafik böhranla üzləşən və xarici yardımlardan tam asılı vəziyyətə düşən Ermənistanın Azərbaycanın sürətlə artan hərbi və iqtisadi gücü ilə rəqabət aparmaq imkanları hələ müharibədən çox əvvəl sıfıra endirildi.

Diplomatik müstəvidə qazanılan mühüm uğurlardan biri də münaqişənin həlli ilə bağlı beynəlxalq hüquqi bazanın formalaşdırılması oldu. Prezident İlham Əliyev bütün mötəbər beynəlxalq platformalarda - BMT Baş Assambleyası, Avropa Şurası, NATO və Şərq Tərəfdaşlığı sammitlərində, Qoşulmama Hərəkatı, İslam Əməkdaşlıq Təşkilatı kimi qurumlarda Ermənistanın işğalçılıq siyasətinin mahiyyətini təkzibedilməz faktlarla dünya ictimaiyyətinin diqqətinə çatdırdı. Beynəlxalq aləmin qeyri-obyektiv və ədalətsiz mövqeyinə baxmayaraq, BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icrasının vacibliyi daim gündəlikdə saxlanıldı. Azərbaycanın təşəbbüsü ilə beynəlxalq təşkilatların sənədlərində münaqişənin məhz ölkəmizin ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı çərçivəsində həll edilməli olduğu aydın şəkildə təsbitini tapdı.

Ələlxüsus, dünya birliyində 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatına Azərbaycanın sədrlik etməsi və bu təşkilatın bütün üzvlərinin ölkəmizin haqlı mövqeyini yekdilliklə dəstəkləməsi rəsmi İrəvanın beynəlxalq aləmdə dəstəksiz qalmasını təmin etdi. Ermənistanın illərlə sığındığı uydurma ideologiyalar, tarixi miflər də Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi diplomatik fəaliyyət sayəsində öz təbliğat əhəmiyyətini itirməyə başladı. Dövlətimizin başçısı bütün müzakirə masalarında, xarici səfərlərində erməni tərəfinin beynəlxalq hüququ öz xeyrinə təhrif etmək cəhdlərinin qarşısını məharətlə aldı.

Ermənistanın otuz il ərzində işğalda saxladığı torpaqlarımızda həyata keçirdiyi qanunsuz məskunlaşdırma, tarixi-dini abidələrimizin dağıdılması və təhrif olunması, təbii sərvətlərimizin talan edilməsi faktları BMT-də, Avropa İttifaqının təsisatlarında gündəmə daşındı, beynəlxalq monitorinq missiyalarının hesabatlarına daxil edildi. Bununla da rəsmi İrəvanın dünyaya sırımağa çalışdığı "sülhpərvər" obrazı tamamilə darmadağın edildi və Ermənistanın dünya birliyinin gözündə hərbi cinayətkar və təcavüzkar dövlət statusu tam şəkildə təsbit olundu.

Prezident İlham Əliyevin nümayiş etdirdiyi yüksək siyasi-diplomatik peşəkarlıq Ermənistan rəhbərliyini dünya ictimaiyyətinin gözü qarşısında dəfələrlə aciz və rəzil duruma saldı. 2019-cu ilin oktyabrında keçirilən "Valday" Beynəlxalq Diskussiya Klubunun XVI illik iclasının plenar sessiyasında dövlətimizin başçısı Ermənistan rəhbərliyinin təxribatçı iddialarına, populizminə sarsıdıcı zərbə vurdu. Prezident İlham Əliyev dünyaya bəyan etdi ki, Ermənistan baş nazirinin "Qarabağ Ermənistandır və nöqtə" bəyanatı cəfəngiyyatdır, Qarabağ Azərbaycanın tarixi, əzəli torpağıdır. Məhz dövlətimizin başçısının milli şüarımıza çevrilən "Qarabağ Azərbaycandır və nida işarəsi" ifadəsi Ermənistanın illər boyu formalaşdırmağa çalışdığı uydurma tezisləri kökündən darmadağın etdi, danışıqlar masasında düşmənin manipulyasiya imkanlarını sıfırladı.

2020-ci ilin fevralında Münxen Təhlükəsizlik Konfransı çərçivəsində baş tutan canlı debat zamanı Prezident İlham Əliyev Ermənistanın baş nazirini beynəlxalq arena qarşısında tamamilə ifşa etdi. Dövlətimizin başçısı tarixi həqiqətlərə, BMT qətnamələrinə və beynəlxalq hüququn norma və prinsiplərinə istinad edərək bildirdi ki, dünya birliyi Azərbaycanın ərazi bütövlüyünü tanıyır və işğalçı ölkə beynəlxalq hüququn tələblərini kobud şəkildə pozmağa davam edir. Azərbaycan lideri o zaman da birmənalı vurğuladı ki, Ermənistan hərbi birləşmələri işğal edilmiş torpaqlardan çıxarılmalı və beynəlxalq birliyin qəbul etdiyi qərarlar qeyd-şərtsiz icra olunmalıdır. Bu debat Ermənistanın siyasi-ideoloji və diplomatik iflasının təsdiqi oldu.

Diplomatik cəbhədə aparılan effektiv mübarizə müharibədən əvvəl Ermənistanı həm də beynəlxalq təhlükəsizlik mexanizmlərindən məhrum etdi. Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu ikitərəfli və çoxtərəfli diplomatiya sayəsində Ermənistanın üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) çərçivəsində İrəvanın işğalçılıq siyasətinə dəstək qazanmaq cəhdləri də boşa çıxarıldı. Təşkilata üzv olan ölkələrin əksəriyyəti ilə Azərbaycanın qurduğu yüksəksəviyyəli tərəfdaşlıq və dostluq əlaqələri Ermənistanı tamamilə tək və köməksiz qoydu. Bu siyasi nailiyyət müharibə vaxtı KTMT-nin Ermənistana hərbi dəstək verməsinin qarşısını alan həlledici amil oldu.

Bunlarla yanaşı, Prezident İlham Əliyev müharibəyə qədər olan dövrdə böyük güclər və dünya siyasətinin əsas mərkəzləri ilə qarşılıqlı hörmətə dayanan müstəqil xarici siyasət yürütməklə Azərbaycanın təhlükəsizlik çətirini formalaşdırdı. Türkiyə ilə imzalanan strateji tərəfdaşlıq müqavilələri, Rusiya, Çin, Avropa İttifaqı ölkələri və islam dünyası ilə qurulan sağlam münasibətlər rəsmi Bakının beynəlxalq arenadakı manevr imkanlarını artırdı. Ermənistan rəhbərliyi isə xaotik, ziddiyyətli və kənar qüvvələrin əlində alətə çevrilən xarici siyasəti ilə öz havadarlarını da bezdirərək beynəlxalq dəstəkdən tamamilə kənarda qaldı.

Dövlətimizin başçısının nüfuzlu beynəlxalq mediaya, o cümlədən "BBC", "CNN", "Al Jazeera", "Bild" və digər aparıcı kanallara verdiyi çoxsaylı müsahibələr erməni lobbisinin və onların havadarlarının uzun illər ərzində qurduğu yalan və dezinformasiya şəbəkəsini kökündən sarsıtdı. Prezident İlham Əliyevin dəqiq məntiqə, beynəlxalq hüquqa və tarixi həqiqətlərə söykənən arqumentləri dünya ictimaiyyətində Azərbaycan haqqında tam obyektiv və ədalətli rəy formalaşdırdı. Bu diplomatik üstünlük müharibə dönəmində bəzi qərəzli xarici güclərin Azərbaycana qarşı təzyiq göstərmək və sanksiyalar tətbiq etmək cəhdlərinin qarşısını alan qalxana çevrildi.

Nəticə etibarı ilə diplomatiya cəbhəsində, siyasi sferada və hüquq müstəvisində illər boyu aparılan məqsədyönlü mübarizə Ermənistanı hələ 2020-ci ilin sentyabrından əvvəl tam iflic vəziyyətinə salmışdı. Prezident İlham Əliyevin diplomatik məharəti sayəsində düşmən həm beynəlxalq dəstəkdən məhrum edilmiş, həm iqtisadi baxımdan çökdürülmüşdü, həm də hüquqi müstəvidə küncə sıxışdırılmışdı. Diplomatik masada qazanılmış bu uğurlar Ali Baş Komandanın rəhbərliyi ilə şanlı ordumuzun 44 günlük Vətən müharibəsində qazandığı Zəfərin ən möhkəm təməli oldu və tarixi ədalətin bərpasını qaçılmaz etdi.

*İsmayıl QOCAYEV,*
*"Azərbaycan"*

## Böyük Zəfərimizin əbədi qəhrəmanları

**"Oğul düşmən çəpəridir" deyib ulularımız. Odur ki, yalnız bir evə deyil, bir elə dayaq oğullar böyüdüblər. Onları ən ağır işlərə, zəhmətə alışdırıblar. Oğullar dinc vaxtlarda yurdu abad etdilər, bolluq, firavanlıq üçün əllərindən gələni əsirgəmədilər. Vətənin dar günündə isə silaha sarıldılar, yağılara gözdağı oldular.**

2020-ci ilin payızında da mərd Azərbaycan oğulları üçün Vətən bütün doğmalardan daha doğma, candan şirin oldu...

### Qələbələrə doğru...

Ermənistan otuz ilə yaxın idi ki, Qarabağ və Şərqi Zəngəzurda işğalı davam etdirirdi. Həmin yerlərin əzəli sakinləri yurdlarından qovulmuş, məcburi köçkün kimi Azərbaycanın ayrı-ayrı bölgələrində yaşamaq məcburiyyətində qalmışdılar. Qarabağı və Şərqi Zəngəzuru işğalçılar xarabalığa çevirmişdilər. Ermənistan 1994-cü il mayın 12-də atəşkəs sazişi imzalasa da, Azərbaycana qarşı təxribatlarına son qoymurdular. İşğal altında saxladığı bölgələrimizdə Ermənistan silahlı qüvvələri səngərlər qazır, istehkamlar qurur, Azərbaycan Ordusunun mövqelərini və sakinlərimizin yaşayış yerlərini intensiv olaraq iriçaplı silahlardan atəşə tuturdular. Hərbçilərimiz və mülki vətəndaşlarımız şəhid olurdular.

2020-ci il sentyabrın 27-də müharibənin başlamasına təcavüzkar Ermənistanın silahlı qüvvələrinin növbəti təxribatı səbəb oldu. Prezident, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyev həmin gün xalqa müraciətində bildirdi: "Bu gün səhər Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək bizim yaşayış məntəqələrimizi, eyni zamanda hərbi mövqelərimizi atəşə tutmuşdur".

Prezident, Ali Baş Komandan düşmən atəşi nəticəsində mülki əhali və hərbçilərimiz arasında itkilərin, yaralananların olduğunu dedi, xalqı əmin etdi ki, onların qanı yerdə qalmayacaq.

Həmin gün Ali Baş Komandan qismən səfərbərlik elan etdi. Ölkəmizin bütün ərazilərindən gənclər işğal altında qalmış torpaqlarımızın azadlığı uğrunda döyüşlərdə iştirak etmək üçün hərbi komissarlıqlara müraciət etdilər.

### Xalqımızın qürur günü

Vətən müharibəsinin ilk günündən Azərbaycan Ordusunun hər bir əsgər və zabiti böyük Zəfəri qazanmaq üçün əzmlə döyüşdü. 44 gün davam edən müharibənin hər günü onların şücaəti, igidliyi sayəsində tariximizə qələbələrlə yazıldı. Azərbaycan Ordusu düşmənin keçilməz saydığı istehkamları, səngərləri keçərək kəndlərimizi, qəsəbələrimizi, şəhərlərimizi azad etdi. Şiddətli döyüşlərin gedişində Ermənistan silahlı qüvvələrinin Azərbaycan Ordusu qarşısında zəifliyi, acizliyi göründü. İşğalçı ölkənin əsgər və zabitləri arasında qaçmağı döyüşməkdən üstün tutanlar az olmadı.

Azərbaycan Ordusunun igid əsgər və zabitləri isə ağır döyüşlərdə Vətənin hər qarış torpağı uğrunda qəhrəmancasına vuruşurdular. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı və digər ərazilərimizi düşmənin işğalından azad edirdilər.

44 gün davam edən Vətən müharibəsində sərt iqlim şəraitində, dağlıq ərazilərdə aparılan əməliyyatlar dünya hərb tarixində yeni səhifə açdı. Şuşa uğrunda gedən döyüşlər müzəffər Azərbaycan Ordusunun qəhrəmanlıq salnaməsinin zirvəsi kimi tarixə yazıldı. Sıldırım qayaları aşan igidlərimiz əlbəyaxa döyüşlərlə Şuşanı azad etdilər. Onların qəhrəmanlığı sayəsində 8 Noyabr - Zəfər Günü xalqımızın qürur gününə çevrildi.

### Xalqın gələcəyinə, Vətənin sabahına işıq olan igidlər

Vətən müharibəsində Qarabağ və Şərqi Zəngəzurun böyük hissəsi işğaldan azad edildi. Ermənistan kapitulyasiya aktına imza atmaq məcburiyyətində qaldı. 2023-cü ilin sentyabrında həyata keçirilən birgünlük antiterror əməliyyatı nəticəsində isə Azərbaycanın ərazi bütövlüyünün tam bərpasına nail olundu.

Qarabağ və Şərqi Zəngəzur düşmən əsarətindən qurtuldu. Bu tarixi qələbələr Azərbaycanın Vətəni öz canlarından üstün tutan minlərlə igid oğlunun canı, qanı bahasına qazanıldı. Onlar bir ailənin oğlu, valideynlərinin ümidi idilər. Ata ocağının çırağını yandıracaqdılar. Amma Vətənin dar günündə düşmən güllələrinə sinələrini sipər etdilər. Xalqın gələcəyinə, Vətənin sabahına işıq saçdılar.

Şəhidlərimizin hər birinin öz həyat hekayəsi olduğu kimi, öz qəhrəmanlıq dastanı var. O səhifələri vərəqlədikcə mərd, igid oğulların şücaətinə, cəsarətinə və Vətən sevgisinə heyran qalırsan. Kimisi son gülləsinədək vuruşdu, kimisi silahdaşlarını xilas edərkən canından keçdi, kimisi yaralı olsa da, döyüş meydanından çəkilmədi... Gənc idilər. Yollarına göz dikənləri vardı. Arzuları çox idi. Ancaq onlar ömürlərini Vətənin varlığına, azadlığına, suverenliyinə qurban verdilər. Şəhidlik zirvəsinə ucaldılar. Qəhrəmanlarımızın əziz xatirəsi xalqımızın qəlbində əbədi yaşayır. Adları küçələrə, məktəblərə verilir, xatirə lövhələri vurulur, abidələri ucaldılır.

Onların arzuları çiçək açır. Müstəqil, suveren Azərbaycanın hər bir guşəsində üçrəngli müqəddəs bayrağımız dalğalanır.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*



## Ön cəbhədə savaş, arxa cəbhədə həyat: 44 günlük kənd hekayəsi

**2020-ci il Azərbaycan üçün ağır imtahanların və böyük tarixi hadisələrin yaşandığı bir zaman oldu. Dünyanı iflic edən pandemiya, neft qiymətlərində kəskin dəyişiklik və ardınca 44 günlük müharibə ölkə iqtisadiyyatını eyni vaxtda bir neçə sınaqla üz-üzə qoydu. Bir tərəfdə qlobal iqtisadi daralma, digər tərəfdə enerji bazarındakı qeyri-müəyyənlik, sentyabrdan etibarən isə müharibənin yaratdığı yeni reallıq...**

Zaman o zaman idi ki, dünya COVID-19 pandemiyasının ağır sınağından keçirdi. İqtisadi əlaqələr pozulur, istehsal və ticarət zəncirləri çətinliklərlə üzləşir, müxtəlif ölkələrdə müəssisələr fəaliyyətini məhdudlaşdırırdı. Qlobal təsərrüfat sisteminin və dünya iqtisadiyyatının bir parçası olduğu üçün belə bir zamanda Azərbaycan iqtisadiyyatı qarşısında da mürəkkəb vəzifələr dayanırdı. Üstəlik, savaş günlərində milyonlarla insanın gündəlik həyatı, ərzaq təminatı, enerji sisteminin və iqtisadi fəaliyyətin davamlılığı təmin edilməli idi. Ön cəbhədə silah səsləri eşidilərkən arxa cəbhədə Azərbaycan iqtisadiyyatının ritmi vururdu.

Həmin günlərdə kənd təsərrüfatı torpağın səssiz gücünü və direnişini nümayiş etdirirdi. Tarlada yetişən məhsul, bağdan toplanan meyvə, yığılan pambıq iqtisadi göstərici olmaqdan çox, həyatın davam etdiyinin işarələri idi. Məlum: müharibə yalnız cəbhədə gedən döyüşlərdən ibarət deyil. Arxa cəbhədə həyatın öz axarında davam etməsi də bu savaşın bir parçasıdır. Müharibənin özünəməxsus qanunu var. Ön cəbhədə - döyüşdə vaxt saniyələrlə, dəqiqələrlə ölçülür. Arxa cəbhədə isə zaman başqa cür axır. Torpaq müharibə sevmir, o öz ritmini heç vaxt pozmur: əkin vaxtında aparılmalı, yetişən məhsul vaxtında yığılmalı, bağlar becərilməli, təsərrüfatlar öz işini davam etdirməlidir.



2020-ci il bu baxımdan diqqətəlayiq nəticələrlə yadda qaldı. Dövlət Statistika Komitəsinin ozamankı məlumatına görə, həmin il Azərbaycanda kənd təsərrüfatı məhsulunun ümumi həcmi 8 milyard 428,9 milyon manat təşkil edib və əvvəlki illə müqayisədə 2 faiz artıb. Bitkiçilik məhsullarının həcmi 0,8 faiz, heyvandarlıq məhsullarının həcmi isə 3,1 faiz yüksəlib. Bu göstəricilər təsadüfi deyildi. Kəndlərdə səhərlər yenə erkən açılır, texnika sahələrə çıxır, məhsul yığılır, kənd təsərrüfatı işçiləri gündəlik əmək fəaliyyətlərini davam etdirirdilər. Cəbhə bölgələrinə yaxın ərazilərdə yaşayan insanlar üçün həyatın ağırlığı daha çox hiss olunsa da, kənd təsərrüfatında mövsümi işlər dayandırılmadı.

Cəbhədə baş verən ağır hadisələr hər bir ailəyə təsir etsə də, təsərrüfatlarda görülməli işlər təxirə salınmırdı. Çünki ölkənin ərzaq təminatı, kənd əhalisinin məşğulluğu və kənd təsərrüfatı məhsullarının daxili bazara çıxarılması bu fəaliyyətin davam etməsindən asılı idi. Kəndlinin, fermerin öz təqvimi var. Bu təqvim müharibəyə, pandemiyaya və digər çətinliklərə baxmayaraq, qaydasında işləməlidir. Vaxtında yığılmayan məhsul itkiyə çevrilər, aparılmayan əkin növbəti ilin məhsuluna təsir göstərər, xüsusilə də savaş günlərində bu işlərin gecikməsi bütövlükdə ərzaq təminatı üçün əlavə çətinliklər yarada bilərdi.

Pambıqçılıq həmin dövrün kənd təsərrüfatında xüsusi yer tuturdu. Çünki o, bir sıra rayonda minlərlə insanın məşğulluğunu təmin edən vacib sahədir. Müharibənin davam etdiyi günlərdə pambıq sahələrində məhsul yığımı öz axarı ilə gedirdi. Fermerlər, mexanizatorlar və digər kənd təsərrüfatı işçiləri məhsulun vaxtında toplanması üçün fəaliyyətlərini davam etdirirdilər. Eyni vəziyyət üzümçülükdə, meyvəçilikdə və digər bitkiçilik sahələrində də müşahidə olunurdu.

Burada bir məqama xüsusilə diqqət çəkmək istəyirik. 2020-ci ildə kənd təsərrüfatının ümumi məhsulunun 2 faiz artması, bitkiçilik və heyvandarlıq sahələrində müsbət dinamikanın qorunması göstərirdi ki, müharibə şəraitində belə aqrar sahənin əsas istehsal mexanizmləri işlək vəziyyətdə idi. 8 milyard 428,9 milyon manatlıq kənd təsərrüfatı məhsulunun arxasında minlərlə təsərrüfat, yüz minlərlə əmək günü və böyük insan zəhməti dayanırdı. Hər yığılan məhsul həmin dövrdə ölkənin iqtisadi həyatının davam etdiyini göstərən kiçik, lakin mühüm bir fakt idi.

Müharibə günlərində Azərbaycan üçün iqtisadi sabitliyin qorunması ümumi mübarizənin mühüm istiqamətlərindən birinə çevrilmişdi. Döyüşdə hərbi əməliyyatlar davam etdiyi bir vaxtda əhalinin ərzaqla təmin olunması, kənd təsərrüfatı məhsullarının istehsalı, sənaye müəssisələrinin fəaliyyəti və enerji təminatının qorunması ölkənin normal həyatının davam etdirilməsi baxımından böyük əhəmiyyət daşıyırdı.

Beləliklə, 44 günlük müharibənin iqtisadi mənzərəsində kənd təsərrüfatı xüsusi bir yer tutur. Müharibənin yaratdığı bütün çətinliklərə baxmayaraq, kənd təsərrüfatının istehsal ritmi qorunurdu. Bu isə Azərbaycanın arxa cəbhədə iqtisadi fəaliyyətin davamlılığının ən aydın göstəricilərindən biri idi.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2026-cı ilin oktyabr ayında vətəndaşların qəbulu

## CƏDVƏLİ

| Qəbulu aparan şəxs | Qəbul günü |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri** Nağdəliyev Zeynal Səfər oğlu | 1 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri** Ələsgərov Fuad Murtuz oğlu | 2, 19 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri** Əmirov Natiq Ərziman oğlu | 5 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri** İsmayılov Süleyman Abbas oğlu | 6 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri** Əliyeva Fərəh Şirməmməd qızı | 7 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri** Seyidov Fərid Mirmufid oğlu | 8 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri** Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi** Həsənov Altay Tofiq oğlu | 9, 16, 30 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri** Mövsümov Şahmar Arif oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri** Hacıyev Hikmət Fərhad oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri** Məmmədəliyev Yusuf Ülfət oğlu | 14 |
| **Azərbaycan Respublikası Prezidentinin Mətbuat katibi** Səttarov Orxan Rəcəb oğlu | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 15 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri** Məcidov Tələt Tahir oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri** Vəliyev Ədalət Məqsəd oğlu | 20 |
| **Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hüseynov Emin Zamin oğlu | 21 |
| **Laçın rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Məmmədov Məsim Əhməd oğlu | 22 |
| **Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Vahid Rasim oğlu | 23 |
| **Şuşa rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Kərimov Aydın Zöhrab oğlu | 26 |
| **Kəlbəcər rayonunda Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Hacıyev Bəşir Qüdrət oğlu | 27 |
| **Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi** Yusubov Elçin Mustafa oğlu | 28 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri** Kərimov Gündüz Hacı oğlu | 30 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası Azərbaycan Respublikası Təhlükəsizlik Şurasının katibi** Usubov Ramil İdris oğlu | 29 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi - 1111.**

## Kritik xammal resurslarının iqtisadi təhlükəsizliyin təmin edilməsində rolu nəzərdən keçirilib




**2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu çərçivəsində "Kritik xammal resursları və qlobal iqtisadi təhlükəsizlik" mövzusunda sessiya təşkil olunub.**

AZƏRTAC xəbər verir ki, ekologiya və təbii sərvətlər naziri Rəşad İsmayılov sessiyada mövzu ilə bağlı fikirlərini bildirib.

Sessiyada "AzerGold" QSC-nin İdarə Heyətinin sədri Zakir İbrahimov, Asiya İnkişaf Bankının Azərbaycan üzrə ölkə direktoru Sunniya Durrani-Camal, İtaliyanın "Technip Energies" şirkətinin baş kommersiya direktoru Marko Villa, Qazaxıstanın "Green Spark" şirkətinin baş icraçı direktoru Marko Kastaqnini, Türkiyənin "Limak Holding" şirkətinin nümayəndəsi Birol Ergüven və "Kazakhstan Insulator Plant"ın kommersiya xidmətinin rəhbəri Tatyana Rıbalko iştirak ediblər.

Sessiyada kritik xammal resurslarının iqtisadi təhlükəsizliyin, sənaye dayanıqlığının və texnoloji suverenliyin təmin edilməsində rolu, təmiz enerji, qabaqcıl istehsal və rəqəmsal infrastruktur üçün etibarlı təchizat zəncirlərinin formalaşdırılması məsələləri nəzərdən keçirilib.

Müzakirələrdə Azərbaycanın və regionun strateji faydalı qazıntıların hasilatı, emalı və əlavə dəyər yaradan fəaliyyətlərin inkişafındakı potensialı diqqətə çatdırılıb. Kritik xammal resurslarının hasilatı, sənaye tərəfdaşlıqları və investisiya modellərinin tətbiqi, eləcə də bu sahədə beynəlxalq əməkdaşlığın genişləndirilməsi ilə bağlı fikir mübadiləsi aparılıb.

### *Muhəmməd Ərən BURAK:*
## “Beynəlxalq İnvestisiya Forumunda müzakirə olunan məsələlər müasir dünyanı düşündürür”



**"2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumunda müzakirə olunan məsələlər müasir dünyanı düşündürür. Biznesin və ümumiyyətlə, dövlətlərin inkişafını təmin edəcək məsələlər barəsində fikir və ideyaların səsləndirilməsi olduqca faydalıdır. Müzakirə olunan mövzular arasında "Bərpaolunan enerji və "yaşıl infrastruktur"a investisiyaları asanlaşdıran siyasət güzəştləri və əlverişli çərçivələr", "Yaşıl enerji" layihələrində təchizat zənciri ilə bağlı çətinliklər, o cümlədən texnologiya, avadanlıq, maliyyələşdirmə və icra ilə bağlı məhdudiyyətlər", "Yaşıl elektrik enerjisi" ötürülməsi və regional bazar inteqrasiyası daxil olmaqla, sərhədlərarası enerji əlaqə layihələrinin inkişafı" və digər mövzular siyasi xadimlər və dövlət rəhbərləri ilə yanaşı, biznes qurumlarını da maraqlandırır".**

Bu sözləri AZƏRTAC-a açıqlaması zamanı türkiyəli iş adamı Muhəmməd Ərən Burak deyib.

Onun sözlərinə görə, bu gün dünyada "yaşıl iqtisadiyyat"a keçid məsələləri çox müzakirə olunur.

"Bu istiqamətdə Türkiyədə də bir sıra addımlar atılıb. Lakin bu, heç də asan iş deyil. "Yaşıl enerji"dən istifadə, onun səmərəliliyi, tətbiqi və biznesə təsiri aktual məsələdir. Azərbaycan bu sahədə irəliləyişlərə nail olub. Mərkəzi Asiyadan Avropaya qədər uzanan "yaşıl enerji" dəhlizinin həyata keçirilməsində iştirak edən Azərbaycan və Türkiyədə yeni texnoloji şirkətlərin meydana gəlməsi üçün mühit yaranacaq. Forumda bu kimi mövzuların müzakirəsi eyni zamanda Azərbaycanda biznesin növbəti və yeni mərhələyə keçdiyini göstərir. Bu mərhələdə yeni texnologiyaların biznesə sirayət edəcəyi müşahidə olunacaq. Azərbaycanda yeni texnologiyaya əsaslanan biznes üçün səmərəli imkanlar yaradılıb və bu imkanlardan istifadə etmək lazımdır", - deyə Muhəmməd Ərən Burak əlavə edib.

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2026-cı ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Xankəndi** | Xankəndi, Ağdərə, Xocalı, Şuşa, Laçın, Xocavənd | **02** |
| 2. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Kürdəmir** | Kürdəmir, Mingəçevir, Yevlax, Ağdaş, Göyçay, Ucar, Zərdab | **02** |
| 3. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Şirvan** | Şirvan, Hacıqabul, Saatlı, Sabirabad | **02** |
| 4. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Ağdaş** | Ağdaş, Kürdəmir, Göyçay, Ucar, Zərdab | **02** |
| 5. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Mingəçevir** | Mingəçevir, Yevlax, Goranboy | **02** |
| 6. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Şəki** | Şəki, Balakən, Zaqatala, Qax, Oğuz, Qəbələ | **07** |
| 7. | **Baş prokuror** Kamran Əliyev | **Gəncə** | Gəncə | **07** |
| 8. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Abşeron** | Abşeron, Zəngilan | **09** |
| 9. | **Ekologiya və təbii sərvətlər naziri** Rəşad İsmayılov | **Yevlax** | Yevlax, Mingəçevir, Ağdaş, Göyçay, Goranboy, Ucar | **16** |
| 10. | **Mədəniyyət naziri** Adil Kərimli | **Füzuli** | Füzuli, Ağdam, Xocavənd | **16** |
| 11. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Qəbələ** | Qəbələ, İsmayıllı, Oğuz | **16** |
| 12. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Cəbrayıl** | Cəbrayıl, Zəngilan, Qubadlı | **16** |
| 13. | **Tibbi Ərazi Bölmələrini İdarəetmə Birliyinin (TƏBİB) icraçı direktoru** Anar Bayramov | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | **16** |
| 14. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Ağdam** | Ağdam, Füzuli, Xocavənd | **22** |
| 15. | **Energetika naziri** Pərviz Şahbazov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **23** |
| 16. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Qax** | Qax, Zaqatala, Balakən | **23** |
| 17. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Füzuli** | Füzuli, Cəbrayıl | **23** |
| 18. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **İmişli** | İmişli, Beyləqan, Saatlı, Sabirabad | **23** |
| 19. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Şuşa** | Şuşa, Xankəndi, Xocalı, Xocavənd | **23** |
| 20. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Vüsal Nəsirli | **Laçın** | Laçın, Kəlbəcər | **23** |
| 21. | **“Azəristiliktəchizat” ASC-nin sədri** İlham Mirzəliyev | **Sumqayıt** | Sumqayıt, Abşeron | **23** |
| 22. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **Ağcabədi** | Ağcabədi, Zərdab | **23** |
| 23. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Laçın** | Laçın, Kəlbəcər | **26** |
| 24. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **30** |
| 25. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Anar Əliyev | **Şuşa** | Şuşa, Xocavənd | **30** |
| 26. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **İmişli** | İmişli, Füzuli, Beyləqan, Xocavənd, Saatlı, Sabirabad | **30** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Qlobal investisiya məkanında etibarlı tərəfdaş

## 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizə beynəlxalq etimadın göstəricisi olmaqla yanaşı, yeni iqtisadi imkanlar deməkdir

**Azərbaycan növbəti dəfə beynəlxalq səviyyəli dialoq və iqtisadi müzakirələrin mərkəzi rolunda çıxış edir.**

Prezident İlham Əliyevin himayəsi altında sentyabrın 25-də Bakıda öz işinə başlayan 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin beynəlxalq nüfuzunun artmasının, etibarlı tərəfdaş imicinin və qlobal investisiya xəritəsində tutduğu mövqeyin daha da möhkəmlənməsinin bariz göstəricisidir.

Bu mühüm forum ölkəmizin investisiya cəlbediciliyini artırmaqla yanaşı, Cənubi Qafqazda sabitlik, bağlantı və etimadın bərpası istiqamətində vacib töhfələr verir. Tədbirin yeni investisiya istiqamətlərinin təşviqinə, regional iqtisadi əlaqələrin möhkəmlənməsinə və perspektivli layihələrin reallaşdırılmasına əhəmiyyətli təsir göstərəcəyi gözlənilir. Ümumiyyətlə, 2-ci Azərbaycan Beynəlxalq İnvestisiya Forumu ölkəmizin investisiya potensialını beynəlxalq auditoriyaya tanıdan, qlobal marağı konkret layihələrə çevirən mühüm platforma missiyasını yerinə yetirir.

Dünyada mürəkkəb iqtisadi proseslərin cərəyan etdiyi indiki dövrdə investorlar ilk növbədə sabitlik, proqnozlaşdırıla bilən siyasət və etibarlı tərəfdaşlar axtarırlar. Qlobal iqtisadiyyatın gərginliklər, təchizat zəncirlərinin yenidən qurulması və geosiyasi qeyri-müəyyənliklərlə qarşılaşdığı bir şəraitdə Azərbaycana olan yüksək maraq ölkəmizin etibarlı və sabit tərəfdaş kimi qəbul edildiyini təsdiqləyir. Ölkəmiz ardıcıl iqtisadi siyasəti, əlverişli biznes mühiti və beynəlxalq əməkdaşlığa açıq mövqeyi ilə bu etimadı möhkəmləndirir.

Forumun miqyası və coğrafiyası da tədbirin qlobal əhəmiyyətini nümayiş etdirir. Tədbirdə 3000-dən çox iştirakçı qeydiyyatdan keçib, 70 ölkədən xarici nümayəndələr iştirak edirlər. Forum hökumət rəsmilərini, qlobal investorları, biznes liderlərini, maliyyə institutlarını və aparıcı beyin mərkəzlərinin nümayəndələrini bir araya gətirərək çoxşaxəli dialoq mühiti formalaşdırıb. Əsas məqsəd qazanılmış beynəlxalq etimadı uzunmüddətli iqtisadi tərəfdaşlıqlara və konkret investisiya qərarlarına çevirməkdir.

Forum real iqtisadi nəticələr verən əməli platformadır. Təcrübə göstərir ki, ötən il keçirilən birinci forumda ümumi dəyəri 10 milyard ABŞ dollarından çox investisiya sazişləri imzalanmışdır ki, onların 7 milyard dollarından çoxu qeyri-neft-qaz sektoruna aid idi. Bu da forumun iqtisadiyyatın şaxələndirilməsi siyasətinə real töhfə verdiyini tam təsdiqləyir.

Bu il isə forumun əməkdaşlıq gündəliyi daha da genişlənir. İmzalanması nəzərdə tutulan sənədlər sənaye, maliyyə, tikinti, süni intellekt, bərpaolunan enerji, kənd təsərrüfatı, su resursları və idman kimi strateji sahələri əhatə edir. Burada əsas məqam yalnız sazişlərin həcmi deyil, investisiya mənbələrinin və istiqamətlərinin şaxələnməsidir. Azərbaycan ənənəvi enerji üstünlükləri ilə yanaşı, qeyri-neft-qaz sahələrində də xarici investorlar üçün cəlbedici məkana çevrilir.

Prezident İlham Əliyev forum iştirakçılarına ünvanladığı müraciətdə Azərbaycanda yaradılmış əlverişli investisiya mühitini xüsusi vurğulayaraq bildirib: "Ölkəmizdə təmin edilmiş makroiqtisadi sabitlik, investisiyaların qorunması və əlverişli sahibkarlıq mühiti investorların uzunmüddətli etimadı üçün möhkəm zəmin yaradır. Azərbaycanın strateji coğrafi mövqeyi, nəqliyyat-logistika imkanları, iqtisadi zonalarda yaradılmış müasir infrastruktur, vergi və gömrük güzəştləri, habelə dövlət-özəl tərəfdaşlığı mexanizmləri və tərəfdaş ölkələrlə təsis edilmiş birgə investisiya fondları investorlara dayanıqlı layihələrdə iştirak etmək və bütün regiona texnologiya, kapital və təcrübə gətirən tərəfdaşlıqlar qurmaq üçün geniş imkanlar açır".

Dövlətimizin başçısının da qeyd etdiyi kimi, regionda sülh gündəliyi, Orta dəhliz və yeni nəqliyyat-energetika marşrutları Azərbaycanın beynəlxalq rolunu əhəmiyyətli dərəcədə genişləndirir. Ölkəmiz sadəcə tranzit məntəqəsi olmaqdan çıxaraq istehsal, logistika və regional dəyər zəncirləri üçün baza funksiyasını yerinə yetirir. Azərbaycana gələn investor yalnız daxili bazara deyil, eyni zamanda Cənubi Qafqaz, Mərkəzi Asiya və Avropa istiqamətində geniş coğrafiyaya çıxış əldə edir.

Forum çərçivəsində keçirilən sessiyalarda qlobal iqtisadi proseslərin investisiyalara təsiri, Azərbaycanın strateji mövqeyi və regional əməkdaşlıq perspektivləri hərtərəfli müzakirə olunur, ölkənin iqtisadi potensialı vahid platformada təqdim edilir. Tədbirin əhəmiyyəti yalnız investisiya sazişləri ilə məhdudlaşmır. Burada iqtisadiyyat və maliyyə ilə yanaşı, kənd təsərrüfatı, enerji, ekologiya və "yaşıl inkişaf", sosial siyasət, əmək bazarı, şəhərsalma və beynəlxalq əməkdaşlıq kimi istiqamətlər üzrə də geniş fikir mübadiləsi aparılır. Bu kompleks yanaşma Azərbaycanın şaxələndirilmiş potensialını beynəlxalq auditoriyaya təqdim etməyə imkan yaradır və ölkəmizi dayanıqlı inkişaf perspektivləri olan dövlət kimi tanıdır.

Tədbirin mühüm xüsusiyyətlərindən biri də aparıcı beynəlxalq beyin mərkəzlərinin, xüsusən "The European House - Ambrosetti"nin strateji tərəfdaş qismində iştirakıdır. Bu amil tədbiri yalnız biznes və investisiya dialoqu platformasından çıxararaq, qlobal iqtisadi və geosiyasi proseslərin müzakirə olunduğu analitik məkana çevirir. Ekspert baxışlarının səslənməsi yeni investisiya trendlərinin, regional bağlantıların və gələcək inkişaf istiqamətlərinin daha dərin təhlilinə şərait yaradır. Eyni zamanda Azərbaycanın mövqeyini və iqtisadi potensialını beynəlxalq dairələrin diqqətinə çatdırır. Yekun olaraq vurğulamaq olar ki, Bakıda təşkil olunan bu mötəbər forum Azərbaycanın qlobal iqtisadi inteqrasiyadakı liderlik rolunu bir daha təsdiq edir və ölkəmizə yeni investisiya axınını genişləndirir.

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən Anım Günü ilə əlaqədar tədbir keçirilib





**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının təşkilatçılığı ilə 27 Sentyabr - Anım Gününə həsr olunmuş "Milli birliyimiz qələbəmizin təməlidir" tədbiri keçirilib.**



Tədbirdə AHİK-in kollektivi, üzv və tabe təşkilatların rəhbərləri, şəhid ailələri və müharibə veteranları iştirak ediblər.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin və Azərbaycanın ərazi bütövlüyü uğrunda canından keçmiş şəhidlərimizin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub. Sonra Azərbaycan oğullarının Vətən müharibəsindəki qəhrəmanlığından, şərəfli döyüş yolundan bəhs edən film nümayiş etdirilib.

Tədbirdə konfederasiya sədri Sahib Məmmədov çıxış edərək Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusunun 44 günlük Vətən müharibəsində qazandığı şanlı Zəfərdən, əsgər və zabitlərimizin rəşadətindən, xalqımızın nümayiş etdirdiyi həmrəylikdən danışıb, Qələbənin Azərbaycan tarixinə ən parlaq səhifə kimi yazıldığını vurğulayıb. Qeyd edilib ki, 27 Sentyabrın Anım Günü kimi təsis olunması dövlətimizin şəhidlərimizin əziz xatirəsinə ehtiramının ifadəsidir.

Çıxışda həmçinin Qarabağ və Şərqi Zəngəzurda aparılan bərpa-quruculuq işlərindən, "Böyük qayıdış" proqramının uğurlu icrasından, dövlətimizin Vətən naminə canından keçənlərin ailələrinə və müharibə iştirakçılarına göstərdiyi diqqət və qayğıdan bəhs edilib.

Vurğulanıb ki, Azərbaycanın Birinci vitse-prezidenti hörmətli Mehriban xanım Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu tərəfindən şəhid ailələrini, müharibə iştirakçılarını qayğı ilə əhatə edən çoxsaylı layihələr reallaşdırılır.

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası tərəfindən şəhid ailələrinə dəstək məqsədilə həyata keçirilən müxtəlif tədbirlər də iştirakçıların nəzərinə çatdırılıb.

Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, ehtiyatda olan polkovnik Cəlil Xəlilov çıxışında əks-hücum əməliyyatlarının əhəmiyyətini, Azərbaycan Ordusunun qəhrəmanlığını və hərbçilərimizin şücaətini, onların tarixi Zəfərin əldə olunmasında xüsusi rolunu qeyd edib.

Vətən müharibəsi veteranı, ehtiyatda olan polkovnik-leytenant Sahil Xəlilov keçdiyi döyüş yolundan və cəbhə xatirələrindən danışaraq qəhrəmanlarımızın gələcək nəsillər üçün əsl örnək olduğunu bildirib.

Vəfa Abdullayeva şəhid həyat yoldaşı Nurid Abdullayevlə bağlı xatirələrini bölüşüb, şəhid ailələrinə göstərilən dövlət qayğısından söz açıb.

Tədbir bədii hissə ilə davam edib. Şəhid gizir Telman Kəlbiyevin oğlu Elcan Kəlbiyevin səsləndirdiyi Vətənə həsr olunan şeir və qazi polkovnik Əhməd Şərifovun oğlu Əli Şərifzadənin ifasında "Ey Vətən" mahnısı iştirakçılara duyğulu anlar yaşadıb və alqışlarla qarşılanıb.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*




# Cəlilabadda şəhid ailələri ziyarət edilib

**27 Sentyabr - Anım Günü ərəfəsində Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı Rafiq Cəlilov şəhid ailələrini ziyarət edib.**



RİH başçısı Vətənimizin azadlığı, ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlər İsmayılov Anar, Ağayev Elçin, Qənbərli Rəşad və Əliyev Elməddinin ailə üzvləri ilə görüşüb.

Görüşlər zamanı Rafiq Cəlilov şəhidlərimizin Vətən qarşısında göstərdikləri misilsiz xidmətlərdən, onların qəhrəmanlığından və fədakarlığından danışaraq bildirib ki, şəhidlərimizin əziz xatirəsi xalqımızın yaddaşında daim yaşayacaq, onların həyat yolu və qəhrəmanlığı gələcək nəsillər üçün əsl örnək olacaq. İcra başçısı qeyd edib ki, dövlətimiz və xalqımız şəhidlərimizin əziz xatirəsini hər zaman uca tutur. Şəhid ailələri, qazilər dövlətin diqqət və qayğısı ilə əhatə olunub. Cəlilabad rayonunda da şəhid ailələrinin və qazilərin sosial-məişət məsələlərinin həlli, onların qayğı və ehtiyaclarının qarşılanması istiqamətində tədbirlər davam etdirilir.

Daha sonra RİH başçısı şəhid atalarının iştirakı ilə Göytəpə şəhərində yerləşən naməlum şəhidlərin məzarlarını ziyarət edib. Şəhid məzarlarının önünə gül dəstələri düzülüb, Vətənimizin azadlığı və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin ruhuna dualar oxunub, onların xatirəsi ehtiramla yad edilib.

Şəhid ailələri onlara dövlət tərəfindən göstərilən diqqət və qayğıdan razılıqlarını ifadə edib, minnətdarlıqlarını bildiriblər.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

# Neftçalada "yaşıl enerji" mövzusunda tədbir keçirilib

**Neftçala şəhərində "Neftçilərin Hüquqlarını Müdafiə Təşkilatı" İctimai Birliyinin (İB) təşkilatçılığı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və BP şirkətinin dəstəyi ilə həyata keçirilən "Neftçilər yeni dövrün "yaşıl enerji" mühəndisləri kimi" layihəsi çərçivəsində tədbir keçirilib.**



Tədbirdə Neftçala Rayon İcra Hakimiyyətinin məsul şəxsləri, layihə rəhbəri Həmid Xəlilov, layihənin təlimçi-ekspertləri - Amin Məmmədov, Sadıq Həsənov, həmçinin Neftçala rayonunda neft sahəsində işləyən mütəxəssislər və gənclər iştirak ediblər.

Tədbirin əsas məqsədi iqlim dəyişikliyi ilə mübarizə kontekstində yerli və regional səviyyədə maarifləndirmənin artırılması, həmçinin "yaşıl enerji" sistemlərinə keçid prosesinin təşviq edilməsidir.

Tədbir çərçivəsində layihənin təlimçi-ekspertləri tərəfindən müasir ekoloji çağırışlar və bərpaolunan enerji texnologiyalarına dair geniş təqdimatlar edilib. Son illər respublikamızda iqlim dəyişikliyinin fəsadlarının azaldılması və alternativ enerji mənbələrinin payının artırılması istiqamətində həyata keçirilən dövlət siyasəti və mühüm layihələr diqqətə çatdırılıb. İnteraktiv diskussiya formatında keçən yekun hissədə iştirakçıların sualları cavablandırılıb.

Tədbir zamanı aparılan müzakirələr və irəli sürülən təkliflər regionda ekoloji maarifləndirmənin davamlılığını təmin etməyə, eləcə də ölkəmizin "yaşıl enerji" ölkəsinə çevrilməsi istiqamətindəki milli hədəflərinə töhfə verməyə hədəflənib.

*S.CAVADOV,*
*"Azərbaycan"*

**27 Sentyabr Ümumdünya Turizm Günüdür**

# Azərbaycanın turizm coğrafiyası genişlənir

**Prezident İlham Əliyevin "Azərbaycan Respublikasında "Turizm işçiləri günü" peşə bayramının təsis edilməsi haqqında 1 sentyabr 2016-cı il tarixli sərəncamına əsasən, sentyabrın 27-si ölkəmizdə turizm işçilərinin peşə bayramı kimi qeyd olunur.**



Bütün sahələrdə yüksəksürətli inkişafa və böyük uğurlara nail olan Azərbaycan indi dünyada həm də turizm ölkəsi kimi tanınır. Bu sahədə həyata keçirilən tədbirlər turizmin inkişafında mühüm rol oynayır. Davamlı islahatların məqsədi ölkədə müasir turizm sahəsinin formalaşması, beynəlxalq standartlara cavab verən turizm infrastrukturunun yaradılması, turizmin müxtəlif növlərinin inkişafı, ölkənin mövcud turizm potensialının beynəlxalq aləmdə tanıdılmasıdır.

Müasir dünyada turizm, sadəcə, istirahət və əyləncə sektoru deyil, həm də qlobal iqtisadiyyatın ən dinamik sahələrindən biridir. Statistikaya görə, turizm dünya ÜDM-in təxminən 10 faizini təşkil edir, milyonlarla insan üçün məşğulluq mənbəyidir. Bu sahə, həmçinin infrastrukturun inkişafına, xidmət sektorunun təkmilləşməsinə və beynəlxalq əməkdaşlığın güclənməsinə xidmət edir.

Azərbaycan üçün də turizm milli iqtisadiyyatın şaxələnməsi siyasətində xüsusi yer tutur. Xəzərin sahilində yerləşən Bakıdan tutmuş dağ turizminin inkişaf etdiyi bölgələrə qədər ölkənin hər guşəsi xarici qonaqlar üçün maraqlı imkanlar yaradır. UNESCO-nun Dünya İrs Siyahısına daxil olan Qobustan qaya rəsmləri, İçərişəhər və Şəki Xan Sarayı Azərbaycanı turizm xəritəsində fərqləndirən əsas nümunələrdəndir. Dövlət tərəfindən həyata keçirilən infrastruktur layihələri, viza prosedurlarının sadələşdirilməsi, beynəlxalq tədbirlərin Bakıda təşkili ölkəmizin turizm imkanlarını daha da genişləndirmişdir.

Ümumiyyətlə, Azərbaycanda dünya standartlarına uyğun turizm obyektlərinin yaradılması ölkə rəhbərinin daim xüsusi diqqət yetirdiyi, qayğı göstərdiyi sahələrdəndir. Bu il sentyabrın 17-də Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın Şamaxıya səfər çərçvəsində "Pirqulu Park" hotelinin açılışı buna bir nümunədir. Şamaxı Astrofizika Rəsədxanasının yaxınlığında yerləşən kompleksin ərazisi 16 hektardan və 2 hotel binasından ibarətdir. 188 və 172 yerlik binalarda müxtəlif kateqoriyadan 175 nömrə və 2 kottec var. Bu isə eyni vaxtda hoteldə 366 qonağın qalmasına imkan verir. Kompleksdə restoranlar, kafelər, görüş və təlimlər üçün 160 yerlik zal mövcuddur. Ərazidə 600 nəfərlik konqres binası, uşaq əyləncə mərkəzi, amfiteatr yaradılıb.

Dövlət başçısı və Birinci-vitse prezidentin səfər çərçivəsində tanış olduqları "Nəsimi Bağları" kompleksi də sakinlərin və qonaqların asudə vaxtlarını səmərəli keçirmələri üçün yaradılmış növbəti bir məkan kimi diqqət çəkir. Rayonda turizmin inkişafına töhfə vermək, bölgənin turizm potensialını artırmaq, ərazinin təbii xüsusiyyətlərini qorumaq, həmçinin ailəvi istirahətin və asudə vaxtın səmərəli təşkili üçün rahat mühit yaratmaq prinsipləri əsasında qurulan kompleksin ərazisində müxtəlif istirahət obyektləri, ailəvi əyləncə infrastrukturu, fərqli mövzularda incəsənət nümunələri, iaşə obyektləri yerləşir.

Ölkəmizin Naxçıvan və Lənkəran, Quba-Qusar-Nabran, Şəki-Şamaxı-İsmayıllı, Qəbələ-Naftalan, Göygöl-Şəmkir-Gədəbəy və digər bölgələrdəki turizm mərkəzlərinin sıralarına erməni işğalından azad edilmiş Qarabağ bölgəsi də daxil olunub. Hər kəsə yaxşı məlumdur ki, Qarabağ və Şərqi Zəngəzur turizm baxımından geniş imkanlara malikdir. Burada turizmin istənilən növünün yaradılması və inkişafı mümkündür. Elə bu baxımdan Şuşa, Laçın, Xankəndi, Kəlbəcərə təşkil olunan turlar hər kəsin diqqətini cəlb edir.

Şuşa mədəni abidələri ilə turistlərin diqqətini çəkən unikal məkanlardan biridir. Turizmin inkişafı üçün yaradılan imkanlar - tikilən hotellər, restoranlar, digər iaşə obyektləri, ən əsası isə Zəfər yolu son bir neçə ildə bu bölgəni Azərbaycanın əsas turizm mərkəzlərindən birinə çevirib. Eyni zamanda burada keçirilən qlobal əhəmiyyətli tədbirlər də Şuşanı daha çox tanıdıb.

Xatırladaq ki, Füzuli, Zəngilan və Laçında üç hava limanı istifadəyə verilib ki, bu da turizmin əsas komponentlərindən biridir. Belə ki, bu aeroportlar Qarabağın və Şərqi Zəngəzurun hava qapıları olmaqla xarici turistləri ölkəmizə cəlb edir.

Şuşa ilə yanaşı, Laçında, Kəlbəcərdə, Xankəndidə, Zəngilanda da mehmanxanalar fəaliyyət göstərir. Kəlbəcərdə "İstisu" sanatoriyası yaradılmaqdadır. Sağlamlıq turizmi bu gün dünyada ən çox inkişaf edən, turistləri cəlb edən turizm növlərindən biridir. Bu baxımdan, Kəlbəcərin gələcəkdə əsas turizm məkanlarından biri olacağı şübhəsizdir.

Üç il bundan öncə Tərtər rayonunun Suqovuşan qəsəbəsində istifadəyə verilən istirahət parkı səyahətçilərin ən çox üz tutduqları məkanlardandır. Şuşa rayonu Daşaltı kəndi, Xocavənd rayonu Tuğ kəndi, Ağdamda Şahbulaq qalası ətrafında turizm infrastrukturunun yaradılması üzrə layihələr davam etdirilir.

Ötən il avqustun 30-dan Bakı-Ağdam-Bakı istiqamətində dəmir yolu fəaliyyətə başlayıb. Burada dövlət başçısının tapşırığı ilə infrastruktur tam olaraq bərpa edilib. Bölgədə infrastrukturun qurulması ilə yanaşı, turizm imkanları nəzərə alınaraq paralel qaydada zəruri işlər həyata keçirilir. Bu o deməkdir ki, yaxın gələcəkdə bu bölgəyə gələn turistlərin sayı daha çox olacaq.

Qarabağ və Şərqi Zəngəzur zəngin təbiətə malikdir. Bu ərazilərdə ekoturizm inkişaf edə bilər. Bundan başqa, səyahət turizmi, qış turizmi, sağlamlıq və kənd turizmi, bir sözlə, turizmin bütün növlərinin inkişafı mümkündür. Hazırda həmin ərazilərdə müxtəlif beynəlxalq və yerli tədbirlərin keçirilməsi gələcəkdə burada turizmin də inkişafına təkan verəcək.

Görünən odur ki, 30 illik erməni işğalından azad olunmuş şəhər və kəndlərdə turizmin hər bir növünün yaradılması üçün böyük potensial var. Əminliklə demək olar ki, yaxın zamanlarda bu yerlərin xoş sorağı dünyaya yayılacaq. Azərbaycanın turizm coğrafiyası genişləndikcə, ölkəmizə gələn turistlərin sayı daha da artacaq.

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

## "Sən mənimlə həmişə fəxr edəcəksən"

**Bəzən insanın ömrünü illərin sayı deyil, arxasında qoyduğu iz müəyyənləşdirir. Elə ömürlər var ki, yarımçıq qırılsa da, bütöv bir qəhrəmanlıq salnaməsinə çevrilir. Arzular, doğmalar, sevilən peşə, gələcək üçün qurulan planlar bir anda Vətən qarşısındakı borcun kölgəsində qalır. Natiq Əhmədovun da həyatı belə oldu. "Vətən bizi çağırır", - deyərək müharibəyə könüllü yollanan, döyüşə gedərkən ailəsinə təskinlik verən və ən ağır anda belə atasına "Sən mənimlə həmişə fəxr edəcəksən" söyləyən Natiqin 23 illik ömrü Hadrut uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlməklə əbədiləşdi.**



Şəhid Əhmədov Natiq Namiq oğlu 1997-ci il martın 9-da Əhmədli qəsəbəsində anadan olub. Əhmədlidəki 86 nömrəli orta məktəbi bitirdikdən sonra kompüter texnologiyaları üzrə təhsil alıb. Ancaq onun marağı tamam başqa bir sahəyə idi. Bərbərlik sənətini sevirdi, bu peşəni öyrənmiş, gələcəyini də onunla bağlamaq qərarına gəlmişdi. Oğlunun həvəsini görən atası onun üçün salon açmışdı. Natiq burada böyük həvəslə çalışırdı. Gördüyü işlərin videosunu çəkib atasına, bacılarına və yaxınlarına göndərər, "Baxın əl işlərim necədir", - deyə sevincini bölüşərdi.

Həyat Natiqi çox erkən yaşlarından sınağa çəkmişdi. 2003-cü ildə, o hələ uşaq ikən anasını itirmişdi. Üç bacının tək qardaşı kimi böyüyən Natiq zaman keçdikcə ailəyə həm də arxa-dayaq olmağa çalışmışdır. Bacılarının hər çətinliyinə özünü yetirməsi, onların qayğısına qalması xarakterinin ayrılmaz hissəsinə çevrilmişdi. Elə buna görə də doğmalarının yaddaşında hər zaman ailəsinə bağlı, qayğıkeş və etibarlı bir qardaş, yaxşı övlad kimi yaşayacaq.

Natiq həyatı sevirdi. Rəqs etməyə xüsusi həvəsi vardı və yaxınlarının dediyinə görə, çox gözəl rəqs edirdi. Futbol isə uşaqlıqdan ən böyük maraqlarından biri idi. Məktəb illərində dərsdən sonra futbol məşqlərinə gedərdi. Dostları, doğmaları ilə keçirdiyi vaxtdan zövq alar, gələcəyə həmişə ümidlə baxardı. Onun dilindən tez-tez bir cümlə eşidilirdi: "Hər şey çox yaxşı olacaq". Sonralar bu sözlər ailəsi üçün sadəcə Natiqin nikbinliyini ifadə edən bir cümlə deyil, ondan qalan ən əziz xatirələrdən birinə çevriləcəkdi.

Onun Vətən sevgisinin təməli isə böyüdüyü ailədə qoyulmuşdu. Atası Namiq Əhmədov övladlarını vətənpərvərlik ruhunda böyütmüşdü. Evlərində, hətta atasının avtomobilində Azərbaycan bayrağı daim göz önündə olardı. Ailədə Vətəndən, Qarabağdan danışılar, torpaq sevgisi uşaqlara kiçik yaşlarından aşılanardı. Belə bir mühitdə böyüyən Natiq üçün Vətən anlayışı sadəcə söz deyildi.

2014-cü ildə hərbi xidmətə çağırıldıqda da böyük həvəslə əsgərliyə yollandı. Hərbi xidmətini Naxçıvanda yerinə yetirdi. Ordudan qayıtdıqdan sonra yenidən sevdiyi peşəsinə qayıtdı. Həyat öz axarı ilə davam edirdi. Qarşıda görüləcək çox iş, həyata keçiriləcək çox arzu vardı. Lakin 2020-ci ildə cəbhədən gələn xəbərlər Natiqin həyat istiqamətini dəyişdi.

Tovuz döyüşləri zamanı o, ailəsinə demədən könüllü qeydiyyatdan keçmişdi. Atası bundan sonradan xəbər tutmuşdu. Üç bacının tək qardaşı kimi hər zaman ailəsinin yanında olan Natiq Vətənin dar günündə də kənarda qala bilməzdi. Bu qərar onun üçün ani hisslərin deyil, illərlə formalaşmış Vətən sevgisinin nəticəsi idi.

2020-ci il sentyabrın 27-də Vətən müharibəsi başlayanda artıq onun üçün gözləmək mümkün deyildi. Sentyabrın 29-da çağırış aldıqdan sonra dərhal döyüşə yollandı. Həmin gecə təcili tibbi yardım xidmətində çalışan atası Nizami rayonundakı çağırış məntəqəsində xidməti vəzifəsini yerinə yetirirdi. Namiq Əhmədov oğlunu döyüşə elə həmin çağırış məntəqəsindən yola saldı.

Cəbhədən imkan tapdıqca evə zəng edən Natiqin səsində böyük inam vardı. Atasına döyüşlərin gedişindən danışır, ordumuzun irəlilədiyini deyirdi. "İrəliləyirik, torpaqlarımızı, inşallah, erməni tapdağından azad edəcəyik", - söyləyirdi. Ailəsi onun bu sözlərindən həm qürur duyur, həm də narahatlıq keçirirdi. Natiq isə əksinə, cəbhədə olmasına baxmayaraq, sanki təhlükənin içində olan özü deyilmiş kimi ailəsinə ürək-dirək verirdi.

Döyüş yolu Füzuli və Hadrut istiqamətlərindən keçdi. Azərbaycan Ordusunun çavuşu Natiq Əhmədov həmin ərazilərin azadlığı uğrunda gedən ağır döyüşlərdə iştirak etdi. Günlər keçdikcə döyüşlər daha da şiddətlənirdi, telefon əlaqəsi yaratmaq çətinləşirdi. Buna görə hər zəng ailə üçün Natiqdən gələn ən qiymətli xəbər idi. Oktyabrın 11-i sübh tezdən edilən zəng isə sonuncu oldu.

Natiq atasına bir müddət əlaqə saxlaya bilməyəcəyini deyərək halallıq istəmişdi və "Ata, narahat olma, sən mənimlə həmişə fəxr edəcəksən", - demişdi. Bu sözlərdən sonra telefon susmuşdu.

Ailə əvvəlcə rabitənin zəif olduğunu düşündü. Saatlar keçdikcə narahatlıq artdı. Zənglər cavabsız qalırdı. Ertəsi gün isə atasına oğlunun şəhid olduğu xəbəri çatdırıldı. Natiq Əhmədov oktyabrın 11-də Hadrut uğrunda gedən döyüşlər zamanı artilleriya atəşi nəticəsində ağır yaralanaraq şəhidlik zirvəsinə ucalmışdı.

Onun həyatının son anlarının şahidi döyüş yoldaşı Hüseyn Qurbanov olmuşdu. Hüseynin xatirəsində həmin gün bütün ağrısı ilə yaşayır. Döyüşçülər Hadrut istiqamətində dağlıq ərazi ilə irəliləyərək hücuma keçərkən qarşı tərəf onları artilleriya atəşinə tutmuşdu. Hüseyn Natiqdən bir qədər arxada hərəkət edirmiş. Sonuncu mərmilərdən biri Natiqin yaxınlığına düşmüşdü. Hüseyn ona çatanda Natiq ağır yaralanmış, xeyli qan itirmişdi. Döyüş yoldaşı onun başını qolları arasına alaraq ayıq qalması üçün danışdırmağa çalışmışdı. "Yatma, danış mənimlə", - deyə səslənəndə Natiq bir neçə saniyə onun üzünə baxaraq son sözlərini söyləmişdi: "Gedirəm anamın yanına"...

Hüseyn bölüyə çatanda komandirin ilk sualı "Natiq haradadır?" olmuşdu. Döyüş yoldaşı isə artıq söz tapa bilməmiş, dizləri üstünə çöküb ağlamışdı. Natiqdən qalan qanlı qol saatını və şəhid olduğu yerdən bir ovuc torpağı yadigar götürmüşdü. Daha sonra döyüş yoldaşının qisasını almağa söz verərək özü yaralananadək Natiqin silahı ilə döyüşmüşdü.

Natiq Əhmədov oktyabrın 13-də Binədəki Şəhidlər xiyabanında torpağa tapşırıldı. Bu tarix ailə üçün başqa bir ağrılı xatirəni də daşıyırdı. İllər əvvəl anası da məhz həmin tarixdə dəfn edilmişdi. Uşaqlıqda ana itkisi ilə üzləşən Natiq illər sonra anasının torpağa tapşırıldığı gündə son mənzilə yola salındı.

Vətən qarşısında göstərdiyi xidmət dövlət tərəfindən yüksək qiymətləndirilmişdir. Natiq Əhmədov ölümündən sonra "Vətən uğrunda", "Xocavəndin azad olunmasına görə" və "Füzulinin azad olunmasına görə" medalları, həmçinin III dərəcəli "Vətənə xidmətə görə" ordeni ilə təltif edilmişdi.

Atası oğlunun yoxluğunun ağrısını daşısa da, onunla qürur duyduğunu gizlətmir. Natiqin Vətən, haqq və ədalət uğrunda mərdliklə döyüşdüyünü deyir. Onun üçün ən böyük təsəlli oğlunun Vətən qarşısında borcunu yerinə yetirmişdir. Namiq Əhmədovun "İkinci oğlum olsaydı, onu da Vətənin müdafiəsinə göndərərdim" sözləri bir şəhid atasının həm böyük itkisini, həm də Vətən qarşısında sarsılmayan mövqeyini ifadə edir.

Natiqin atasına sonuncu zəngində söylədiyi "Sən mənimlə həmişə fəxr edəcəksən" sözləri geridə qalanlara bir vəsiyyət kimi səslənir. O, verdiyi sözə əməl etdi. Üç bacının tək qardaşı, atasının yeganə oğlu, arzuları və sevdiyi sənəti olan 23 yaşlı bir gənc kimi döyüşə getdi, Vətən uğrunda canından keçərək şəhidlik zirvəsinə ucaldı. Natiqin uğrunda döyüşdüyü torpaqlar azad edildi. Bu gün azad Vətənin hər qarışında Natiq kimi oğulların igidliyinin, fədakarlığının və əbədi xatirəsinin izi yaşayır.

*Ülkər XASPOLADOVA,*
*"Azərbaycan"*

## Milli Qəhrəman Fazil Mehdiyevin xatirəsi ehtiramla yad edildi

**Ağdam Muğam Mərkəzində Azərbaycanın Milli Qəhrəmanı Fazil Mehdiyevin anım günü qeyd edilib. Ağdam Rayon İcra Hakimiyyətinin təşkilatçılığı ilə keçirilən tədbirdə rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov, YAP Ağdam rayon təşkilatının sədri Mansur Quliyev, Milli Qəhrəmanın ailə üzvləri, şəhid ailələri, qazilər hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak etmişlər.**



Tədbir iştirakçıları əvvəlcə Şəhidlər Abidə Kompleksində şəhidlərin xatirəsinə ucaldılmış lövhənin önünə gül dəstələri düzərək onları yad etmiş, ruhlarına dualar oxunmuşdur. Ağdam Muğam Mərkəzində davam edən mərasim Dövlət himninin səsləndirilməsi ilə başlamış, Ümummilli Lider Heydər Əliyevin, Milli Qəhrəman Fazil Mehdiyevin və torpaqlarımızın ərazi bütövlüyü uğrunda canlarını fəda etmiş Vətən övladlarının xatirəsi birdəqiqəlik sükutla yad edilmişdir. Daha sonra Milli Qəhrəmana həsr olunmuş sənədli film tədbir iştirakçılarına nümayiş etdirilmişdir.

Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov I Qarabağ müharibəsində şücaət göstərmiş Milli Qəhrəman Fazil Mehdiyevin keçdiyi şərəfli döyüş yolundan, Vətən qarşısında göstərdiyi misilsiz xidmətlərdən bəhs etmiş, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin rəhbərliyi ilə şəhid ailələrinə, qazilərə və Milli Qəhrəmanların ailə üzvlərinə göstərilən dövlət qayğısından söz açmış, Milli Qəhrəman Fazil Mehdiyevin xatirəsinin Ağdam ictimaiyyəti tərəfindən daim ehtiramla yad ediləcəyini qeyd etmişdir.

Digər çıxış edən natiqlər Milli Qəhrəman Fazil Mehdiyevin Vətən qarşısındakı xidmətlərindən bəhs edərək onun qəhrəmanlığının Azərbaycan xalqının yaddaşında əbədi yaşayacağını bildirmişlər. Qeyd edilmişdir ki, şəhidlərin və Milli Qəhrəmanların həyat və döyüş yolunun təbliği gənc nəslin milli-mənəvi dəyərlərə və Vətənə bağlı ruhda formalaşmasında mühüm əhəmiyyət kəsb edir.

Sonda Milli Qəhrəmanın qardaşı Azər Mehdiyev çıxış edərək onlara göstərilən diqqət və qayğıya görə Prezident İlham Əliyevə və Birinci vitse-prezident Mehriban xanım Əliyevaya öz minnətdarlığını bildirmişdir.

*Lazım QULİYEV,*
*"Azərbaycan"*

## Masallı rayon rəhbərliyi Bakıda şəhid məzarlarını ziyarət edib

**I və II Qarabağ müharibələrində olduğu kimi, 2023-cü il 19-20 sentyabr lokal antiterror əməliyyatı zamanı da Masallı rayonundan xeyli döyüşçü iştirak edib və araşdırmalarımıza görə, son döyüşdə onlardan 14 nəfəri şəhidlik zirvəsinə ucalıb.**



Onlar aşağıda adlarını qeyd etdiyimiz cəsur Vətən oğullarıdır: Abbasov Ruslan Əbülfət oğlu - baş leytenant. Abbasov Zaman Xaqani oğlu - baş leytenant. Abbasov Mehdi Əmrah oğlu - sıravi əsgər. Abbaszadə Emin Faiq oğlu - gizir. Abdullayev Asim Cavanşir oğlu - kiçik çavuş. Abuşov Habil Qulam oğlu - sıravi əsgər. Ağaxanov Osman Qədim oğlu - sıravi əsgər. Babayev Sahil Sarıbaba oğlu - MAHHXHQ hərbi xidmət qulluqçusu. Əhədov Eltac Əjdər oğlu - sıravi əsgər. Həmidli Mikayıl Vüqar oğlu - leytenant. İsayev İsmayıl Çərkəz oğlu - leytenant. Məmmədov Ramil Habil oğlu - sıravi əsgər. Mirzəyev Sənan Vüqar oğlu - sıravi əsgər. Yusifli Şəmistan Şikar oğlu - leytenant.

Hər birinin öz hekayəsi var. Bəzilərinin valideynləri ilə bərabər övladları bizə yadigar qalıb, bəziləri heç ailə qurmağa macal tapmayıb. Amma onları birləşdirən tərəfləri də az deyil. Bu cəhətlər təkcə Masallı torpağının yetişdirməsi olmaqları deyil, cəsurluqları, Vətən yolunda canlarını sipər etmələri, bu yolda şəhadətə yüksəlmələridir. Ömrün baharında torpağı atadan-anadan, sevgilidən, gül qoxulu övladlarından da uca tutaraq şəhadəti seçdilər və indi də öz boyları boyda bir məzarda uyuyurlar. Məkanları cənnət olsun, qəbirləri nurla dolsu. Bu igidlərdən ikisi - Mikayıl Həmidli və İsmayıl İsayev Bakıda, II Fəxri xiyabanda dəfn olunublar.

Leytenant Mikayıl Vüqar oğlu Həmidli 1998-ci il dekabrın 28-də Masallı rayonunun Ərkivan kəndində dünyaya göz açsa da, təhsilini əsasən Bakıda alıb. Yaxşı idmançı idi, 2017-ci ildə Muay-Tay üzrə Bakı birincisi olmuşdu. II Qarabağ müharibəsində Suqovuşan, Talış kəndi, Ağdərə və Füzuli istiqamətində gedən döyüşlərdə igidlik göstərmiş, "Suqovuşanın azad olunmasına görə" medalı ilə təltif edilmişdi.

2023-cü il sentyabrın 19-da başlayan lokal antiterror əməliyyatı zamanı Paprəvənd kəndi istiqamətindəki döyüşdə böyük şücaət göstərib, lakin düşmən gülləsinə tuş gələrək qəhrəmancasına şəhid olub. "Vətən uğrunda" medalı və 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeninə layiq görülüb (ölümündən sonra). Yeganə övladı - oğlu Davud atasının ölümündən sonra dünyaya gəlib.

Leytenant İsmayıl Çərkəz oğlu İsayev 2000-ci il aprelin 24-də Masallıda dünyaya göz açıb. Bakı İslam Universitetində təhsil alıb, 2021-ci ildə universiteti, eyni zamanda xüsusi atıcılıq kursunu uğurla bitirib. İdmanla xüsusi məşğul olurdu. Budo Döyüş Sənəti üzrə ikiqat dünya çempionu idi. İsmayıl İsayev çox istedadlı və çox cəsur bir gənc idi. "Vətəni sevmək imandandır" deyərmiş. Bu duyğular onu ordu sıralarına çəkmişdi. 2021-ci il iyulun 6-da ordu sıralarına yollanan İsmayıl 9 ay "N" saylı hərbi hissədə xüsusi xidmət keçərək post komandiri (çavuş rütbəsilə) təyin olunub. Sonra ona leytenant rütbəsi verdilər. Daha sonra XTQ-nin Komando mənsubu olaraq kəşfiyyat komandiri kimi xidmət edib. O da 2023-cü il sentyabrın 19-da Paprəvənd kəndi uğrunda gedən qızğın döyüşdə qəhrəmanlıq göstərib, düşmənin xeyli canlı qüvvəsini məhv edib, lakin döyüşdən sağ çıxa bilməyib, cəmi 23 yaşında şəhidlik zirvəsinə qovuşub. Ailə qurmağa macal tapmayıb.

Masallıda Vətən müharibəsi iştirakçıları, qazilər, şəhidlər həmişə uca tutulur. Rayon icra hakimiyyətinin başçısı Araz Əhmədov müharibə iştirakçılarının, qazilərin və şəhid ailələrinin problemləri ilə həmişə maraqlanır, bu qəbildən olan vətəndaşların problemlərini həll edir, onların yanında dayanır. Şəhid məzarlarını tez-tez ziyarət etməyi isə özünə mənəvi borc sayır. Bu günlərdə icra başçısı Araz Əhmədov və Aparatın Ərazi-təşkilat və ictimai-siyasi məsələlər şöbəsi müdirinin müavini, Müharibə iştirakçıları və şəhid ailələri ilə işin təşkili sektorunun müdiri Qəşəm Hadıyev Bakı şəhəri II Fəxri xiyabanda dəfn olunmuş şəhidlərin məzarlarını ziyarət ediblər.

Ziyarət zamanı Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin bərpası uğrunda canlarından keçən şəhidlərin əziz xatirəsi dərin ehtiramla yad olunub, məzarları üzərinə gül dəstələri düzülüb və ruhlarına dualar oxunub. Qeyd olunub ki, Azərbaycan xalqının yaddaşında əbədi yaşayacaq şəhidlərimizin keçdiyi şərəfli döyüş yolu və göstərdikləri qəhrəmanlıq Vətənə sədaqətin və milli iradənin parlaq nümunəsidir.

Ziyarət çərçivəsində şəhidlərin ailə üzvləri ilə görüş keçirilib. Görüş zamanı şəhid ailələrinin müraciətləri və onları narahat edən məsələlər dinlənilib, ailələrin qayğıları ilə maraqlanılıb.

Qeyd edək ki, Masallı Rayon İcra Hakimiyyəti tərəfindən şəhid ailələri və müharibə iştirakçıları ilə mütəmadi görüşlərin keçirilməsi, onların müraciətlərinin dinlənilməsi və qarşılaşdıqları məsələlərin həlli istiqamətində işlərin aparılması diqqətdə saxlanılır. Ziyarət bir daha göstərib ki, Vətən uğrunda canından keçən şəhidlərimizin əziz xatirəsi daim ehtiramla yad olunur, onların ailələrinə göstərilən diqqət və qayğı davamlı xarakter daşıyır.

*Seyran CAVADOV,*
*"Azərbaycan"*

## Vətən müharibəsini simvolizə edən 44 rəsm əsəri nümayiş etdirilmişdir

**Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında rəşadətli Azərbaycan Ordusunun 2020-ci ilin 27 sentyabrında başlayan 44 günlük Vətən müharibəsindən 6 il ötür. Qazax Rayon İcra Hakimiyyəti və Qazax Dövlət Rəsm Qalereyası Vətən müharibəsini simvolizə edən 44 ədəd rəsm əsərindən ibarət sərginin nümayişinə başlamışdır.**



Tədbir iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsini birdəqiqəlik sükutla yad etmişlər. Sonra Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov çıxış edərək 44 günlük Vətən müharibəsinin altıncı ildönümü münasibətilə təşkil olunmuş sərginin əhəmiyyətindən, həmçinin Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın haqq savaşında qazandığı uğurlardan danışmışdır. Qeyd etmişdir ki, 2020-ci ilin 27 sentyabrında başlanan müharibə 10 noyabrda Azərbaycan Ordusunun qələbəsi ilə başa çatmışdır. Bu, elə bir tarixi Qələbə olmuşdur ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında xalq olaraq şanlı ordumuzun cəbhədə qazandığı nailiyyətləri, dövlətimizin gücünü və qüdrətini bir daha dünyaya nümayiş etdirmişdir.

Sonra Bakı Dövlət Universitetinin Qazax filialının tədris və elmi işlər üzrə direktor müavini Məmməd Yusifov, Vətən müharibəsi şəhidi Xaliddin Nəsibovun atası Vaqif Nəsibov, polkovnik-leytenant Amil Göyüşov, Daş Salahlı kənd Sənətkarlıq Evinin müdiri Natəvan Mustafayeva çıxış edərək 44 günlük haqq savaşında əldə etdiyimiz tarixi qələbədən söhbət açmışlar.

*Sabir ƏLİYEV,*
*"Azərbaycan"*

## Oğuzda məktəblilər Anım Gününü qeyd ediblər

**Oğuz şəhər 2 nömrəli internat tipli texniki və təbiət təmayüllü liseydə 27 Sentyabr - Anım Gününə həsr olunmuş tədbir keçirilib.**

AZƏRTAC xəbər verir ki, Şəki-Zaqatala Regional Gənclər və İdman İdarəsinin Oğuz rayonu üzrə gənclər və idman sektorunun və liseyin birgə təşkilatçılığı ilə baş tutan tədbirdə şəhid ailələrinin üzvləri, Vətən müharibəsi iştirakçıları, rayon ictimaiyyətinin nümayəndələri, müəllimlər və məktəblilər iştirak ediblər.

Əvvəlcə Azərbaycanın ərazi bütövlüyü və suverenliyi uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi birdəqiqəlik sükutla yad olunub.

Çıxışlarda 27 Sentyabr - Anım Gününün xalqımızın yaddaşında xüsusi əhəmiyyət daşıdığı qeyd olunub, Vətən müharibəsi dövründə xalqımızın nümayiş etdirdiyi milli birlik və həmrəylikdən, şəhidlərimizin qəhrəmanlığından bəhs edilib.

Şəhid ailələrinin üzvləri şəhidlərimizin keçdiyi şərəfli döyüş yolundan, onların Vətən qarşısındakı fədakarlıqlarından danışaraq, əziz xatirələrinin daim yaşadılmasının vacibliyini vurğulayıblar.

Məktəblilər də tədbirdə fəal iştirak edərək Vətən müharibəsi, şəhidlərimizin qəhrəmanlığı və Azərbaycanın tarixi Zəfəri ilə bağlı fikirlərini bölüşüblər.

# Məktublar: problemlər, rəylər, təkliflər...



● ANIM

## Şəhidlər heç vaxt unudulmur



**Vətənin müdafiəsi, torpağın qorunması naminə canından, qanından keçərək şəhidlik zirvəsinə ucalmaq ən böyük şərəf və qürurdur. 2000-ci ildə cənub qapımız Astara rayonunun Dürriyə kəndində anadan olan Kənan Həsrət oğlu Dadaşovun da nəsibi əzəmətli, möhtəşəm şəhidlik zirvəsindən boylanmaq oldu.**

O, polad sinəsini canından artıq sevdiyi Vətəninə sipər edəndə ömrünün 18-ci ilini yaşayırdı. 2018-ci il sentyabrın 3-də Tərtər istiqamətində şəhidlik zirvəsinə ucalmaqla gələcək nəsillər üçün örnək olacaq bir tarix yazıb getdi. Beləcə Kənan torpağa gömülmədi, köç etdiyi yer könüllər oldu. Şərəfli ölümü ona Günəş ömrü bəxş etdi.

İndi Vətən, torpaq naminə göstərdiyi misilsiz şücaət ilə ölümsüzlüyə qovuşan, bütöv bir xalqın qəhrəmanlıq simvoluna dönən şəhid Kənan Dadaşovu Astara elində kiçik də, böyük də özünə iftixar mənbəyi, qürur yeri bilir. Kənan həmişə sevgi, məhəbbətlə yad edilir, adı dillərdən düşmür. Bu günlərdə onun da əziz xatirəsi anıldı. Uyuduğu müqəddəs məzarı Yeni Azərbaycan Partiyası Astara rayon təşkilatının sədri Həbib Cəfərov və ictimaiyyət nümayəndələri tərəfindən ziyarət olunaraq önünə gül dəstələri qoyuldu.

*Zəfər ORUCOĞLU*

● MƏMNUNLUQ

## Ailəmiz dövlət qayğısı ilə əhatə olunub

**Dövlət başçısının yerlərdə vətəndaş müraciətlərinə obyektiv şəkildə baxılması, vətəndaş məmnunluğunun təmin edilməsi ilə bağlı müvafiq sərəncam və tapşırıqlarının icrasına Qazax rayonunda da operativ yanaşılır.**

Xüsusilə də şəhid ailələri və müharibə iştirakçılarının sosial qayğılarının öyrənilməsi və həlli daim diqqətdə saxlanılır. Ən əsası da vətəndaş məmnunluğunun təmin olunması məqsədilə rayon icra hakimiyyətinin və aidiyyəti xidmət sahələrinin məsul əməkdaşları tərəfindən müraciətlər vətəndaşların iştirakı ilə yerində araşdırılır, mövcud problemlərin həlli istiqamətində müvafiq tədbirlər həyata keçirilir.



Mən Qarabağ döyüşlərində iştirak edib yaralanmışam, 1-ci qrup əliləm. Ailə üzvlərim çox olduğundan dolanışığımız olduqca çətinləşib. Bu barədə rayon icra hakimiyyətinə müraciət etdim. Çox çəkmədi ki, rayon icra hakimiyyətinin rəhbəri və şəhər bələdiyyəsinin sədri evimə gəlib, vəziyyətimlə maraqlandılar. İcra başçısı aidiyyatı qurumların nümayəndələrinə tapşırıqlar verdi, az bir zamanda çətinliklərimiz aradan qaldırıldı. Bir müddətdən sonra şəhər bələdiyyəsi ailəmizi nəzarətə götürdü. Bundan başqa, bir sıra məsələlərin həlli istiqamətində də bizə köməklik göstərildi.

Məlumat üçün qeyd edim ki, 2019-cu ildə rayon rəhbərliyi tərəfindən yaşadığım evin dam örtüyü də tamamilə yenilənmiş, otaqlarda döşəmə dəyişdirilmiş, köhnə qapılar yenisi ilə əvəz olunmuş, həyətə çınqıl döşənmişdir. Evin giriş hissəsinə beton tökülmüşdür.

Hörmətli redaksiya! Müharibə veteranlarına göstərilən diqqət və qayğıya görə ölkə rəhbərinə dərin minnətdarlığımızı bildiririk.

*İlham HACIYEV,*
*Qazax şəhər Əliağa Şıxlinski küçəsinin sakini, 1-ci qrup əlil*

## Şəhərin tıxacını yalnız dövlət qurumları yox, hamılıqla həll etməliyik

**Hamıya məlumdur ki, sentyabrın gəlişi ilə şəhərin gündəlik ritmi də dəyişir. Məktəblərin, universitetlərin və iş yerlərinin eyni vaxtda fəaliyyətə başlaması ilə səhər saatlarında demək olar ki, yollar tamamilə yüklənir. Xüsusilə məktəbə gedən uşaqların valideynləri tərəfindən şəxsi avtomobillərlə aparılması bu sıxlığın ən mühüm səbəblərindən birinə çevrilir. Bir ailə üçün bu, övladının təhlükəsizliyini və rahatlığını təmin etmək kimi görünür. Lakin eyni qərarı minlərlə ailə eyni anda verdikdə şəhər miqyasında tamamilə başqa mənzərə yaranır.**





Səhər saatlarında eyni istiqamətdə hərəkət edən avtomobillərin böyük hissəsini uşağını məktəbə gətirən valideynlər, universitetlərə şəxsi avtomobili ilə gedən tələbələr təşkil edir. Üstəlik, problem yalnız avtomobilin hərəkətdə olması ilə bitmir. Təhsil müəssisəsinin qarşısında dayanmaq, uşağı düşürmək, digər valideynin maşınının keçməsini gözləmək, geriyə dönmək, yolun kənarında ikinci cərgədə dayanmaq və bəzən bir neçə dəqiqəlik dayanacağı saatlarla axtarmaq ümumi nəqliyyat axınını daha da zəiflədir. Nəticədə bir məktəbin qarşısındakı kiçik dayanma bütün küçədə, hətta yaxın ərazilərdə belə tıxac yarada bilir.

Əslində, burada çox maraqlı bir paradoks var: valideyn övladını mümkün qədər məktəbin qapısına yaxın aparmaqla onun yol təhlükəsizliyini düşündüyünü hesab edir, amma yüzlərlə avtomobilin eyni anda məktəb qapısına yaxınlaşması uşaqlar üçün həmin ərazini daha təhlükəli də edə bilər. Avropa İttifaqının şəhər mobilliyi üzrə materiallarında da məktəblərin səhər və günorta saatlarında böyük sayda insanı qısa zaman ərzində hərəkətə gətirdiyi, valideynlərin uşaqları mümkün qədər girişə yaxın düşürmək istəməsinin isə təhlükəsizlik, səs-küy, hava çirklənməsi və nəqliyyat problemləri yaratdığı qeyd olunur.

Məsələyə inkişaf etmiş ölkələrin təcrübəsi ilə baxdıqda isə maraqlı yanaşmalar görmək mümkündür. Məsələn, İngiltərədə bir çox şəhərdə "School Streets" - yəni "Məktəb küçələri" modeli tətbiq olunur. Bu sistemdə dərsə giriş və çıxış saatlarında məktəbin qarşısındakı küçəyə adi avtomobillərin girişi məhdudlaşdırılır. Sakinlər, təcili yardım maşınları və xüsusi ehtiyacı olan şəxslər üçün istisnalar nəzərdə tutulur. Məqsəd valideynləri cəzalandırmaq deyil, məktəbin qarşısında qısa müddət ərzində yaranan avtomobil sıxlığını azaltmaq və uşaqlar üçün daha təhlükəsiz mühit yaratmaqdır. İngiltərə hökumətinin məlumatına görə, belə layihələrin tətbiq olunduğu ərazilərdə bir çox halda avtomobil sayı azalıb, piyada və velosipedlə məktəbə getmə artıb.

Əgər məktəb evdən 5-10 dəqiqəlik məsafədədirsə, hər səhər avtomobilə minib, həmin avtomobillə yolu daha da sıxlaşdırmaqdansa uşağı piyada aparmaq, əgər məsafə bir qədər uzaqdırsa, yaxınlıqdakı uyğun dayanacaqda avtomobili saxlayıb qalan yolu piyada getmək olmazmı? Eyni məhəllədə yaşayan iki-üç ailə növbəli şəkildə uşaqları məktəbə apara bilməzmi? Məktəbin servisindən istifadə etmək daha yaxşı olmazmı?

Bəzən bir avtomobilin şəhər üçün nə qədər böyük fərq yarada biləcəyini düşünmürük. Tutaq ki, bir məktəbdə 500 şagird var və onların yarısını valideynləri şəxsi avtomobillə gətirir. Bu, səhər saatlarında məktəbin ətrafına daxil olan yüzlərlə əlavə avtomobil deməkdir. Həmin valideynlərin yalnız müəyyən hissəsi alternativ nəqliyyat vasitəsindən istifadə etsə belə küçənin yükü əhəmiyyətli dərəcədə dəyişə bilər.

Əlbəttə, tamamilə valideynləri günahlandırmaq da düzgün olmaz. Çünki hər ailənin vəziyyəti eyni deyil. Uşağın yaşı, məktəbin evdən uzaqlığı, yolun təhlükəsizliyi, ictimai nəqliyyatın keyfiyyəti, hava şəraiti və valideynin iş qrafiki kimi amillər nəzərə alınmalıdır. Bəzi uşaqların avtomobillə aparılması həqiqətən zəruridir. İnkişaf etmiş ölkələrdə tətbiq olunan modellərdə də bu reallıq nəzərə alınır: xüsusi ehtiyacı olan uşaqlar, sakinlər və zəruri xidmətlər üçün istisnalar saxlanılır.

Ona görə məsuliyyət təkcə valideynin üzərinə düşmür. Məktəblərin, universitetlərin və nəqliyyat qurumlarının da burada rolu böyükdür. Məktəblərin qarşısında təhlükəsiz piyada keçidləri, düzgün dayanma-düşmə zonaları, nəqliyyatın tənzimlənməsi, servis avtobusları üçün xüsusi yerlər, velosiped və skuter infrastrukturu inkişaf etdirilməlidir. Lazım gəldikdə məktəb ətrafındakı küçələrdə dərs saatlarında müvəqqəti nəqliyyat məhdudiyyətləri tətbiq edilə bilər. Burada başqa bir vacib məsələ də var: məktəbə piyada və ya ictimai nəqliyyatla getmək yalnız şəhərin nəqliyyat probleminə aid məsələ deyil. Uşağın gündəlik hərəkəti onun fiziki aktivliyi, müstəqilliyi və şəhər mühitinə münasibəti baxımından da əhəmiyyətlidir. Bizdə çox vaxt "uşağı məktəbə özüm aparmasam, yaxşı valideyn deyiləm" kimi düşüncə formalaşır. Halbuki yaxşı valideyn olmaq uşağı mütləq avtomobillə məktəbin qapısına qədər aparmaq demək deyil. Yaxşı valideyn övladının təhlükəsizliyini düşünən, eyni zamanda onun müstəqilliyini, sağlamlığını və yaşadığı şəhərə münasibətini də formalaşdıran valideyndir.

Əlbəttə, bunun üçün şəhər də valideynə alternativ təqdim etməlidir. Piyada yolları təhlükəsiz deyilsə, dayanacaqlar məktəbdən uzaqdırsa, avtobuslar həddindən artıq doludursa, məktəb qarşısında nəqliyyatın idarə olunması yoxdursa, valideyndən sadəcə "maşın sürmə" tələb etmək real yanaşma deyil.

Lakin valideyn olaraq bizim də kiçik seçimlərimiz böyük nəticələr yarada bilər. Bəzən bir ailənin "bu gün maşınla yox, piyada gedək" qərarı şəhər üçün əhəmiyyətsiz görünür. Amma bunu minlərlə ailə etdikdə artıq bu, şəhərin nəqliyyat mədəniyyətinə çevrilir.

Yeni tədris ilinin başlanğıcında hər bir valideyn özünə sadə bir sual verə bilər: "Övladımı məktəbə aparmaq üçün avtomobil həqiqətən vacibdirmi, yoxsa bu, sadəcə, vərdişdir?"

Əgər məsafə uyğundursa, piyada gedək. Mümkündürsə, məktəb servisindən istifadə edək. Uyğundursa, ictimai nəqliyyata üstünlük verək. Heç olmasa avtomobili məktəbin qapısının qarşısında saxlamayaq, uşağı bir qədər kənarda təhlükəsiz şəkildə düşürüb yolun qalan hissəsini piyada getməsinə şərait yaradaq.

Çünki şəhərin tıxacını təkcə yol polisi, dövlət qurumları və yeni yollar həll edə bilməz. Şəhər nəqliyyatı milyonlarla fərdi qərarın nəticəsidir. Hər birimiz sükan arxasında öz qərarımızı veririk və həmin qərar yalnız bizim günümüzə deyil, arxamızda dayanan yüzlərlə insanın gününə də təsir edir.

Uşaqlarımız üçün daha rahat şəhər istəyiriksə, bəlkə də onlara yalnız yaxşı məktəb seçmək yox, yaxşı şəhərdə necə yaşamağı da öyrətməliyik.

*Nərminə ƏSGƏROVA,*
*"Azərbaycan"*

● MİNNƏTDARLIQ

## Xahiş etdim, əməl olundu

**Vətəndaşlarla yerlərdə keçirilən görüşlərin böyük səmərəsi olur. Bizim hər bir təklifimiz dinlənilir, qaldırdığımız məsələlər qısa müddətdə həll olunur.**

Goranboy Rayon İcra Hakimiyyəti başçısının Şəfəq kəndində keçirdiyi səyyar görüşdə bizi narahat edən bir sıra məsələləri rayon rəhbərinin diqqətinə çatdırdıq. Qaldırılan problemlər aidiyyəti xidmət sahələrinin əməkdaşlarının iştirakı ilə müzakirə edildi. Mən də görüş zamanı fərdi yaşayış evimə gedən su xəttinin təmizlənməsini xahiş etdim. Müraciətim qısa vaxtda öz həllini tapdı. Rayon Suvarma Sistemləri İdarəsinin işçiləri su xəttini təmizləyərək qaydaya saldılar.



Hörmətli redaksiya! Xahiş edirəm, vətəndaşların müraciətlərinə diqqətlə yanaşan və onların arzu və istəklərinin vaxtında yerinə yetirilməsini təmin edən aidiyyəti qurumlara minnətdarlığımızı çatdırasınız.

*Nailə ŞAHVERDİYEVA,*
*Goranboy rayonunun Şəfəq kənd sakini*

● EKOLOGİYA

## Şəhərlərin abadlığı həyətlərin səliqəsindən və yaşıllığından başlayır

**Sumqayıtın yaşayış massivlərində, məhəllə və mikrorayonlarında yaşıllıqların qorunması və artırılması şəhərin gözəlliyi və ekoloji sağlamlığı üçün böyük əhəmiyyət daşıyır. Yaşadığım 2-ci mikrorayonda yaşıllığın qorunması ilə yanaşı, yeni ağacların və gül kollarının əkilməsinə də xüsusi diqqət yetirilir.**



Yeni ağaclar əraziyə yaşıl görkəm verməklə yanaşı, havanın təmizliyinə də təsir edir. Gül kollarının və dekorativ bitkilərin əkilməsi isə yaşayış massivlərini daha səliqəli və baxımlı edir.

Bu işlərdə aidiyyəti qurumlarla sakinlərin birgə fəaliyyəti mühüm rol oynayır. Əkilən ağac və bitkilərə vaxtında qulluq göstərilməsi, onların suvarılması və mühafizəsi də əsas vəzifələrdəndir. Yaşıllıqlara bu cür münasibət gələcək nəsillər üçün bir örnəkdir.

Sakinlər həyətimizdə yaradılan yaşıllığı qorumaq üçün əllərindən gələni edirlər. Qonşular ağacların gövdələrini ağardır, qurumuş budaqları kəsirlər.

*Rasim HÜSEYNOV,*
*Sumqayıt şəhər sakini*

● TƏDBİR

## "Abidələrimizdə yaşayan tariximiz"

**Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi, eləcə də Lənkəran Gənclər Evinin birgə təşkilatçılığı ilə Lənkəran Gənclər Evində keçirilən tədbir "Abidələrimizdə yaşayan tariximiz" adlanırdı.**

Tədbirin əsas məqsədi gənclərin Qərbi Azərbaycanın tarixi-mədəni irsi barədə biliklərini artırmaq, milli yaddaşımızın qorunmasına diqqət çəkmək və tarixi irsimizin gələcək nəsillərə çatdırılmasında gənclərin fəal rolunu təşviq etmək idi.

Tədbirdə fəal və istedadlı gənclər - Yusif İbadov, Nazlı Cəfərzadə, Gülzar Abdulova və Yusif Nuri Qərbi Azərbaycanın tarixi abidələri, onların keçmişimiz və milli-mədəni irsimiz üçün daşıdığı böyük əhəmiyyət barədə təqdimatlarla çıxış etdilər. Hər təqdimatda tariximizin fərqli bir səhifəsi vərəqləndi, hər abidə öz hekayəsi ilə yenidən canlandı. Mövzu ətrafında aparılan fikir mübadiləsi və müzakirələr də maraqla qarşılandı.

Tədbirin ən yaddaqalan məqamlarından biri isə gənclər arasında keçirilən səsvermə oldu. Dörd fərqli təqdimat arasından iştirakçıların ən çox bəyəndiyi təqdimat müəyyən edildi. Səsvermənin nəticəsində çox səs toplayan təqdimatın sahibi Yusif İbadov Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsinin sertifikatına layiq görüldü.



Bu mövzuda keçirilən tədbir bir daha göstərir ki, tarix yalnız kitablarda deyil, abidələrdə, daşlarda, yaddaşlarda və onu unutmayan gənclərin dilində yaşayır.

*Z.ƏLİYEV,*
*Lənkəran*

● RAZILIQ

## Türkiyə vətəndaşının müraciəti əsasında sosial dəstək göstərilib

**Masallıda yaşayan Türkiyə vətəndaşı Gül Kurnaz rayon icra hakimiyyətinə müraciət edərək kirayə yaşadığı evdə övlad dünyaya gətirdiyini, hazırda maddi çətinliklərlə üzləşdiyini, kirayə haqqını ödəmək imkanının olmadığını və dəstəyə ehtiyac duyduğunu bildirib.**

Müraciət əsasında RİH başçısı Araz Əhmədov rayon mərkəzi xəstəxanası PHŞ-nin direktoru İlqar Ramizoğlu və tibb işçiləri ilə birlikdə Gül Kurnazın yaşadığı ünvana baş çəkib. Qonaqlar ana və yeni doğulan körpənin səhhəti ilə maraqlanıb, onların ehtiyaclarını öyrəniblər.

Gül Kurnaza və yeni doğulan körpəyə zəruri əşyalar təqdim olunub. Ailənin ərzaqla təmin edilməsi və digər zəruri ehtiyaclarının qarşılanması istiqamətində kömək göstərilməsi, o cümlədən Gül Kurnazın yaşadığı mənzilin aylıq kirayə haqqının ödənilməsi qərara alınıb.



Daha sonra ana və yeni doğulan körpə tibb işçiləri tərəfindən müayinə olunub, onların səhhəti qiymətləndirilib və zəruri tibbi tövsiyələr verilib.

*Habil CAVADOV,*
*Masallı rayon sakini*




# "Formula-1" Azərbaycan Qran-prisində sürət daha da artır




**Paytaxtımızda keçirilən "Formula-1" Azərbaycan Qran-prisinin ikinci günü həm üçüncü sərbəst yürüş, həm də sıralanma turu ilə yadda qaldı. Yarış bu il bir gün irəli çəkildiyindən sıralama cümə günü olub, əsas yarış isə şənbə günü keçiriləcək.**

Günün ilk əsas sessiyası olan üçüncü sərbəst yürüşdə Maks Ferstappen ən yaxşı nəticəni göstərdi. "Red Bull" pilotu Bakı trekinin divarlarına bir neçə dəfə çox yaxın keçməsinə baxmayaraq, 1:43.922 nəticə ilə sessiyanı lider olaraq tamamladı.

İkinci yeri Corc Rassel, üçüncü yeri isə Luis Hamilton tutdu. Rassel Ferstappendən cəmi 0,099 saniyə, Hamilton isə 0,111 saniyə geri qaldı.

Sıralanmanın əsas qəhrəmanı Corc Rassel oldu. "Mercedes" pilotu Q3-də 1:42.526 nəticə göstərərək Azərbaycan Qran-prisinin poul mövqeyini qazandı. Onun əsas rəqibi Şarl Lekleri 0,837 saniyə qabaqlaması diqqətçəkən məqam idi. Bu, 2026-cı il mövsümündə bu vaxta qədər ən böyük poul fərqi kimi göstərilir.

Günün ən maraqlı hadisələrindən biri Kimi Antonelli ilə bağlı oldu. "Mercedes" pilotu Q1-də qəza edərək bolidinə zərər vurdu və sessiyanı davam etdirə bilmədi. Nəticədə çempionat liderlərindən biri olan Antonelli start sıralamasında yalnız 16-cı mövqedə qərarlaşdı.

Bu, həlledici yarışın gedişinə də təsir edə biləcək əsas məqamlardan biridir: Antonelli pelotonun ortalarından start götürməli olacaq. Azərbaycan Qran-prisinin əsas yarışı bu gün saat 15:00-da başlayacaq. Yarış 51 dövrədən ibarət olacaq və Bakı Şəhər Halqasında keçiriləcək.

Beləliklə, ikinci günün sonunda Rassell poulun sahibi, Lekler və Piastri isə ilk üçlükdədir. Ferstappen isə FP3-də birinci olmasına baxmayaraq, sıralamada yalnız səkkizinci nəticəni göstərib. Bu gün əsas sual bu olacaq: Rassel ilk mövqeyini qoruyacaq, yoxsa Bakıdakı məşhur uzun düzlüklər və DRS zonaları start düzülüşünü yarış zamanı dəyişəcək? İstənilən halda əsas yarışın daha maraqlı və gərgin keçəcəyini demək olar.

Qeyd edək ki, "Formula-1" Azərbaycan Qran-prisi bu gün başa çatacaq.

## "Bura Bakıdır və trasda hər an hər şey dəyişə bilər"

**"Sıralama turundan sonra formam və bolidin göstəriciləri məni tam qane edir, əsas yarışa özümdən əmin şəkildə yollanıram".**




Bu sözləri "Formula-1" Azərbaycan Qran-prisinin sıralama turunda ən yaxşı nəticəni göstərən "Mercedes" komandasının pilotu Corc Rassel deyib.

Qələbə üçün mübarizə aparacaqlarını vurğulayan britaniyalı sürücü bildirib: "Hazırda hər şey yüksək səviyyədədir və qələbə üçün böyük şansımız var. Lakin unutmaq olmaz ki, bura Bakıdır və trasda hər an hər şey dəyişə bilər. Əminəm ki, Şarl Lekler də sabah çox motivasiyalı olacaq və birinci döngədə hücuma keçməyə çalışacaq. Lakin baş verənlərdən asılı olmayaraq, finişə birinci çatmaq üçün əlimizdən gələni edəcəyik".

## "İlk üçlükdə yer almaq məni çox sevindirir"




**"Küləkli hava şəraitinə baxmayaraq, ilk üçlükdə yer almaq məni çox sevindirir".**

Bu sözləri "Formula-1" Azərbaycan Qran-prisinin sıralama turunda üçüncü olan "McLaren" komandasının pilotu Oskar Piastri deyib.

O, sıralama turunda komandanın sürətini artırdığını bildirib: "Düşünürəm ki, sıralama turunda bir qədər sürət qazandıq. Bu, ilk dəfə baş vermir. Məşq zamanı bir qədər geridə qalırıq, lakin sıralama turunda əlavə sürət yığmağı bacarırıq. Üçüncü sessiyanın ilk cəhdindən sonra "McLaren" pilotlarının ilk iki pillədə olması mənim üçün də təəccüblü idi. Təəssüf ki, Corc Rassel ilə mübarizədə geri qaldıq. Ümumilikdə həftəsonunun gedişindən razıyam".

## Pilotlarla azarkeşlər bir arada



**"Formula-1" Azərbaycan Qran-prisinin yubiley həftəsi azarkeşlərlə pilotları bir araya gətirən Fan Forumla davam edib.**

Bakı Şəhər Halqasından verilən məlumata görə, bu, yarış həftəsinin ən gözlənilən tədbirlərindən biri olub.

Dənizkənarı bulvarda qurulan xüsusi səhnədə iki gün ərzində 11 komandanın ulduz pilotları azarkeşlərlə görüşüblər. Maks Ferstappen, Şarl Lekler, Kimi Antonelli, Corc Rassel, Karlos Sayns, Lando Norris, Oskar Piastri, Fernando Alonso, Valtteri Bottas və digər pilotların səhnəyə çıxışı böyük maraqla qarşılanıb.

Olduqca səmimi ab-havada keçən Fan Forum zamanı pilotlar azarkeşlərlə yarış barədə fikirlərini və təəssüratlarını bölüşüblər. Bu görüşlər azarkeşlərə "Formula-1" dünyasını daha yaxından tanımaq və sevdikləri pilotlarla ünsiyyət qurmaq imkanı verib.

Yerli və xarici azarkeşlərin böyük maraq göstərdiyi tədbir Azərbaycan Qran-prisi həftəsinə əlavə həyəcan qatıb. Pilotların fanatlarla birbaşa ünsiyyəti isə yarış həftəsinin ən yaddaqalan anlarından birinə çevrilib.

## Türkiyə mətbuatı "Formula-1" Azərbaycan Qran-prisini geniş işıqlandırır

**Türkiyənin aparıcı xəbər agentlikləri, televiziya kanalları, çap mediası və xəbər portalları "Formula-1" Azərbaycan Qran-prisini geniş işıqlandırır.**







Onuncu dəfə Bakıda keçirilən yarışla bağlı reportajlar və nəşrlərlə yanaşı, infoqrafika da hazırlanıb.

Qardaş ölkədəki idman azarkeşlərinə çempionatda iştirak edən komandaların sayı, eləcə də yarış trasının uzunluğu barədə məlumat verilib. Nəşrlərdə dünyanın ən məşhur pilotlarından bəzilərinin - Luis Hamilton, Corc Rassel, Maks Ferstappen, Şarl Lekler və digərlərinin Azərbaycan Qran-prisində iştirakı vurğulanıb.

Qeyd olunur ki, "Formula-1" təqvimində Bakı Şəhər Halqası 20 kəskin dönüş və 51 dövrə ilə ən uzun dövrələrdən biri hesab olunur.

*Hazırladı:*
***Dönməz ABBASOV***

# Bilmək istəyirəm

***- Xarici vətəndaş Azərbaycanda kirayə qaldıqda, onu yaşayış yeri üzrə kim və hansı müddətə qeydiyyata almalıdır?***

***Aylin MƏMMƏDLİ,***
***Qəbələ rayonu***

✓ - Sualınıza cavab olaraq bildiririk ki, xarici vətəndaşın Azərbaycan Respublikasında olduğu yer və ya yaşayış yeri üzrə qeydiyyata alınması məsələsi miqrasiya qanunvericiliyinin ən vacib, eyni zamanda ciddi əməl olunmalı prosedurlarından biridir. Nəzərə alınmalıdır ki, Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsində "xarici vətəndaş" termini işlədilməmişdir, əvəzində "əcnəbi" və "vətəndaşlığı olmayan şəxs" terminlərindən istifadə olunmuşdur.

**Əcnəbi** - Azərbaycan Respublikasının vətəndaşı olmayan və başqa dövlətin vətəndaşlığına mənsub olan, **vətəndaşlığı olmayan şəxs** - heç bir dövlət tərəfindən onun qanununa əsasən vətəndaş hesab edilməyən şəxsdir.

Azərbaycan Respublikasının Miqrasiya Məcəlləsinin 21.1-ci maddəsinə əsasən, Azərbaycan Respublikasında 15 gündən artıq müvəqqəti qalan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər olduğu yer üzrə qeydiyyata alınmalıdırlar (bu barədə ölkəyə daxil olan əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə dövlət sərhədinin buraxılış məntəqələrində Azərbaycan, rus və ingilis dillərində olan müvafiq bildiriş verilir).

Məcəllənin 21.2-ci maddəsinin tələbinə görə, bunun üçün əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin qaldığı yerin (mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər) müdiriyyəti və ya mənzilin, digər yaşayış sahəsinin sahibi əcnəbinin və ya vətəndaşlığı olmayan şəxsin ölkəyə gəldiyi vaxtdan 15 gün ərzində həmin şəxsin olduğu yer üzrə qeydiyyata alınması haqqında ərizə-anketi və onun pasportunun (digər sərhədkeçmə sənədinin) surətini müvafiq icra hakimiyyəti orqanına (Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidmətinə) ya internet informasiya ehtiyatı, elektron poçt vasitəsilə, ya da şəxsən təqdim etməlidir.

Ərizə daxil olduqdan sonra qurum dərhal əcnəbi və ya vətəndaşlığı olmayan şəxs barədə məlumatları Vahid Miqrasiya Məlumat Sisteminə daxil etməklə onları olduğu yer üzrə qeydiyyata alır və bu barədə 1 iş günü ərzində müraciət edən şəxsə məlumat verir.

Məlumat üçün əlavə edək ki, **yaşayış yeri** - mülkiyyət hüququnun dövlət qeydiyyatına alınması haqqında daşınmaz əmlakın dövlət reyestrindən çıxarış, order, icarə və ya kirayə müqaviləsi üzrə, yaxud Azərbaycan Respublikasının qanunvericiliyi ilə nəzərdə tutulmuş digər əsaslarla daimi və ya daha çox yaşadığı ev, mənzil, xidməti yaşayış sahəsi, mehmanxana, yataqxana, ahıllar və əlilliyi olan şəxslər üçün sosial xidmət müəssisələri və digər bu kimi yerlərdir.

**Olduğu yer** - şəxsin yaşayış yeri sayılmayan müvəqqəti yaşadığı mehmanxana, sanatoriya, istirahət evi, pansionat, kempinq, turist bazası, xəstəxana və ya digər belə ictimai yerlər, habelə mənzil, digər yaşayış sahəsidir (özünün, qohumunun, tanışının və s.).

Kirayə münasibətlərinə gəldikdə isə əgər əcnəbi və ya vətəndaşlığı olmayan şəxs yaşayış binasında (mənzildə) kirayəçi qismində yaşayırsa, bu, artıq sadəcə "olduğu yer" deyil, **yaşayış yeri üzrə qeydiyyat** kateqoriyasına aiddir.

Təcrübədə tez-tez səhv başa düşülən məqamlardan biri qeydiyyat öhdəliyinin birbaşa əcnəbinin (vətəndaşlığı olmayan şəxsin) öz üzərinə düşdüyü fikridir. Lakin qanunvericilik bu məsələdə ev sahibini məsuliyyətli tərəf edir. Miqrasiya qanunvericiliyinə əsasən, əcnəbini (vətəndaşlığı olmayan şəxsi) yaşayış yeri üzrə qeydiyyata almaq **mənzili kirayə verən şəxsin (mülkiyyətçinin)** birbaşa vəzifəsidir.

Diqqət yetirilməli məqamlardan biri odur ki, müəyyən edilmiş müddətdə qeydiyyat prosedurunun yerinə yetirilməməsi müvafiq olaraq Azərbaycan Respublikasının **İnzibati Xətalar Məcəlləsinin 577-ci maddəsi** ilə məsuliyyət yaradır. Belə ki, əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə yaşayış sahəsi vermiş Azərbaycan Respublikası vətəndaşları və ya Azərbaycan Respublikasında yaşayan əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər tərəfindən həmin məcəllə ilə müəyyən edilmiş qaydada onların vaxtında olduğu yer üzrə qeydiyyata alınması və qeydiyyatdan çıxarılması üçün tədbirlər görülməməsinə görə 300 manatdan 500 manatadək məbləğdə cərimə edilir.

Yekun olaraq bildiririk ki, kirayə verilən mənzilin sahibi ilə əcnəbilər və vətəndaşlığı olmayan şəxslər arasında şəffaflığa əsaslanan münasibətlərin qurulması cəmiyyətimizdə hüquqi mədəniyyətin və qarşılıqlı etimadın başlıca göstəricisidir. Qanunlara hörmətlə yanaşmaq həm mülkiyyətçini gözlənilməz cərimələrdən qoruyur, həm də əcnəbi və vətəndaşlığı olmayan şəxsin ölkəmizdə təhlükəsiz və rahat yaşamasını təmin edir.

**Sualı cavablandırdı:**
**Paşa SƏFƏROV,**
**Azərbaycan Respublikası Vəkillər Kollegiyasının üzvü**

## BEYNƏLXALQ HƏYAT

## İran ABŞ-yə Hörmüz boğazının yenidən açılması planını təklif edib

**İran ABŞ-yə Hörmüz boğazında gəmiçiliyi bərpa etmək və daha geniş danışıqlara başlamaq üçün 7 günlük plan təklif edib.**



"Financial Times" (FT) qəzetinin verdiyi məlumata görə, Tehran təklifi vasitəçilərlə çatdırıb. Bunu İranın xarici işlər naziri Abbas Əraqçi BMT Baş Assambleyasında çıxışı zamanı bildirib.

A.Əraqçinin dediyinə görə, müəyyən şərtlər yerinə yetirilərsə, boğaz bir həftə ərzində yenidən açılacaq və bundan sonra tərəflər münaqişənin tam həlli üçün danışıqlara başlayacaqlar.

Plan İranın neft ixracına müvəqqəti istisnalar və boğazın tədricən açılmasını nəzərdə tutan iyun ayında imzalanmış anlaşma memorandumuna əsaslanır.

Bu həftənin əvvəlində İranın yüksəkvəzifəli rəsmisi "Reuters" agentliyinə bildirib ki, BMT Baş Assambleyası İranla münaqişədə "ABŞ-nin diplomatiyaya qayıtması üçün qızıl fürsət"dir.

Ağ Ev İranın yeni təklifinin təfərrüatları ilə bağlı şərh verməkdən imtina edib, lakin tərəflərin "vasitəçilərin köməyi ilə müsbət və konstruktiv müzakirələr apardıqlarını" qeyd edib.

FT-nin qeyd etdiyi kimi, ABŞ administrasiyası Tehranın nüvə proqramını əhatə edən daha əhatəli bir razılaşmaya nail olmaq istəyir.

## Dövlət Duması seçkilərinin nəticələri açıqlandı

**Sentyabrın 25-də Mərkəzi Seçki Komissiyası 9-cu çağırış Dövlət Dumasına deputat seçkilərinin yekun nəticələrini açıqlayıb. Bu barədə RBC telekanalı xəbər verir.**



Hakim "Vahid Rusiya" partiyası 349 yer (federal dairədə 140 və təkmandatlı seçki dairələrində 209), Rusiya Federasiyası Kommunist Partiyası 37 yer (federal dairədə 32 və təkmandatlı seçki dairələrində 5), Rusiya Liberal Demokrat Partiyası isə 23 yer (federal dairədə 21 və 2 təkmandatlı seçki dairəsində) qazanıb. "Yeni insanlar" Partiyasının yeni Dövlət Dumasında 19 yeri var və hamısı federal dairədəndir. "Ədalətli Rusiya" 17 yerə malikdir (federal dairədə 13 və təkmandatlı seçki dairəsində 4).

Mərkəzi Seçki Komissiyasının rəhbəri Ella Pamfilovanın sözlərinə görə, "Rodina" Partiyası bir yerə malikdir və dörd yeri müstəqil namizədlər qazanıb.

Beləliklə, hakim partiya hazırda Dövlət Dumasının bütün doqquz çağırışı üçün rekord sayda yerə sahibdir.

MSK sədri bildirib ki, yeni deputatlar arasında xüsusi hərbi əməliyyatın 46 iştirakçısı var. Parlament seçkilərində fəallıq 59,8 faiz olub ki, bu da 2016-cı və 2021-ci illərdən daha yüksəkdir. Sədr həmçinin 33 bölgədə (Moskva da daxil olmaqla) məsafədən elektron səsvermənin nəticələrini açıqlayıb. "Vahid Rusiya" səslərin 50,79 faizini toplayıb, ikinci yerdə "Yeni insanlar" (13,04 faiz), üçüncü yerdə isə Rusiya Federasiyasının Kommunist Partiyası (11,45 faiz) qərarlaşıb. Rusiya Liberal Demokrat Partiyası (LDPR) səslərin 8,97 faizini, "Ədalətli Rusiya" isə 6,34 faizini toplayıb. Pensiyaçılar Partiyası 3,1 faiz, "Yaşıllar" 3,04 faiz, "Rusiya kommunistləri" 1,43 faiz, "Rodina" 1,38 faiz və Birbaşa Demokratiya Partiyası 0,45 faiz səs qazanıb.

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Prokurorluğunun rəhbərliyi və kollektivi prokurorluğun veteranı
**AYDIN NƏSİMİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Milli Məclisin deputatı Xanlar Fətiyev "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı
**CABİR İLYASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

İba Həsənov, Mütalib Şirinov, Vahid Alışov, Aydın və Qəşəm Məmmədovlar, Fikrət və Rafiq Hüseynovlar, Şamo və Emin Mustafayevlər keçmiş iş yoldaşları Rasim Hüseynova əzizi
**HÜZRƏT HƏSƏN QIZI MEHDİYEVANIN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Təlatüm Quliyev "Azərbaycan Hava Yolları" QSC-nin Müşahidə Şurası sədrinin müavini Sabir İlyasova qardaşı
**CABİR İLYASOVUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və | |
| Baş redaktor müavinləri | - 538-86-86, 538-35-55 | informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Məsul katib | - 539-43-23, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib müavinləri | - 539-44-91, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32 | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti 23L "Azərbaycan Nəşriyyatı" MMC 4-cü mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 3314
Sifariş 1232

Qiyməti 60 qəpik